# HACI ZEYNALABDİN
# TAĞIYEV

Bu kitab Azərbaycan Respublikasında 2020-ci ilin "Könüllülər İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 30 dekabr 2019-cu il sərəncamına əsasən Azərbaycan və Türkiyəli xanımların birgə əməyi və Gəncliyə Yardım Fondunun himayəsi ilə keçirilən ənənəvi XVII xeyriyyə sərgisindən əldə olunan vəsayitlə nəşr edilmişdir.

Bakı 2021

**Kitabın orijinal adı:**
Hacı Zeynelabidin Tagiyev

**Müəllif:**
Okan YEŞİLOT

**Nəşrə Hazırlayan:**
t.f.d Abbas QURBANOV

**Anadolu türkcəsindən**
**Azərbaycan türkcəsinə uyğunlaşdıran:**
Eldəniz SALMANOV

**Redaktor:**
Əziz SULTANOV

**Dizayn:**
Nicat QƏRİBOV

**Bakı-2021; İpəkyolu Nəşriyyatı: 324-032**
**İSBN: 978-9952-8102-3-3**

Bakı Şəhəri Səbail Rayonu
Cəfərov Qardaşları, 16.
**Tel:** (+994 12) 492 14 38
**Mobil:** (+994 51) 412 22 82
**Web sayt:**
www.ipekyolunesriyyati.az
**Elektron poçt:**
ipekyoluneshriyyati@gmail.com

# HACI ZEYNALABDİN
# TAĞIYEV

Okan YEŞİLOT

**Prof. Dr. Okan YEŞİLOT**

Türkiyənin Giresun vilayətində dünyaya göz açan Yeşilot orta məktəb təhsilini Samsunun Ladik Akpınar Öğretmenler liseyində, ali təhsilini Mərmərə Universiteti Atatürk Eği–tim fakültəsi Tarix müəllimliyi ixtisası üzrə almışdır. Dok–toranturasını İstanbul Universiteti Sosial Bilimlər İnstitutu Genel Türk Tarixi üzrə tamamlamışdır. Hal-hazırda Mərmərə Universiteti Fən-Ədəbiyyat fakültəsində Tarix bölməsində müəllim işləyən Yeşilot eyni zamanda Qafqaz Tarixi ka–fedrasının da müdiri vəzifəsini icra etməkdədir. Rus dilini bilən Yeşilotun: *Şahın Ülkesinde – Rus çarı I Pertonun İran elçisi Artemi Volinskiynin Kafkasya raporu (Yeditepe nəşriyyatı, İstanbul 2014), Hasan Melikzade Zerdabi ve Ekinci gazetesi* (Yeditepe nəşriyyatı, İstanbul 2012), Avrasyanın yükselen yıldızı Kazakistan (A.Kara ile birlikte)(İTO nəşrləri, İstanbul 2010), *Ateş çemberinde Azerbaycan* (Yeditepe nəşriyyatı, İstanbul 2010) adlı kitabları nəşr edilmişdir.

**TƏŞƏKKÜR**

Bu əsərin Azərbaycan türkcəsinə uyğunlaşdırılıb nəşr edilməsində maddi və mənəvi dəstəyi keçən Gəncliyə Yardım Fondunun rəhbərliyinə, xeyirsevər və layihə rəhbəri **Ahmet Tecim** bəyə çox təşəkkür edirəm.

## TƏQDİMAT

Vəqf və xeyriyyəçilik, mədəniyyət tariximizdən süzülərək ortaya çıxan iki qızıl kəlimədir.

Vəqf; ***"İnsanların və məxluqatın faydalanmaları üçün bir malı Allahın mülkü hökmündə düşünərək əbədi olaraq alış, satış, girov, hədiyyə, vəsiyyət, miras kimi nəticələnəcək hər cür hüquqi hökmün xaricinə çıxararaq təsis edilməsidir.*** Vəqf müəssisələşmiş bir kömək anlayışını ifadə edər. **"Vəqf yaradandan ötəri yaradılana mərhəmət, şəfqət və sevginin müəssisələşdiyi yerdir".**

***İslam inancına görə "kainatda hər şey fani olub tək Allah Baqidir Mütləq hakim Odur Mülk Onundur." Allah bütün varlığı əhatə etdiyi üçün Onu sevən yaratdıqlarını;*** insanları, heyvanları, bitkiləri hətta cansız varlıqları da sevər. Bu sevgi Allahın canlılara bağışladığı həyatı müqəddəs etmişdir. Bu da "əməldən sevgiyə qədər" bir çox şeydə fədakarlıq tələb edir. İşdə bu duyğulardır ki:

**"İnsanların ən xeyirlisi insanlara faydalı olan, malın ən xeyirlisi Allah yolunda xərclənən, vəqfin ən xeyirlisi də xalqın ən çox ehtiyac duyduğu şeyi qarşılayandır"** anlayışına çatılmışdır.

Bir hədisi-şərifdə ***"İnsan ölüncə üç şeydən başqa digər əməlləri sona çatar. Sağlığında etdiyi sədəqeyi-ca-***

***riyə, faydalanılan elm və xeyirli övlad"*** buyurulmaqdadır: Buradakı "Sədəqeyi-cariyə" sözü İslam hüquqçuları tərəfindən "Vəqf" olaraq şərh olunmuşdur.

**"Sevdiyiniz şeylərdən infak etmədikcə yaxşılığa çata bilməzsiniz"** ayəsi nazil olduğunda Əbu Talha (r.a) adlı səhabə Peyğəmbər Əfəndimizin (s.ə.s) yanına gələrək çox sevdiyi "Beyraha" adındakı bağçasını Allah rizası üçün vəqf etmək istədiyini bildirmişdir.

Yenə Hz. Ömər (r.a) da Xeybər qənimətlərindən payına düşən ərazini Hz. Muhamməddin (s.ə.s) tövsiyəsi üzərinə "əsli satılmamaq şərtiylə, kasıblara, yolda qalanlara, azad olmaq istəyən kölələr üçün vəqf etmişdir".

Yenə Hz. Əli (r.a) "Yenbu"dakı bir ərazisini və bulağını, Hz. Osman (r.a) "Rumə" quyusunu vəqf etmələri bu anlayışın dini təməlini meydana gətirir.

Ayrıca Hz. Muhamməddin (s.ə.s) özünün də Vəqf etməsi, vəqflərin yayılmasında təsirli olmuşdur. Necə ki Peyğəmbərimiz (s.ə.s) Mədinədə özünə aid olan xurma bağını vəqf edip gələn gəliri İslamın müdafiəsi və zəruri ehtiyaclara ayrılmasını istəmişdir. Eyni şəkildə, "Fədək" xurmalığını da səfərdə olanlar üçün vəqf etmişdir.

Vəqflər Əməvilər və Abbasilər dövründə də sürətlə inkişaf etdi. Belə ki, Mavəraünnəhirdən Atlantik sahillərinə qədər saysız Vəqf əsərlərinin sərgilənməsi bunun ən gözəl nümunələrindəndir.

Səlcuqlular dövründə isə hökmdarlar Vəqf qurmaqda sanki bir-birləri ilə yarışırdılar. Vəqflər Anadolunun türkləşmə və islamlaşmasına dada böyük ölçüdə təsirli olmuşdur.

Osmanlı dövləti dövründə isə Vəqflər sayəsində ac və möhtac insan qalmamış, heyvanat və təbiətə ən gözəl xidmət edilmiş, bu gözəl torpaqlar "Vəqf Cənnəti" halına gətirilmişdir.

Azərbaycan coğrafiyasında da tarixi vəsiqələr araşdırıldığı zaman yüzlərlə vəqfin və yüzlərlə xeyriyyəçi insanın yaşadığını görməkdəyik.

Xeyriyyəçilik mədəniyyəti **"iki dövlət, bir millət"** ruhunu daim möhkəmləndirmişdir. 1917-ci ildə Bakıda Anadolu Türklərinin Qurtuluş mübarizəsinə dəstək vermək məqsədiylə Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti və onun təşəbbüsü ilə "Qardaş Köməyi" adında bir jurnal çıxdı. Bu təşkilatın və çıxarılan dərginin vasitəsi ilə Anadolunun qurtuluş döyüşünə dəstək məqsədi ilə minlərlə adam toplandı. Bu insanlar pullarını, qızıllarını və ailələrinin zinət əşyalarını Anadoluya çatdırmaq üçün əlaqədar şəxslərə təslim etdilər.

Xeyriyyəçilik gəlir paylaşımındakı ədalətsizliyi minimuma endirərkən, yenə eyni səbəblə ortaya çıxa biləcək ictimai etirazların qarşısını da almışdır. Vəqflərin ölkə ticarətinin və iqtisadi həyatın inkişafında müsbət təsirləri olmuşdur.

Vəqflərin dil, mədəniyyət, tarix, hüquq, iqtisadiyyat, sosioloji hətta folklor olaraq daşıdığı dəyərlər baxımından əhəmiyyəti böyükdür. Osmanlılar dövründə dövlət, vətəndaşın canını və malını qorumaq, asayişi təmin etmək və dövlət nizamını təmin etməklə mükəlləf idi. Modern dövlət anlayışında dövlət vəzifələrindən sayılan təhsil, sağlamlıq, ictimai kömək xidmətləri o dövrd sadəcə dövlətin vəzifələri arasında görülməmiş və bu kimi bütün xidmətlər, şəxslərin qurduğu vəqflər tərəfindən icra edilmişdi.

Məşhur tarixçi və dövlət adamı Lütfü Paşa, Asaf-Namə adındakı əsərində, ***"ideal bir dövlət adamının gəlirlərinin üçdə birini xərcləməsini, üçdə birini qənaət etməsini, üçdə birini də xeyir işlərinə ayırması lazım olduğunu yazmaqdadır."***

XVIII əsrdə İstanbulda olan və Türk cəmiyyət həyatını çox yaxından tanıyan tarixçi d'Ohsson, Türk insanının xeyriyyəçiliyinin səbəbini İslam dinində görərək belə demişdir:

***"Quran", Türkləri dünyanın bütün millətlərin ən xeyirlisi və insan sevəri halına gətirmişdir".***

Təməllərində kömək etmə duyğusu ilə formalaşan ictimai bir təşkilat olan xeyriyyəçilik, kömək etmə duyğularının təzahürüdür.

Vəqfin təməlində Allah rizası vardır. Vəqf mülkü Allahın mülkü hökmündədir. Şərtləri xaricində istifadə edilməz, pozula bilməz, dəyişdirilə bilməz, alınıb satıla bilməz. Qısaca vəqf malının mənəvi toxunulmazlığı vardır.

Yetim və vəqf malı qəyyumları tərəfindən yerli-yerində ən gözəl şəkildə istifadə edilməlidir. Əks halda onları həlak edər.

Allah-Təala **"Xeyir işləyin ki, fəlaha çatasınız"** buyurur.

İslam mədəniyyətimizdən süzülərək ortaya çıxan bu ülvi anlayışla həyatına istiqamət verən yüzlərlə xeyriyyəçi insan var olmuşdur. Bunların başında da Hacı Zeynalabdin Tağıyev gəlməkdədir. Türk-İslam dünyası üçün nümunəvi xeyriyyəçi insan olan Hacı Zeynalabdin Tağıyevin həyatını və düşüncələrini gənc nəsillərə çatdırmaq hamımız üçün əhəmiyyətli bir vəzifədir. Qiymətli elm adamı Prof. Dr. Okan Yeşilot Bəyin bu kitabının Azərbaycan oxucusuna çatdırmağı çox əhəmiyyətli gördük və icazələri üçün də minnətdarıq. Yenə bu əsərin nəşr edilməsinə dəstək verən Azərbaycanlı və Türkiyəli xeyriyyəçi xanımlara da təşəkkür edirik. Kitabın hazırlanması və ərsəyə gəlməsinə görə də İPEKYOLU nəşriyyatına və dəyərli əməkdaşlarına ayrıca təşəkkür edirik.

Dünən olduğu kimi bu gündə gözəl xeyriyyəçi insanların yetişməsi duası ilə…

**Ahmet TECİM**
Gəncliyə Yardım Fondu

## ÖN SÖZ

Hacı Zeynalabdin Tağıyev Azərbaycan türkü bir neft maqnatıdır. Azərbaycan türkləri və hətta bütün Rusiya türkləri arasında onu məşhur edən isə onun zənginliyi deyil, daha çox xeyirsevərlik fəaliyyətləri və xüsusilə də mətbuat və təhsil sahəsinə vermiş olduğu maddi dəstəklərdir. O, Çar Rusiyasının son dövrlərinə, Azərbaycan Cümhuriyyətinə və Sovetlərin ilk dövrlərinə şahidlik etmişdir. Oxuma-yazma bilmirdi, kasıb bir ailənin övladı olaraq dünyaya gəlmişdi, təhsil ala bilməmişdi. Taleh ondan yana döndü və bir neft milyarderinə çevrildi. Bundan sonra qazancının böyük bir hissəsini xeyir işlərinə, xüsusilə də qız və oğlan uşaqlarının təhsil fəaliyyətlərinə həsr etdi.

Tağıyev sərvətini ailəsi, hətta təkcə öz milləti üçün deyil, Hindistan, Misir, İran, Osmanlı dövləti və Rusiya türkləri üçün təşkil edilən bir çox xeyir işinə və tədris fəaliyyətinə kömək etmək məqsədilə sərf etdi. Türkiyənin Edirne şəhərində tikilən bir məscid üçün lazımi maddi dəstəyi verərkən, eyni anda İsmayıl Qaspınarlının çalışmalarını, İran və Misirdəki təhsil və mətbuat fəaliyyətlərini dəstəklədi. Müsəlman coğrafiyasındakı hadisələri yaxından təqib etməyə çalışdı. Yardımları o səviyyəyə çatdı ki, bəhs etdiyimiz bu coğrafiyada təhsil və ya xeyir işlərində yer alanlar çətinə düşən kimi Tağıyevə müraciət edirdilər, onun yanından heç biri əliboş dönmürdü.

Tağıyev özünün təhsil almamış olmasının çətinliyini hər daim içində hiss etmiş olmalıdır ki, uşaqların və yeniyetmələrin təhsilsiz qalmalarına razı olmurdu. Tikdirdiyi təhsil müəssisələrindən başqa, millətinin gələcəyinin daha da parlaq olması naminə gəncləri təhsil almaları və yaxşı yetişmələri üçün öz hesabına xaricə göndərdi.

O dövrdə müsəlman cəmiyyətlərdə qız uşaqlarının təhsil almaları nə qədər çətin olsa da, qızların təhsili üçün çox səy göstərdi və 1901-ci ildə ilk Müsəlman Qız məktəbini açmağa nail oldu.

Azərbaycanın iqtisadiyyat, təhsil və mədəni həyatı içində çox mühüm bir yeri olan Tağıyev haqqında kifayət qədər tədqiqatlar aparılmayıb. Xüsusilə Sovet İttifaqı dövründə kapitalist sayıldığı üçün Tağıyevlə əlaqədar araşdırmalar aparılmamış, gördüyü fəaliyyətlər isə başqalarının adına yazılmışdır. Sovet İttifaqı dağıldıqdan sonra Azərbaycan türkləri öz tarixlərindəki milli şəxsiyyətlərlə əlaqəli daha dərin çalışmalar başlatdılar. Bu mövzu ilə əlaqədar bir çox məqalənin nəşri ilə bərabər, kitablar da yazılmağa başlandı. Onunla əlaqəli, xüsusilə də yaşadığı dövrdə yazılmış olan əsərlərin təkrar nəşr edilməsi istər o dövrü, istərsə də onun həyatındakı təfərrüatları daha dəqiq görə bilməyimiz baxımından mühümdür. Həmçinin xatirələr, qəzet məqalələri və s. də buna daxildir. Azərbaycanın tarix, iqtisadiyyat, təhsil və mədəniyyət həyatı üçün çox mühüm bir yer tutan bu şəxsiyyətin həyatı ilə əlaqəli cavab axtaran bir çox sual var. Təmənnamız bu yöndədir ki, bu sahədəki çalışmalar davam etdirilsin. Bu əsər ad-sanı öz ölkəsinin sərhədlərini aşmış, maarifpərvər və xeyirsevər bir zəngin olan Tağıyevin həyat və fəaliyyətlərini ortaya qoymaq məqsədi ilə qələmə alınmışdır.

Əlinizdəki bu kitabı hazırlayarkən Tağıyev haqqında Azərbaycanda nəşr edilən əsərləri imkan daxilində əldə etməyə çalışdıq. Bunların yanında İstanbulda Tağıyevin nəvəsi olan Suna və Gülnar xanımlarla da görüşməyi ehmal etmədik. Bu görüşümüzdə kitablarda ifadə edilən bəzi hadisələri

şahidlərin danışdıqları şəkildə özlərindən dinləmə imkanı əldə etdik.

Əlbəttə, bu çalışmada çoxyönlü bir şəxsiyyətin həyatını və fəaliyyətlərini incələyərkən əskiklərimizin olmaması mümkün deyil. Ancaq əldəki maddi və mənəvi imkanlar nisbətində hazırladığımız bu əsərin gələcəkdə Tağıyevin həyatındakı bir çox bilinməyəni aydınladacaq olan araşdırmaçılara işıq tutması ən böyük arzumuzdur.

Əsərin ərsəyə gəlməsinə dəstək verən Mahirə Əsədovaya, Məlahət İbrahimqızına, Prof. Dr. Nesrin Sarıahmetoğluna, Prof. Dr. Belkıs Ulusoya, Mustafa Karagüllüoğluna, o cümlədən Azərbaycan türkcəsinə uyğunlaşdıran Eldəniz Salmanov və nəşrə hazırlayan Dr. Abbas Qurbanova çox təşəkkür edirəm.

**Okan YEŞİLOT**
Üsküdar, 2015

# TAĞIYEVDƏN ƏVVƏL və ONUN DÖVRÜNDƏ AZƏRBAYCANDA SİYASİ VƏZİYYƏT

1736-cı ildə taxta keçən Nadir Şahın 1747-ci ildə qətlə yetirilməsi ilə Azərbaycanda İran hakimiyyəti sona çatdı.[1] Təbriz valisi Rza Xan Osmanlı hökumətinə müraciət edərək, Azərbaycanda müstəqil bir səltənətin qurulması üçün şahzadə istəsə də, bu fürsətdən faydalana bilmədi[2]. Çar Rusiyası Zaqafqaziyanın digər hissəsini ələ keçirmək üçün gürcü kralı II İraklini II Yekaterinanın vassalı elan etdi. 1775-ci ildə İrandakı Qacarlar xanədanlığının lideri Ağa Məhəmməd Şah, Zaqafqaziyanın digər hissəsini işğal edib Tiflisə daxil olduğunda Rusiya Gürcüstana köməyə gəldi. 1801-ci ildə I Pavel bir neçə il əvvəl imzalanan müqaviləni pozaraq Gürcüstanı Rusiyanın bir əyaləti halına gətirdi[3].

Bölgədə İranın təzyiqi zəifləyincə Azərbaycan tarixində xanlıqlar dövrü başladı. Bu xanlıqlar şimalda Şəki, Qarabağ, Gəncə, Bakı, Dərbənd, Quba, Naxçıvan, Talış və İrəvan, cənubda isə; Təbriz, Urmiya, Ərdəbil, Xoy, Makü və Marağa xanlıqları idi[4]. Şəki və daha sonra Quba xanlığı bütün xanlıqları birləşdirib vahid bir güc olmaq istəsələr də, bacara bilmədilər. Burada ən çox təsir edən amil öz aralarındakı intriqalar, Rusi-

1. T.Swietochowski, Müsəlman Camaatdan Beynəlmiləl Şəxsiyyətə Rus Azərbaycanı, (tərc. N. Mər), Bağlam nəşrləri (İstanbul 1988), səh. 20.
2. Z.V. Togan "Azərbaycan", İA, cild II, (1961), səh. 115
3. D. Çəlik, "XIX və XX əsrlərdə Aəzrbaycan," B, sayı 3 (1996), səh. 60.
4. Z. Bünyadov, "Azərbaycan", DİA, cild IV, səh 322; N. Dövlət, Çağdaş Türklər, Çağ nəşrləri, (İstanbul 1993), səh. 271

ya və İranın bölgədəki nüfuzu və təzyiqi, xanlıqların iqtisadi və sosial vəziyyəti idi. Zaqafqaziyada Rusiya qədər İran, İngiltərə və Fransanın da marağı var idi. İngiltərə İranı Rusiyaya qarşı silahlandırmaq istəyirdi. Bu məqsədlə İngiltərə 1800-cü ildə elçisini İrana göndərib siyasi və iqtisadi münasibətlər qurdu və müqavilələr imzaladı[5].

Çar Rusiyası 1801-ci ildə Gürcüstanı işğal edərək Zaqafqaziyadakı işğalını sürətləndirdi. Daha sonra növbə Azərbaycana gəldi. Rusiya Azərbaycan torpaqlarını işğal etmək üçün xanlıqları bir-bir öz tərəfinə çəkmək və hakimiyyəti altına almaq üçün müxtəlif siyasi gedişlər etdi.

Çar ordusunun Zaqafqaziya üzrə komandanı general Sisianovun Car-Balakəndən[6] sonrakı hədəfi Gəncə xanlığı[7] oldu. General Sisianov Gəncə xanı Cavad Xana təslim olmağı təklif etdi. Lakin onun bu təklifi qəbul edilmədi. 1804-cü ilin yanvar ayında rus orduları Gəncəyə hücuma keçdi. Cavad Xan və oğlu  savaş meydanında şəhid olduqdan sonra Gəncə xanlığı çar Rusiyası tərəfindən işğal edildi.[8] Azərbaycan torpaqlarının Rusiya tərəfindən işğal edilməsi Osmanlı və İran dövlətləri tərəfindən etirazla qarşılandı. İran və Rusiya arasında 1804-cü ildə başlayan müharibədən bir il sonra Qarabağ xanı İbrahim Xəlil Xan və Sisianov arasında bir saziş imzalandı. Bu müqaviləyə əsasən Qarabağ xanlığı Rusiyanın tabeliyinə keçdi. Bundan bir həftə sonra Şəki xanlığı da bir saziş imzalayaraq rus hakimiyyətinə tabe olmağı qəbul etdi. Daha sonra Bakı xanı

5. Azərbaycan Tarixi, Azərbaycan Dövlət Nəşriyyatı, (Bakı 1994), səh. 569
6. Car-Balakən Azərbaycanda tarixi bir bölgədir. Dağıstan, Gəncə xanlığı və Gürcüstan ilə həmsərhəddir. 1803-cü ildə Gürcüstandakı rus ordusu General-Leytenant V. S. Qulvakovun komandanlığında Car-Balakənə hücum etdi. Yerli əhali Çar ordusuna qarşı müqavimət göstərdi. Qulvakovun öldürülməsindən sonra Çarın verəcəyi cəzadan çəkinən xalq 1804-cü ildə nümayəndələrini Tiflisə göndərərək Rusiyanın hakimiyyətini qəbul etdiklərini və ildə 220 pud ipək verəcəklərini dedilər. Car-Balakən 1830-cu ildən sonra əyalət halına gətirildi.
7. Azərbaycan Tarixi, (Bakı 1994), səh, 570.
8. S. Təkinər, "Azərbaycan Türkləri", D nömrə 60 (1970), səh. 6 Gəncə şəhərinin adı Yelizavetpol olaraq dəyişdirildi. M.Saray, Rus İşğalı Dövründə Osmanlı Dövləti və Türküstan Xanlıqları arasındakı siyasi münasibətlər (1775-1875), TTK, (Ankara 1994), səh. 136.

Hüseyinqulu xan Sisianov tərəfindən edilən təslim olmaq təklifini qəbul etdi, lakin müqaviləni imzalamağa gələn Sisianov Həmzə bəy tərəfindən öldürüldü.[9]

General Sisianovun öldürülməsindən sonra rus ordularına komandan General Zavalşin təyin edildi. Zavalşin Bakı xanlığını öz hakimiyyəti altına almağa çalışdı. 1806-cı ildə rus qoşunları komandanı General Bulqakov təslim olduqları təqdirdə xalqa toxunulmayacağını vəd verdi və buna təminat olaraq oğlunu Bakıya göndərdi. Əhali buna inanmadı və dağlara çəkildi. Xan isə əvvəlcə Qubaya, daha sonra da İrana qaçdı. Beləliklə, Bakı xanlığı ruslar tərəfindən işğal edildi. Bu hadisədən bir müddət sonra Quba xanlığı da təslim oldu.[10] Xanlıqlardan bəziləri müxtəlif vaxtlarda ruslara qarşı üsyan etdi. Bu üsyanların ən mühümlərindən biri 1808-ci ildə Quba xanlığı tərəfindən çıxarılan üsyan idi. Lakin bu üsyan qanlı toqquşmalardan sonra yatırıldı.[11]

1813-cü ildə Rus-İran sazişi (Gülüstan müqaviləsi) İranın müharibədə məğlub olmasından sonra Qarabağın Gülüstan qəsəbəsində imzalandı. Bu sazişə əsasən; Talış, Şirvan, Quba, Bakı, Gəncə, Qarabağ və Şəki xanlıqları Rusiyanın tabeliyinə keçdi. Beləliklə, Azərbaycan torpaqlarının iki yerə bölünməsi mərhələsi başladı.[12]

1826-cı ildə başlayan Rus-İran müharibəsi də İranın məğlubiyyəti ilə başa çatdı. Müharibənin sonunda imzalanan Türkmənçay müqaviləsinə (1828) əsasən Rusiya Azərbaycanın cənub torpaqlarının tərk edəcək, lakin İrəvan və Naxçıvan Rusiyanın tabeliyinə keçəcəkdi. Beləliklə Azərbaycan "Şimal" və "Cənub" olmaqla iki yerə ayrıldı[13].

9. Azərbaycan Tarixi (Ən Qədim Dövrlərdən XX əsrin əvvəllərinə qədər), Elm Nəşriyyatı, Bakı 1993, səh. 203; S. Təkinər, "Azərbaycan tarixi və mədəniyyəti məhz bu şəkildə təhrif edilir", D, nömrə 4 (1956), səh. 64

10. Azərbaycan Tarixi, (Bakı 1994), səh. 575

11. H. Baykara, Çar Rusiyasının Azərbaycanda Apardığı İstila Müharibələri, TK, nömrə 19 (May 1964), səh. 24.

12. Azərbaycan Tarixi (Uzaq Keçmişdən 1870-ci illərə qədər) Maarif Nəşriyyatı (Bakı 1996), səh. 602-610.

13. A. N. Kurat, Rusiya Tarixi (başlanğıcdan 1917-ci ilə qədər), TTK, (Ankara 1993),

Osmanlı dövləti 1828-ci ildə başlayan Osmanlı-Rus müharibəsindən məğlub ayrıldı və müharibənin sonunda imzalanan Ədirnə müqaviləsi (1829) ilə Zaqafqaziyanın (İrəvan və Naxçıvan) ruslar tərəfindən işğalını qəbul etmək məcburiyyətində qaldı.

Şimali Azərbaycan torpaqlarının çar ordusu tərəfindən işğalı vaxtı xanlıqların çoxu etiraz etmədən Rus hakimiyyətinə tabe olmağı qəbul etdi. Bu xanlıqlardan Qarabağ, Şəki və Şamaxı xanlıqlarının idarəçilik sistemi olduğu kimi qaldığı halda, Gəncə, Bakı və Quba xanlıqları etiraz etdiklərinə görə bu ərazilərdə xanlıq üsul-idarəsi ləğv edildi. 1818-26-cı illərdə Şəki, Şamaxı, Qarabağ, Lənkəran xanlıqlarında da xanlıq üsul-idarə sistemi ləğv edildi. Azərbaycanda mərkəzi Şuşada yerləşən **Müsəlman Əyalətləri Rəisliyi** yaradıldı və idarəyə rəhbər rus zabiti təyin edildi. Daha sonra xanlıqlara aid torpaqlar əyalətlərə bölündü. Əyalətlərin rəhbərləri zabitlər təyin edildi və bu üsul **Komendat (hərbi) İdarə Üsulu** olaraq adlandırıldı. Azərbaycanda xalq müxtəlif vaxtlarda Çar Rusiyasının hakimiyyətinə üsyan etdi. Ən böyük üsyanlardan biri Qubada 1837-ci ildə baş verdi. Lakin bu üsyan da çar ordusu tərəfindən yatırıldı.[14]

1840-cı ildə Komendat Üsul-İdarəsi ləğv edildi və onun yerinə vilayətlər, qəzalar və məhəllələr yaradıldı. Zaqafqaziya mərkəzi Tiflis olan Gürcüstan-İmeretiya vilayəti və mərkəzi Şamaxı olan Kaspi vilayətlərinə bölündü. Lakin qısa bir müddətdən sonra bu sistem də dəyişdirildi və bütün Zaqafqaziya əyalətləri vahid **inzibati idarə** altında birləşdirildi. Beləliklə, milli mənsubiyyətlər nəzərə alınmadan əyalətlər yenidən formalaşdırıldı[15]. Azərbaycan ərazisində Çar Rusiyası tərəfindən tətbiq edilən bu sistem 1917-ci ilə qədər cüzi dəyişikliklərlə davam etdi.

---

səh. 323; N. Dövlət, "Azərbaycan və Digər Qafqaz Türkləri", TM, nömrə 6 (Avqust 1994), səh. 49.

14. A. N. Kurat, Türkiyə və Rusiya, A. U. Nəşr evi (Ankara 1970), səh. 57, 208.

15. Azərbaycan Tarixi, (Bakı 1994), səh. 577.

XIX əsrin başlanğıcından etibarən baş verən İran-Rus müharibələri xalqın iqtisadi vəziyyətinin zəifləməsinə səbəb olmuşdu. Müharibələr və işğallar nəticəsində əhalinin böyük əksəriyyəti həlak olmuş, bir çoxu əsir götürülmüş, bir qismi də başqa yerlərə qaçmaq məcburiyyətində qalmışdı. Məsələn, Qarabağ xanlığında Rusiyanın işğalından əvvəl təqribən 10000 insan yaşadığı halda, işğaldan sonra (1812-ci ildən sonra) bu rəqəm 3000-ə enmişdi. Müharibə vaxtı İrana qaçanların bir qismi Gülüstan müqaviləsindən sonra geri qayıtdılar. Bu qayıdanlar arasında erməni ailələr də var idi. 1804-1813-cü, 1826-1828-ci illərdə İran-Rus müharibləri̇ndə və bu müharibələrin axırında Azərbaycana, xüsusilə Qarabağ və İrəvana İran, Türkiyə və Cənubi Azərbaycandan kütləvi şəkildə ermənilər köçürüldü. Bu köçürülmələrlə yuxarıda adı keçən bölgələrdə erməni əhalinin sayını artırdılar.[16]

Türkmənçay müqaviləsindən sonra xalq əkinçilik və heyvandarlıqla məşğul olmağa başladı. Xüsusilə buğda, arpa və çəltik tədarükünə başladılar. Bundan başqa, ipəkçilik də xüsusi bir gəlir mənbəyinə çevrildi. Rəsmi statistikaya görə Şamaxı, Şəki, Bakı, Qarabağ, Quba və Lənkəranda ipəkçilik və toxuculuqla məşğul olan 8000-ə qədər tacir mövcud idi. 1830 və 1840-cı illərdən sonra əhalinin şəhərlərə köç etməsi ilə Şamaxı, Bakı, Gəncə, Nuxa, Naxçıvan, Ordubad və Quba yaşayış mərkəzi halına gəldi.[17]

Şimali Azərbaycan torpaqları Rus orduları tərəfindən işğal edildikdən sonra xanlara aid torpaqlar, bu torpaqlarda işləyən insanlarla birlikdə dövlətləşdirildi və onlara **“dövlət kəndliləri”** adı verildi.

Dövlət torpaqları ilə yanaşı, bəylərə və din xadimlərinə aid torpaqlar da var idi. XIX əsrin birinci yarısında türk kəndlilərin əlindən alınan torpaqlar Rusiyadan köçürülən rus kəndlilərə verilməyə başlandı. Belə bir üsulun tətbiqi Azərbaycan türkləri

16. M. İsmayıl, Azərbaycan Tarixi, Azərbaycan Dövlət Nəşriyyatı, (Bakı 1993), səh. 217; Oğan, Azərbaycan (İqtisadi gücü, məhsulları, telefonları və ünvanları ilə bütün müəssisələri), TDAV, (İstanbul 1992), səh. 3-4.
17. Azərbaycan Tarixi, (Bakı 1994), səh. 577.

arasında narazılığa səbəb oldu. Torpaqları əkib-becərən kəndlilər bəylərə və dövlət xəzinəsinə vergi verirdilər. Azərbaycan torpaqlarının müstəmləkəyə çevrilməsi, idarəçilərin istismarı və ağır vergilər xalqın narazılığına gətirib çıxardı. Bu təzyiqlərə qarşı 1837-ci ildə Qubada, 1838-ci ildə Şəkidə və bəzi bölgələrdə meydana gələn silahlı üsyanlar çar orduları tərəfindən yatırıldı.[18]

Çar Rusiyası tərəfindən tətbiq edilməyə başlanılan hərbi idarə üsulu nəticəsiz qaldıqdan sonra ləğv edildi. Çar Rusiyası 1840-cı ildə imzaladığı fərmanla bu idarənin ləğv edildiyini və Zaqafqaziyanın vilayətlərə ayrıldığını bildirdi. Bu fərmana görə türk məmurlar işdən çıxarılaraq yerlərinə rus məmurlar gətirildi. Məhkəmələr rus qanunlarına görə fəaliyyət göstərməyə başladı. 1844-cü ildə qurulan inzibati idarə ilə yeni vilayətlərə bölünən Zaqafqaziyanın idarəçiliyinə Vorontsov təyin edildi. 1846-cı ildə imzalanan bir fərmanla bəylərin və ağaların torpaqlarını istədikləri kimi alıb sata biləcəkləri, torpaq üzərindəki xüsusi mülkiyyətləri təsdiq edilməsi haqqında qərar verildi. Həmçinin 1847-ci ildə imzalanan **Kəndli Qanunnaməsi-**nə görə 15 yaşına çatan kişilərə torpaqlardan pay verilməli və onlar da bunun müqabilində torpaq sahiblərinə vergi ödəməli idi.[19]

1861-ci ildə Çar hökumətinin imzaladığı **Qanunnamə** ilə isə kəndlilər azad oldular. Torpaq sahibləri artıq onları istədiyi kimi alıb sata bilməyəcəkdi.[20] Rus kəndliləri hökumətin verdiyi borclarla torpaq sahibi olmaq hüququ əldə etdi. Bu qanun yalnız Rusiyanın mərkəzi vilayətlərində yaşayan kəndlilərə şamil edildi. 1870-ci ildə Zaqafqaziya vilayətlərində; Yelizavetpol, Bakı, İrəvan, qismən Tiflisdəki müsəlmanların və ermənilərin torpaqlarında işləyən kəndlilər haqqında da bir **Qanunnamə** imzalandı.[21]Bu qanun 1847-ci ildə imzalanan qanunun eynisi idi. Kəndli öz torpağını satın almaq hüququna sahib olsa da, rus kəndlilərinə verilən borc pul Azərbaycan türklərinə ve-

18. Azərbaycan Tarixi, (Bakı 1994), səh. 585-586
19. M. İsmayıl, eyni adlı əsər, səh. 225-226
20. A.N. Kurat, Rusiya Tarixi, səh 339.
21. Azərbaycan Tarixi, (Bakı 1993), səh. 208

rilmədi. 1847-ci ildə imzalanan qanuna görə kəndlilər azad edildi. 1870-ci ildə imzalanan qanundakı azadlığın tək fərqi, əvvəllər bir torpaq sahibinin yanında işləyən kəndlinin başqalarının yanında işləməsinin bir sıra şərtləri olması idi ki, 1870-ci ildəki qanunla bu şərtlər ləğv edildi.[22]

Azərbaycanda xalq şəhər və kəndlərdə xüsusən də qadınlar xalça toxumaqla və ipəkçiliklə, Xəzər və Kür sahillərində isə balıqçılıqla məşğul olurdular. Bu dövrdə Xəzər dənizinin istifadə edilməsi ilə xüsusən Rusiya və İranla olan ticarət xeyli artmışdı. İlk vaxtlarda vergilər bəzən xammal, bəzən də pul şəkilində yığılırdı. 1852-ci ildən sonra bütün vergilər pul şəklində yığılmağa başladı və onsuz da maddi vəziyyəti ağır olan əhalinin vəziyyəti daha da ağırlaşdı. 1861-ci il qanunnaməsinin yalnız Rusiyanın mərkəzi əyalətlərində tətbiq edilməsi xalq arasında etirazlara səbəb oldu və bəzi üsyanlar baş verdi. Bu üsyanların ən böyüklərindən biri 1863-cü ildə Zaqatalada baş verən üsyandır. Lakin bu üsyan sərt şəkildə yatırıldı. İmzalanan qanunnamələrlə xalqın həyat tərzində, məhkəmə, şəhər idarəetməsi və hərbi üsul idarəsində bir sıra dəyişikliklər edildi. Məhkəmələrə rus hakimlərin təyin edilməsi və məhkəmənin rus dilində olması xalq arasında etirazlara səbəb oldu. 1878-ci ildən sonra Bakıda vergi verən və 25 yaşını keçən hər kəs seçkilərdə iştirak edə bilirdi. Şəhər duması Şəhər Sovetinin nəzarəti altında şəhərləşmə, ticarət, sənaye və təhsil sahələrində islahatlar aparan və bunların xaricində səlahiyyəti olmayan bir müəssisə idi.

XIX əsrin əvvəlindən etibarən Azərbaycanda ticarət daha da canlanmağa başladı. Quba və Dərbənddə boyaq fabrikləri, Göyçay və Cavad qəzalarında pambıq toxuculuq fabrikləri, Zaqatala və Nuxada tütün fabrikləri quruldu. Həmçinin iqtisadiyyatda əkinçilik və heyvandarlıq mühüm yer tuturdu. Şamaxı, Quba, Göyçay qəzalarında bağçılıq geniş yayılmışdı.[23]

22. Azərbaycan Tarixi, (Bakı 1994), səh. 596.
23. M. İsmayıl, eyni adlı əsər, səh. 219, 236, 228.

XIX əsrin axırlarına doğru xalqın maddi vəziyyətində bəzi dəyişikliklər meydana gəlməyə başladı. Bu dövrdə cəmiyyətin əsasını torpaqların çoxunu əlinə keçirən və bu yerlərdə fəhlə işlədən varlılar, az torpaqlı və torpağı olmayan kəndlilər təşkil edirdi. Azərbaycan xalqı çar məmurlarının təzyiqinə qarşı əvvəlcə passiv şəkildə davranaraq minlərlə şikayət məktubu yazdılar. Yazdıqları şikayətlərdən müsbət bir nəticə əldə etməyincə, bəzi silahlı üsyanlar oldu və çar məmurları öldürülməyə başlanıldı. Adına **Qaçaq Hərəkatı** deyilən bu dövrün xarakterik bir etiraz hərəkatı meydana gəldi. Bu, XIX əsrin sonlarında çar məmurlarını qətl edən, varlılardan aldıqları qənimətləri əhaliyə paylayan, xalq tərəfindən müdafiə edilən və qəhrəman kimi tanınan şəxslərin başlatdığı hərəkat idi.[24] Belə şəxslərdən bəyləri və çar məmurlarını öldürüb ələ keçirdiklərini əhaliyə paylayan, xalqın gözündə qəhrəmana çevrilən Qaçaq Nəbi[25] və Qaçaq Kərəmin[26] adları bu gün də unudulmamış və dastanlaşmışdır.[27]

Əkinçilik, ipəkçilik və balıqçılıqla yanaşı, Azərbaycan iqtisadiyyatında gəlir gətirən digər mühüm sərvət neft idi. 1860-cı illərdə yanacaq kimi istifadə edilən neftin istehsalı hələ çox az idi. [28] 1872-ci ildə neft çıxan torpaqların istismarı hüququ yenidən tənzimlənərək bu torpaqların qruplara bölünərək

---

24. Azərbaycan Tarixi, (Bakı 1994), səh. 603
25. Qaçaq Nəbi (1854-1895): Zəngəzur qəzasının Aşağı Mollu kəndində doğulan Nəbi XIX əsrin xalq qəhrəmanıdır. Uşaqlığında çobanlıq edən Nəbi daha sonra fəhlə kimi işlədi. Kəndlilərin əlindəki torpaqları almağa çalışan bəylərə qarşı mübarizə apardıqdan sonra qaçaq hərəkatına qoşuldu. Nəbi kəndlilərdən dəstələr quraraq Naxçıvan və Zəngəzur bölgələrində çar məmurlarına və bəylərə qaşı mübarizə apardı. Qaçaq Nəbi kəndlilərin haqlarını müdafiə edən, varlılardan alıb kasıblara verən bir qəhrəman kimi tanınırdı. Çar hökuməti Qaçaq Nəbi və onun dəstəsini yaxalamaq üçün tam iyirmi il mübarizə apardı. 1895-ci ildə Kərbəladan qayıdarkən qətlə yetirildi. Xalq Qaçaq Nəbinin adına mahnılar oxuyub dastanlar yazdılar. Qaçaq Nəbi ASE, III cild, (1979) səh. 104; Qaçaq Nəbi dastanı üçün bax. Türkiyə Xaricindəki Türk Ədəbiyyatları Antologiyası I, Azərbaycan Türk Ədəbiyyatı, Mədəniyyət Nazirliyinin nəşrləri, (Ankara 1992), səh. 385-390.
26. Bunlardan çar hökumətinin Zəngəzurda Qaçaq Murtaza və Cəbrail qəzasında Qaçaq Süleyman ilə mübarizəsi 25 il davam etmişdir. M. S. Aran, Azərbaycan və Rusiya, D, nömrə 37(1964), səh. 39.
27. Azərbaycan Tarixi, (Bakı 1994), səh. 604.
28. M. İsmayıl, eyni adlı əsər, səh.246.

hərrac yolu ilə varlılara satılmasına başlandı. Hərracda iştirak edib bu torpaqları alanların çoxu rus və ermənilər idi. Azərbaycan türklərindən isə öncə yalnız Hacı Zeynalabdin Tağıyevin adı keçirdi. Bu dövrdə neft çıxan torpaqların bir hissəsi rus idarəçilərinə hədiyyə olaraq verildi.[29] Bu torpaqlarda neft çıxmağa başlayınca qiymətlər sürətlə artdı və qısa bir zamanda neft şirkətləri qurulmağa başlandı. Bunların sayı 1873-cü ildə 12 şirkət olduğu halda, XIX əsrin sonlarında bu şirkətlərin sayı 140-a çatdı. Bakıda ruslar və ermənilərdən başqa qurulmağa başlanılan fransız və ingilis şirkətlərinin sayı da günbəgün artmağa başladı. Xarici şirkətlərin fəaliyyətə başlaması ilə yeni texnologiya Bakıya gətirildi və müasir metodlarla neft çıxarılmağa başlandı. Bunun sayəsində 1818-80-ci illərdə neft istehsalı on qat artdı.

XIX əsrin son beş ilində baş verən yanğınlar nəticəsində neft quyusu sahibləri böyük zərərə uğradı. Neft daha çox Suraxanı, Bibiheybət, Zabrat, Sabunçu və Ramanada çıxarılırdı. Qısa bir zamanda Bakıda çox zəngin insanlar ortaya çıxdı. Tağıyev, Musa Nağıyev, Murtuza Muxtarov və Şəmsi Abdullayev ən məşhur neft milyonçuları idi. Bakıda neft və neft məhsulları ilə bağlı sənaye müəssisələri quruldu. 1890-cı ildə Bakıda 150 neft quyusu mövcud idi. Çıxarılan neft başda Rusiya olmaqla Çinə, Hindistana və Avstriyaya ixrac edilirdi. 1897-ci ildə Bakı və Batumi arasında çəkilməyə başlanılan neft kəməri ixracatı artırdı.[30]Azərbaycanı Rusiya və Qərbi Avropa bazarlarına bağlayan Bakı-Batumi qatar yolunun işə düşməsi İstanbul ilə əlaqəni asanlaşdıraraq Azərbaycandakı türk əhalinin nüfuzunun artmasına səbəb oldu. [31]

Azərbaycanda neftin çıxarılmağa başlanması və xarici şirkətlərin Bakıya axını Bakı şəhərini dünya sənaye və ticarət mərkəzlərindən biri halına gətirdi. Bakı və Naxçıvanda çıxarılan duz Qafqaz ölkələri ilə yanaşı İran, Türkiyə və Rusiyaya

29. Azərbaycan Tarixi, Bakı 1994, səh.605.
30. M. İsmayıl, eyni adlı əsər,səh. 248-249.
31. S.A. Zenkovski, Rusiyada pantürkizm və müsəlmanlıq, (tərcç edən, İ. Kantemir), İstanbul 1983, səh. 82.

ixrac edilirdi. Həmçinin bu dövrdə ipəkçilik, balıqçılıq, tütünçülük, bitkiçilik və Xəzər dəniz yükdaşımaları Azərbaycan iqtisadiyyatında mühüm yer tuturdu. XIX əsrin sonlarına doğru yeni yollar, evlər, telefon və teleqraf xətlərinin çəkilməsi ilə Bakının görünüşü tamamilə dəyişdi. Bu iqtisadi inkişaf Bakıdakı fəhlə əhalinin sayının artımına da ciddi şəkildə təsir etmişdir. Moskvadan və Peterburqdan Marksist cərəyan üzvlərinin Bakıya sürgün edilməsi ilə fəhlə hərəkatları bu bölgədə çoxalmağa başladı.[32]

İqtisadiyyatın bu şəkildə inkişafı ilə yanaşı, cəmiyyətin sosial və mədəni həyatında da mühüm dəyişikliklər meydana gəldi. XIX əsrin əvvəllərində Abbasqulu Ağa Bakıxanov əhalinin maariflənməsi üçün böyük işlər gördü. Çar hökumətinə yeni sistemdə məktəblərin açılması üçün təklif etdi.[33] XIX əsrin əvvəllərində təhsil daha çox mədrəsələrdə verilirdi. Lakin 1830-cu illərdə Rus-Tatar məktəbləri Şuşa, Nuxa, Bakı, Gəncə, Şamaxı və Naxçıvanda açılmağa başlandı. İmkanlı ailələrin uşaqlarının təhsil aldığı Rus-Tatar məktəblərində Azərbaycan türkcəsi və rus dili ilə yanaşı, coğrafiya və dini elmlər də öyrədilirdi.[34] Azərbaycanda ilk qəza məktəbi 1830-cu ildə Şuşada açıldıqdan sonra 1831-ci ildə Nuxada, 1832-ci ildə Bakıda, 1833-cü ildə Gəncədə açıldı. Bu məktəblərdə dini elmlər, rus dili, coğrafiya, tarix, riyaziyyat, xəttatlıq, rəsm və Azərbaycan türkcəsi (dili) dərsləri verilirdi. Azərbaycanda ilk ibtidai məktəblərin 1853-cü ildə Quba, Lənkəran və Ordubadda açılması üçün fərman imzalandı. 1854-cü ildə Quba və Ordubadda, 1856-cı ildə isə Lənkəranda açılan bu məktəblərə səkkiz yaşındakı uşaqlar qəbul edilir və dərs olaraq dini elmlər, rus dili, Azərbaycan türkcəsi və riyaziyyat fənləri tədris edilirdi.[35] İlk üsuli-cədid məktəbi Ordubadda 1890-cı ildə Məhəmməd Sidqi Səfəroğlu tərəfindən açıldı. Yenə bu

---

32. Azərbaycan Tarixi, (Bakı 1994), səh. 607, 609, 615.
33. H. Baykara, "Azərbaycan renesansını edənlərdən A. A. Bakıxanov", TK, nömrə 26 (1964), səh.96.
34. M. İsmayıl, eyni adlı əsər, səh. 229.
35. H. Əhmədov, XIX əsr Azərbaycan Məktəbi, Maarif Nəşriyyatı, Bakı 1985, səh. 10, 16.

insan 1894-cü ildə **Tərbiyə** adında bir məktəb açdı.[36] 1880-ci ildə Bakıda "Rus-Tatar" məktəbi açıldı və Həbib Bəy Mahmudbəyli ilə Sultan Məcid Qənizadənin səyləri nəticəsində türk məktəbləri açıldı. Mirzə Fətəli Axundzadənin rəhbərliyi və bir neçə elm xadiminin səyləri nəticəsində Gürcüstanın Qori şəhərində fəaliyyət göstərən **Seminariyada** (gimnaziya) Azərbaycan türkləri üçün müsəlman şöbəsi açıldı.[37]

Göründüyü kimi, XIX əsr Azərbaycan üçün siyasi, iqtisadi və mədəni sahədə çox hərəkətli bir əsr olmuşdur. Bu əsrin birinci yarısında daha çox siyasi hadisələr baş verdiyi halda, ikinci yarısında isə iqtisadi və mədəni inkişaf özünü büruzə vermişdir.

---

36. Ə. Cəfəroğlu "Azərbaycanda Maarif Hərəkatları", TK, 18 aprel 1964, səh. 133
37. H. Baykara, Azərbaycanda yeniləşmə hərəkatları, TKAE, Ankara 1966, səh.114.

# HACI ZEYNALABDİN TAĞIYEVİN HƏYATI

Hacı Zeynalabdin Tağıyevin[38] doğum tarixi mübahisəli olsa da, Tağıyevin yaşadığı dövrdə yazılan əsərlərdə verilən tarix 1838-ci ilin yanvar ayıdır. Tədqiqatımızın başlıca mənbələrindən biri olan, 1900-cü ildə Tağıyev həyatda ikən Nəriman Nərimanov tərəfindən yazılan Hacı Zeynalabdin Tağıyevin 50 illiyi adlı əsərində 1838-ci ilin yanvar ayında doğulduğu qeyd edilmişdir. (səh.22) Əsas mənbələrimizin başqa biri də 1903-cü ildə müəllifi bilinməyən *Sərvət və Səxavətdə Məşhur H. Z. Tağıyevin Tərcümeyi-Halı* adlı kitabda da 1838-ci il tarixi qeyd edilmişdir. Mahmud İsmayıl və Marat İbrahimovun yazdığı *El Atası* adlı əsər Tağıyevin 1823-cü ildə doğulduğunu, Azərbaycan Dövlət Arxivində mövcud olan 12 oktyabr 1899-cu il tarixli Zaqafqaziya şeyxülislamı A. Axundzadənin imzası olan sənədin surəti və tərcüməsinə əsaslandırır. Tağıyevin nəvəsi olan Suna Özdaş tərəfindən yazılan "Babam Hacı Zeynalabdin Tağıyev və ya Tağızadə" (GA, 3-cü sayı aprel 1997, səh.7) adlı məqalədə də 1823-cü ili doğum tarixi kimi qeyd edilmişdir.

Atası Məhəmməd Tağıyev Bakıda pinəçilik edərək dolanışığını çətinliklə təmin edərdi. Hətta axşamlar heç iş görmədən evə əliboş qayıtdığı vaxtlar olurdu. Evdəki ərzaqla

38. Tağıyev Həcc ziyarətinə zəngin olduqdan sonra getdi və "Milyoner Hacı" kimi tanınmağa başladı. N. Keykurun, Azərbaycan İstiqlal Savaşından Xatirələr 1905-1920 Ankara 1998, səh. 179

bilgəhli Anaxanım kimi tanınan anası Ümmü Xanım həmin günü birtəhər yola verərdi. Zeynalabdin çox kiçik yaşda ikən anasına özünün də işləmək istədiyini dediyində anası "oğlum sən belə şeyləri düşünmə, mən özüm işləyib evə pul gətirəcəyəm"- demişdi. Bundan sonra anası qapı-qapı gəzib iş axtardı. Varlıların evini təmizləyir, paltarlarını yuyurdu. Axşamlar qayıdarkən evə həm pul, həm də ərzaqla qayıdırdı. Ancaq həmişə yorğun və əldən düşmüş vəziyyətdə evə gəlirdi. Yenə bir gün iş üçün getdiyi imkanlı ailənin xanımı ondan paltarlarını aparıb dənizdə yumağı istəyir. Paltarların çox olduğunu desə də, qadın Ümmü Xanıma çox pul verəcəyini dedikdə Ümmü Xanım işi qəbul etmək məcburiyyətində qalır. Ertəsi günü Zeynalabdini də yanına götürərək qadının evinə gedirlər və paltarları götürüb dəniz kənarına enirlər. Zeynalabdin anasının xəstə olduğunu bildiyindən anasına ayaqqabılarını çıxarmamasını, daha da üşüyəcəyini deyir. "Hər şeyi mən edərəm" - deyir, ancaq anası oğluna qıymadığına görə paltarları canını dişinə sıxaraq yuyub təmizləyir. Həmin gündən etibarən Ümmü Xanımın səhhəti daha da pisləşir. Buna baxmayaraq qulluqçuluğa getməyə davm edirdi. Bir axşam həmişəkindən daha gec saatlarda Zeynalabdin anasının ayaq səslərini eşidir və cəld qapıya tərəf qaçır. Anası çox çətinliklə özünü evə çatdırıb yatağına uzanır. Zeynalabdin anasının əlini tutduğunda qızdırmadan yandığını görür. Sonra özü gedib yatağına uzanır və anası bütün gecəni öskürür. Nə həkim çağıra, nə də dərman ala bilirlər. Ərzaq almağa belə pulları yox idi. Tağı xanımının kəndinə, Bilgəhə gedib Ümmü Xanımın anasını gətirir. Zeynalabdinin nənəsi qızına hər dəfə baxdığında ürəyi dağlanırdı. Ümmü Xanımın qızdırması düşmürdü. Zeynalabdin yanına gəldiyində çətinliklə onun başını oxşaya bilirdi, çünki taqəti qalmamışdı. Bir həftə sonra Zeynalabdin nənəsinin ağlaması ilə oyandı və artıq anası vəfat etmişdi. Zeynalabdin hələ on yaşında idi.

Tağı kişi yasa gələnlərə nə verəcəyini düşünürdü. Evdə heç nə yox idi. Lakin Ümmü Xanımın kəndliləri Bilgəhdən gələrkən qoyun əti, un və digər zəruri şeyləri gətirmişdilər.

Ümmü Xanımın vəfatından sonra ailənin vəziyyəti daha da çətinləşdi. Zeynalabdinin nənəsi ona baxırdı. Havalar soyuduqdan sonra Tağının qazancı daha da azaldı. Zeynalabdin imkanlı qonşularının kirli paltarlarını qapı-qapı gəzib yığır, quyudan su çıxarıb evə daşıyır, odunları doğrayır, od qalayır və su qızdırırdı. Nənəsi də paltarları yumaqla ailənin dolanışığına kömək edirdi. Zeynalabdin kənddəki imkanlı uşaqlardan bəzilərinin həqarətlərinə məruz qalırdı. Lakin halal zəhməti ilə pul qazandığını və bununla fəxr etdiyini hamıya çəkinmədən deyirdi. Digər uşaqlar soyuq qış günündə qalın paltarlarla, yun papaqla gəzərkən, Zeynalabdin əynindəki nimdaş paltarla su daşıyır, odun doğrayırdı. Bir müddətdən sonra Tağı kişinin işləri qismən yoluna düşür. Zeynalabdin də qonşuların paltarlarını yumaq üçün nənəsinə gətirməyə davam edir. Zeynalabdin bu şəkildə böyüyür və vaxt sürətlə keçirdi.

Bir-iki ildən sonra Zeynalabdin əvvəlcə nənəsinə işləmək istədiyini deyir. Nənəsi isə hələ balaca olduğuna görə başqasının yanında işləyə bilməyəcəyini deyir. Sonra Zeynalabdin məsələni atasına danışır. Atası da öz yanında pinəçilik peşəsini öyrənə biləcəyini bildirir. Lakin Zeynalabdin inşaatda işləmək istəyirdi. Atası: "hələ çox balacasan, böyük daşları, palçıq ləyənini yerindən belə qaldıra bilməzsən",- dedikdə o da: "su səhəngini daşıya bilirəmsə, palçıq ləyənini də daşıya bilərəm",- deyir. Atası, könülsüz də olsa, icazə verir.[39]

## Əzmkarlığın zəfəri: Bənna köməkçiliyindən neft maqnatçılığına

Tağıyev kiçik yaşda ikən bənna yanında fəhlə kimi işləməyə başlayır. İlk işi vedrə ilə palçıq qatanlara su daşımaq olur. Sonra palçıq da daşımağa başlayır. Çox balaca olduğuna görə içərisi palçıq dolu ləyəni başının üstünə qaldırmağa əziyyət çəkirdi. Birlikdə işlədiyi dostu Murad palçıq ləyənini onun başına qoyurdu. Zeynalabdin hər gün bu şəkildə 12 saat işləyirdi. Onun gündəlik məvacibi altı qəpik idi. Qazan-

39. Dadaş Məmmədzadə, Milyonçunun Uşaqlıq İlləri, Şirvannəşr, Bakı 2000, 3-9.

cını hər axşam gətirib atasına verirdi. Atası da bu pul ilə evə çörək və pendir alırdı. Atasının “Allahıma çox şükür, oğlumun qazancını yeməyi Rəbbim mənə nəsib etdi” sözləri ona təsir edir və onu qürurlandırır. Daha çox həvəslə işləməyə davam edir və palçıq daşıyarkən bənnalığı da öyrənməyə başlayır. Hətta palçıq daşımaq işini bitirib evə qayıtdıqda dincəlmək əvəzinə baltanı əlinə alıb daşyonan bənnalardan ustalığı öyrənirdi. Bənnalar 12 yaşındakı uşağın məharətini görüb heyran olurdular. Ustanın razılığını qazanan Zeynalabdin 12 yaşında bənnalığa başlayır və gündəlik məvacibi 1 manat olur. 15 yaşında bənna olmaqla kifayətlənməyib inşaatını apardığı binaların layihəsini də çəkməyə başlayır.[40] Həmin vaxt atası təkrar evlənir və bu evlilikdən beş bacısı dünyaya gəlir. Tağıyevin bacılarından adları bilinənlər Alıgül, Xədicə və Ümmülbanudur.

Tağıyev 18 yaşında layihəsini çəkdiyi yeni binaları Bakıda inşa edəcək hala gəlir.[41] Qazandığı pullarla 1870-ci ildə iki qazanlı neftayırma zavodunu qurur. 1877-ci ildə orta təbəqəyə məxsus bir tacir olduğu halda, 1882-ci ildə varlı tacirlər zümrəsinə daxil olur.

İlk evliliyi öz əmisi qızı Zeynəb xanımla baş tutan Tağıyevin bu evlilikdən iki oğlu və bir qızı dünyaya gəlir. Böyük oğlu İsmail (1865-1930) daha sonra ögey anası olacaq Sona xanımın bacısı ilə evlənir. Moskva, Peterburq və Tiflisə səfər edir və II Dumaya üzv seçilir. Digər oğlu Sadiq (1868-1939) Mirzə Fətəli Axundovun nəvəsi Mələk Nisa ilə evlənir. Mühəndislik və hüquq təhsili alan Sadiq, 1939-cu ildə bolşeviklər tərəfindən tutularaq güllələnir. Qızı Xanım (1871-?) vəkil M. Bəy Xanlarovla ailə qurur.[42]

---

40. Nəriman Nərimanov, Hacı Zeynalabdin Tağıyevin...., səh. 22-23

41. Manaf Süleymanov, Azərbaycan Milyonçuları: Hacı Zeynalabdin Tağıyev, Gənclik, Bakı 1996, səh. 3.

42. Buradakı məlumatlar və verilən şəcərə Tağıyevin nəvələri Prof. Rəsmi Əsədoğlu Abdullayev və Fatimə İsmayıl qızı Tağıyeva tərəfindən hazırlanmışdır. M. Süleymanov, Neft Milyonçusu, Azərbaycan Nəşriyyatı, Bakı 1996, səh. 151.

Birinci arvadı Zeynəb xanımın vəfatından sonra uzun müddət evlənməyən Tağıyev 1896-cı ildə Sona (Suna) Ərəblinski (1881-1932) ilə evlənir. Sona xanımın atası məşhur general Balakişi Ərəblinski idi. Rus ordusunun tərkibində bir çox müharibələrdə iştirak edən Balakişi 1898-ci ildə təqaüdə çıxıb Dərbəndə gəlmiş və ömrünün sonuna qədər çar tərəfindən şəxsinə hədiyyə edilən torpaqlarda yaşamışdır. Tağıyev oğlunu ziyarət edərkən Sona xanımla tanış olur və onunla ailə həyatı qurur. Bəzi mənbələrdə adı Sona Xanım Ərəblinskaya, bəzi mənbələrdə də Sofiya Vladimirovna kimi qeyd edilən Sona Xanımla evliliyindən Tağıyevin üç qız və iki oğul övladı dünyaya gəlmişdir. Qızları: Leyla xanım (1898-?), Sara (1898-1991), Süreyya (1904-1975), oğlanları: Məhəmməd (1900-1918) və İlyas (1905-1931). Leyla xanım Şəmsi Əsədullayevin oğlu ilə evlənmiş; Məhəmməd bəy intihar etmiş; İlyas bəy isə xəstələnərək vəfat etmişdir.[43]

Tağıyev 1880-ci ildə ata yadigarı evindən varlıların yaşadığı məhəlləyə, Təzəpir məscidinin yanındakı evinə köçür. Burada bütün həyatı boyunca fikirlərinə əhəmiyyətli dərəcədə təsir edəcək Azərbaycan milli mətbuatının ilk qəzeti olan Əkinçini nəşr edən naşir, pedaqoq, ilk milli teatrın banisi Həsən Məlikzadə Zərdabi ilə tanış olur. Bu dostluq daha sonra Tağıyevin xüsusilə təhsil sahəsindəki fəaliyyətlərində təsirini göstərir.

1860-cı illərdə Rusiya bazarlarında neft tələbatının artması ilə Bakıdakı neft sənayesi inkişaf etməyə başlayır. Xüsusən 1861-ci il qanunnaməsindən sonra Bakı neftinə olan tələbat artır. Rusiyaya göndərilən neft yalnız işıqlandırma məqsədilə deyil, artıq sənayedə də istifadə edilməyə başlayır.[44] 1859-cu ildə Bakı ətrafında neftayırma zavodunun qurulması ilə neft istehsalı artmağa başlamışdı. Lakin əsas istehsal Çar Rusiyasının Azərbaycan üçün verdiyi mühüm qərardan

43. Aşir Bəşiroğlu, Xanımın sevimlisi, Bakı, Təknur, 2012, səh. 12.
44. M. İsmayılov-M. İbrahimov, Azərbaycan Neft Sənayesinin İnqilaba qədərki Tarixi, Elm Nəşriyyatı, Bakı 1991, səh. 40-41

sonra baş verir.[45] 1872-ci ildə imzalanan fərmanla açıq hərraca çıxarılan bütün neft mədənlərinin feodallara verilməsi; Qafqaz və Zaqafqaziya bölgələrindəki bütün sərbəst dövlət torpaqlarında, sahiblərinə aid torpaqlarda və ya başqa dövlətlər tərəfindən istifadə edilən xüsusi torpaqlarda sahiblərindən icazə almaqla neft axtarışına icazə verilməsi; dövlət torpaqlarında feodallar tərəfindən kəşf edilən neft mədənlərinə sahib çıxmaq üçün sadə qaydalar tətbiq edilməsi və inkişaf etdirilməkdə olan ərazinin paylanılması üçün mümkün olan ən qısa vaxtın müəyyən edilməsi barədə qərar verilir.[46]

İltizam sisteminin ləğv edilməsindən sonra Bakı və ətrafındakı neft çıxan torpaqlar feodallara satılmağa başladı. Bakıdakı neft istehsalının artması nəticəsində Rusiya beynəlxalq bazarlarda Amerika ilə yarışacaq hala gəldi. Müəyyən müddətdən sonra Rusiya bazarlarının neft ehtiyacı tamamilə Bakıdan qarşılanmağa başladı.[47]

| İl | İstehsal | İl | İstehsal | İl | İstehsal |
|---|---|---|---|---|---|
| 1832 | 2.40 | 1866 | 11.06 | 1895 | 6032 |
| 1833 | 2.88 | 1867 | 15.98 | 1896 | 6176 |
| 1834 | 3.68 | 1868 | 11.77 | 1897 | 6752 |
| 1835 | 3.80 | 1869 | 26.93 | 1898 | 7776 |
| 1836 | 3.65 | 1870 | 27.27 | 1899 | 8400 |
| 1837 | 3.68 | 1871 | 22.00 | 1900 | 9616 |
| 1838 | 3.74 | 1872 | 24.57 | 1901 | 10740 |
| 1839 | 3.75 | 1873 | 63.22 | 1902 | 8137 |
| 1840 | 3.53 | 1874 | 77.80 | 1903 | 7034 |
| 1841 | 3.39 | 1875 | 92.94 | 1904 | 6951 |
| 1842 | 3.55 | 1876 | 176 | 1905 | 4538 |

45. T. Swietochowski, eyni adlı əsər, səh. 39.
46. R. Quliyev, Neft və Siyasət, (Tərc. edən F. Feran), İstanbul 1997, səh. 22-23.
47. M. İsmayılov-M. İbrahimov, Azərbaycan Neft..., səh. 108-109.

| | | | | | |
|---|---|---|---|---|---|
| 1843 | 3.40 | 1877 | 240 | 1906 | 134 |
| 1844 | 3.41 | 1878 | 320 | 1907 | 5531 |
| 1845 | 3.40 | 1879 | 384 | 1908 | 5612 |
| 1846 | 3.45 | 1880 | 344 | 1909 | 6162 |
| 1847 | 3.46 | 1885 | 1857 | 1910 | 6055 |
| 1848 | 4.31 | 1889 | 2982 | 1911 | 5633 |
| 1849 | 3.31 | 1890 | 3337 | 1912 | 5768 |
| 1850 | 4.16 | 1891 | 3912 | 1913 | 7357 |
| 1863 | 5.44 | 1892 | 4576 | 1914 | 5539 |
| 1864 | 8.60 | 1893 | 5184 | 1915 | 5712 |
| 1865 | 8.86 | 1894 | 4752 | 1916 | 7475 |
| | | | | 1917 | 6679 |

Yuxarıdakı cədvəldə 1830-1917-ci illərdə Bakı bölgəsindəki illik neft istehsalı (milyon ton) göstərilir.[48]

1825-ci ilin əvvəlində Bakının ətrafında neftin yığılması üçün təqribən 120 quyu və 32 çəllək var idi. 1840-cı ilin sonlarında isə quyuların sayı 133-ə çatdı. Bunlardan 87-si Balaxanıda, 25-i Bibiheybətdə, 16-sı Suraxanıda və beşi isə Binəqədidə qazıldı. 1860-cı ilin sonlarında Bakıda 227 neft quyusu var idi. 1860-cı ilin əvvəlinə qədər neft xüsusi çəlləklərin köməyi ilə taxta quyulardan primitiv üsullarla çıxarılırdı. 1870-ci ilin əvvəlində Amerika üsulundan (buruq üsulu) istifadə edilməyə başlandı. Qısa bir müddətdən sonra neft buruqları Bakının bir çox ərazisində qurulmağa başlandı.[49]

Yarımadada neft istehsalı artınca Bakı dünyanın ən mühüm neft istehsalı mərkəzlərindən birinə çevrildi. Şəhərə xarici şirkətlərin gəlməsi ilə xüsusi mülkiyyətdə mövcud olan torpaqların qiyməti inanılmaz dərəcədə artdı. İsveçli sahib-

48. R. Quliyev, eyni adlı əsər, səh 24.
49. Eyni adlı əsər, səh.25.

karlardan olan Nobel qardaşlarının 1879-cu ildə qurduğu neft şirkəti qısa bir zamanda dünyanın ən böyük neft şirkətlərindən biri oldu. Nobel qardaşları Bakıya gələn ilk xarici neft şirkəti idi. Əslən isveçli olan bu sülalənin başında Emanuel Nobel dayanırdı. Rus hökumətinin dəvəti ilə 1837-ci ildə Rusiyaya gedən Nobelin hələ İsveçdə ikən kəşf etdiyi sualtı minalar rus ordusunun səlahiyyətli şəxslərinin diqqətini cəlb etmiş, Rusiyaya köçdükdən sonra Peterburqda inşa etdirdiyi fabrikdə mina və s. sursatlar istehsal etməyə başlamışdı. 1853 və 1856-cı illərdə Kırım müharibəsi vaxtı rus ordusunun əmrində silah və mina istehsal etdi. Müharibə bitdikdən sonra işləri yaxşı getmədiyinə görə fabriki bağlayıb vətəninə qayıtdı. Sonra Emanuelin üç oğlu (Lüdviq, Robert, Alfred) Bakıda kimya laboratoriyasını qurdular. İcadları mədənlərdə və fabriklərdə təcrübədən keçirildi.[50] XIX əsrin sonlarında Bakıdakı neft istehsalının 20 %-i, neftayırma istehsalının isə 40 %-i onların əlində idi. Onlardan sonra "Xəzər-Qara Dəniz Ticarət və Sənaye Cəmiyyətini " quran fransız Rotşild ailəsi sərmayə qoymağa başlayır. 1890-cı ildən başlayaraq altı ingilis, üç fransız, iki alman, iki Belçika və bir yunan şirkəti fəaliyyətə başlayır.[51]

1872-1913-cü illər ərzində Bakı ərazisindən çıxarılan neft Rusiyada çıxarılan bütün neftin 95-97 %-ni və dünyadakı neft istehsalının 50%-dən çoxunu təşkil edirdi. Buna baxmayaraq Bakıdakı neft istehsalı XIX əsrin əvvəllərində ciddi şəkildə zəiflədi. İstehsalın zəifləməsinin səbəbi neft ehtiyatlarının tükənməsi, həddindən çox istehsal, köhnə qazma və neftayırma texnologiyası, xarici şirkətlərin yarıtmaz neft siyasəti, keyfiyyətsiz neft məhsulları və vergilərin həddindən çox yüksək olması idi.[52]

XIX əsrin axırında neft sənayesində müşahidə edilən sürətli istehsal, müştərək şirkətlərin qurulması, industriya və bankçılıq sərmayələrinin birləşməsi isə Azərbaycanda ticarət

50. N. Sarıəhmədoğlu, eyni adlı əsər, səh. 19; J. D. Henry, eyni adlı əsər, səh. 82-91.
51. T. Swietochowski, eyni adlı əsər, səh. 39.
52. R. Quliyev, eyni adlı əsər, səh. 27.

və sənayedə yeni bir canlanma meydana gətirdi. Azərbaycandakı belə sürətli inkişaf burjuaziya, muzdlu fəhlələr və xidmət sinfi kimi yeni qrupların meydana gəlməsini təmin edərək əhalinin sosial təbəqələşməsində də dəyişikliklərə səbəb oldu. Azərbaycanda türk varlılardan ibarət bir təbəqə meydana gəldi. Bu varlı təbəqə neft maqnatları, fabrik sahibləri, gəmi sahibləri, tacirlər, əmlak və böyük torpaq sahiblərindən ibarət idi. Bunların başda gələnlərindən biri Hacı Zeynalabdin Tağıyevdən başqa, 1876-cı ildə iş həyatına ticarətlə başlayan və qısa bir zamanda pul yığıb Bakının Qara şəhər səmtində neftayırma zavodunu alan, 1880-ci ildə sərvəti 70 milyon rubla çatan və 1907-ci ildə 10 milyon rubl ilkin sərmayə ilə neft ticarətinə girən anonim şirkətin sahibi, 1914-cü ildə Tağıyev ilə müştərək bank quran Musa Nağıyev idi. Digər milyonçu isə fəhlə kimi addım atdığı neft sənayesində quyu sahibi olub, diplomsuz neft mühəndisi kimi ad qazanan, 1890-cı ildə "Podrat qazma" üsulu ilə Bakı, Balaxanı, Suraxanı, Ramana və Sabunçu neft mədənlərində quyuların qazılmasında mühüm rol oynayan və Bakının ən varlılarından biri olub, xeyriyyə cəmiyyətlərinin fəaliyyətində iştirak edən, maddi yardımlarını əsirgəməyən Murtuza Muxtarov idi.

Yenə gənc çağlarında Kokorev və Quboninin netfayırma zavodlarında fəhlə kimi işləməyə başlayan və qazancını yığaraq duz imtiyazı alıb buradan əldə etdiyi pullarla Qaraşəhərdə bir neftayırma zavodu quran, satın aldığı torpaqlardan 1890-cı ildə neft fontan vuran və ikinci neftayırma zavodunu quraraq əsrin sonunda bütün Xəzər bölgəsində neft çəlləkləri və anbarları ilə öz ticarət şəbəkəsini genişləndirən və şəxsi sərvəti 1880-ci ildə 60 min manat (rubl) olduğu halda, 1913-cü ildə 20 milyon manata (rubla) çatan Şəmsi Əsədullayev; G. Dadaşov, G. B. Həşimov.[53] Birinci dünya müharibəsi ərəfəsində neft sənayesi başlıca üç beynəlxalq şirkətin (Royal Dutch Shell, Nobel qardaşları, Standart Neft Şirkəti) mono-

53. N. Sarıəhmədoğlu, eyni adlı əsər səh. 21; A. Altstadt, The Azerbaijani Turkish Community of Baku Before World War I, (dərc edilməmiş doktorluq işi), Çikaqo 1983, səh. 178-179; B. D. Seyidzadə, adı keçən mənbə, səh. 29.

poliyasında olmasına baxmayaraq, Türklərin neft sərmayəsi Azərbaycanın sosial-iqtisadi inkişafında mühüm rol oynadı. Həmin dövrdə neftdən əldə edilən gəlirlərin mühüm hissəsi türk varlılar tərəfindən təhsil, teatr, nəşriyyat, ədəbiyyat, yoxsullara yardım və şəhərin memarlıq üslubunun yenidən qurulması kimi mədəni sahələrin maliyyələşdirilməsinə sərf edildi.

Tağıyev və şərikləri Bibiheybətdə 1873-cü ildə dövlətdən doqquz min manatlıq torpaq sahəsi satın aldı. Muzdlu fəhlələrə həmin ərazidə quyu qazdırdılar. Lakin uzun vaxt aparan axtarışlardan sonra neft çıxmayınca şərikləri paylarını Tağıyevə satdı. Tağıyev iki il boyunca heç bir fədakarlıqdan qaçmayaraq şəxsən özü də axtarışlarda iştirak etdi. Nəhayət, neft tapıldı və Tağıyev bir anda Azərbaycanın ən imkanlı ailələri zümrəsinə daxil oldu.[54]

1870-ci illərdə Bakıda bütün sərmayəsi yalnız bir insana aid olan böyük kapitala sahib Ticarət Evləri qurulmağa başladı. Bunların ən məşhurlarından biri "Sarkisovun Ticarət Evi" idi. Tağıyev də bu ticarət evinin üzvü idi. 1877-ci ildə neft zavodları və sənaye müəssisələri qurmaq üçün Axundovdan torpaq ərazisi alan Tağıyev kifayət qədər sərmayəyə sahib olduqdan sonra Sarkisov Ticarət Evinə şərik oldu.[55]Lakin bir müddətdən sonra Tağıyev Sarkisov qardaşları Ticarət Evindən ayrıldı və "H. Z. Tağıyev Evi"ni qurdu.[56] Beləliklə, Tağıyev qazma, istehsal və neftin daşınması kimi bir çox sahədə işlər görməyə başladı. Tağıyev 1880-ci ildə 10 milyon pud (1 pud=16.4 kq) neft çıxardığı halda, 1893-cü ildə bu rəqəm 20 milyon, 1896-cı ildə isə 32 milyon puda çatdı. XIX əsrin sonlarına doğru Tağıyevin illik sərmayə dövriyyəsi təqribən 5 milyon manat idi.[57]

---

54. Sərvət və Səxavətdə məşhur cənab Hacı Zeynalabdin Tağıyevin tərcümeyi-halı, Bakı 1993, səh. 11-13; N. Nərimanov, eyni adlı əsər, səh. 24; Azərbaycan Tarixi, Bakı 1993, səh. 219.
55. J. D. Henry, eyni adlı əsər, səh. 97.
56. H. Baykara, Azərbaycan İstiqlal Mübarizəsi Tarixi, Gənclik Nəşriyyatı, İstanbul 1975, səh. 42.
57. M. İbrahimov "XIX əsrin sonları XX əsrin başlanğıcında Azərbaycan Neft Sənayesində Milli Sərmayə Problemi", A, nömrə 276, noyabr-dekabr 1990, səh. 34-35.

Türklər 1872-ci ilə qədər neft quyularının 88%-nə sahib olmaqla yanaşı, Bakıdakı neft istehsalının yalnız yarısını həyata keçirə bilirdilər. 1872-ci ildən sonra türklərin neft quyularına olan sahibliyi, rus və Qərbi Avropalı rəqiblərin lehinə dəyişməyə başladı. Bu dövrdə türklərin sahib olduğu neft quyusunun sayı 13%-ə qədər düşdü. Lakin buna baxmayaraq Tağıyev və bir neçə türk ailənin var-dövləti kifayət qədər böyük paya sahib idi. [58]

1877-ci ildə Bakı şəhər Dumasına seçkilər keçirildi. Dumanın kifayət qədər səlahiyyəti olmasa da, şəhər həyatını nizamlamaqda və xalq arasında müəyyən nüfuzu var idi. Keçirilən seçkilər nəticəsində Tağıyev Dumaya üzv seçildi.[59] Vergiləri yığmaq, şəhərin küçə və parklarını nizamlamaq, bazarlar qurmaq, yanğına qarşı tədbirlər görmək Dumanın vəzifələri idi. Duma polis idarəsinin icazəsi olmadan iş görə bilməzdi. Həsən Məlikzadə Zərdabi, Əlimərdan Topçubaşov, Şəmsi Əsədullayev, Musa Nağıyev, İsa Bəy Hacıniski, Ağabala Quliyev kimi şəxslər Dumaya seçilən digər müsəlman üzvlərdən bəziləri idi.

1880-ci illərə gəldikdə Tağıyevin Bibiheybət və Balaxanıda neft çıxan quyuları, neft və neft məhsulları daşımaq üçün iki yelkənli gəmisi, Saritsin, Nijni Novqorod və Moskvada anbarları, iki zavodu var idi. 1884-cü ildə neft isehsalçıları tərəfindən "Sovet Syezdi" adlandırılan, neftlə bağlı bütün məsələlərin görüşülüb qərar verildiyi bir cəmiyyət quruldu. Bu cəmiyyət "***Neftyonoe delo***" jurnalını nəşr etmiş, fəhlələr üçün kitabxana, xəstəxana, əczaxana və məktəb açmışdır. E. Nobelin altı il sədri olduğu bu cəmiyyətə Tağıyev də fəxri sədr seçilmişdir.

Tağıyev 1885-ci ildə çıxardığı 7 milyon pud neftlə artıq Bakının ən varlı şəxsi idi. Həmin il Bakıdakı neft şirkətləri vahid şəkildə hərəkət etmələri üçün bir birlik qurmağa qərar verdilər. Bu birlikdə öndərliyi Nobel qardaşları etdi. Həm-

58. T. Swietochowski, eyni adlı əsər, səh. 41.
59. Q. İlkin, Bakı və Bakılılar, Zaman Nəşriyyatı, Bakı 1998, səh. 160

çinin Bakı Neft Cəmiyyəti, Xəzər şirkəti, H. Z. Tağıyev və Sarkisov qardaşları, Mirzəyev qardaşları və S. S. Palaşovski Ticarət Evləri birliyə qoşulacaqdı. Kiçik və orta sərmayəyə sahib şirkətlərə birliyə qoşulmaq səlahiyyəti verilsə də, verilən qərarlarda onların heç bir təsiri olmayacağı qeyd edildi. Çünki hər bir milyon pud neft istehsalı üçün bir səs vermək hüququ var idi. Bu birliyi qurmaq təşəbbüsü digər şirkətlərin Nobel qardaşlarının kiçik sərmayədarları ələ keçirəcəyi əndişəsi ilə həyata keçmədi.[60]

1890-cı ildə Tağıyev və digər türk milyonçular Nobel qardaşları və Xəzər-Qara Dəniz Cəmiyyətinə qarşı mübarizəyə başladılar. Daha ciddi mübarizə apara bilmək üçün aralarında Tağıyevin də olduğu 10 şirkət birləşərək "Bakı Standartı" birliyini qurdular. Lakin 1891-ci ildə qurulan bu birlik istənilən uğuru qazana bilmədi. Xüsusilə ixracatla bağlı problemləri həll edə bilməyən birlikdə 1892-ci ildə dörd şirkət qaldı. 1892-ci ildə yeni bir birlik olan "Yeni Firma Birliyi" quruldu. Bu birliyə Bakı Standartlarından qalan Tağıyev, G. M. Liyanozov, Buldarov qardaşları, A. İ. Mantaşev, Nobel Qardaşları, Xəzər şirkəti və C. M. Şibayev də daxil oldu. İldə 44 milyon pud neft istehsal edən birliyin 17 milyon pudunu Nobel qardaşları təmin edirdi. Bakı Standartı üzvləri birlikdən çıxdıqdan sonra bu birlik də uzunömürlü olmadı və dağıldı. Dağılma səbəbi isə Nobel qardaşlarının ixracatda birlik adından öz adını istifadə etməsi oldu. 1893-cü ildə qurulan "Bakı Neft Fabrikləri Birliyi" bu sahədə Rusiyadakı ən böyük təşkilat idi. Tağıyev bu birliyin qurulması üçün çox çalışdı. Qurulan ittifaqa 80 şirkət qoşuldu, lakin bir müddətdən sonra onlar da iki qrupa bölündü. Birinci qrupa Nobel qardaşları, S. M. Şibayev, Xəzər şirkəti, Xəzər Qaradəniz Cəmiyyəti və Musa Nağıyev, digər qrupa isə Tağıyev, G. M. Liyanozov, A. İ. Manteşev və Buldarov qardaşları öndərlik edirdilər. Birliyin 56572 payından 9610-u Nobel Qardaşlarına, 5870-i Xəzər-Qaradəniz Cəmiyyətinə, 1506-sı S. M. Şibayevə, 2703-ü Xəzər şirkətinə və 2461-i Tağıyevə aid idi. Birlikdə

60. Eyni adlı əsər, səh. 61

bütün hakimiyyət Nobel, Rotşild və Mantaşevin əlində idi. Bu birlik 1897-ci ildə dağıldı. Tağıyevin neft istehsalı 1893-cü ildə 20 milyon pud, 1896-cı ildə isə 32 milyon puda çatdı. Neft quyularının sayı isə 11 və 14 arasında dəyişirdi. Burada səkkiz buxar qazanı, doqquz ehtiyat deposu vardı və 156 daimi fəhlə işləyirdi. Zavodlarında da 13 buxar qazanı, 20 ehtiyat deposu və 137 fəhlə var idi.[61]

### *Bakı Batumi neft kəməri Tağıyevin ideyası idi*

Tağıyev yalnız neft axtarışı ilə deyil, bunun necə satılmasının zəruriliyi ilə də maraqlanır və problemi həll etmək yolları axtarırdı. Onun təşviqi ilə Çolaq Ağabala Quliyevin rəhbərliyində "Bakı-Batumi neft kəməri" şirkəti quruldu. Çarın 1887-ci ildəki fərmanından sonra V. G. Şuxovun rəhbərliyi ilə 1897-ci ildə başlanılan Bakı-Batumi neft kəməri ermənilərin mane olma cəhdlərinə baxmayaraq 1897-ci ildə başa çatdı. Xəzər dənizindən Qara dənizə uzanan xəttin uzunluğu 840 km. idi. 21 milyon manata başa gələn neft kəməri 1928-ci ildə yeniləndi. Lakin 1942-ci ildə tamamilə söküldü.[62]

Tağıyev 1897-ci ildə bütün neft quyularını, zavodlarını, neft kəmərini, neft tankerlərini, neft vaqonlarını və Rusiyanın bir çox yerindəki neft-yağ çəlləklərini beş milyon manata ingilis bank müdiri E. Qubbardın[63] şirkətinə satdı. Bu satışın səbəbi hələ də tam şəkildə bilinmir. Tağıyev varidatını ingilislərə satdığına görə günahlandırılmışdır. Sərvətinin dəyəri 20 milyon manat olduğu halda beş milyon manata satması və tikiş fabriki açması N. Nərimanova görə böyük bir fədakarlıqdır. Çünki neft işində 100-200 nəfər işlədiyi halda, tikiş fabrikində bir neçə min insan işləyəcəkdi.[64]Tağıyevin sərvətini alan şirkət 1897-ci ildə "Oleum" şirkətini qurdu. 1898-ci ilin dekabr ayında Rusiyada fəaliyyətə başlayan şirkət yalnız

---

61. M. İsmayılov- M. İbrahimov, eyni adlı əsər, səh. 64-66.
62. Q. İlkin, Bakı və Bakılılar, səh. 141-142; M. Süleymanov, eyni adlı əsər, səh. 35-36; J. D. Henry, eyni adlı əsər, səh. 113-116.
63. Q. İlkin, eyni adlı əsər, səh. 132.
64. N. Nərimanov, eyni adlı əsər, səh. 31-33

bir il ərzində (1897-98) üç milyon manat qazanc əldə etdi. Tağıyev satdığı şirkətdə yalnız şərik olaraq qaldı. Sərvətini satdıqdan sonra başqa sahələrə, xüsusilə toxuculuq sənayesinə sərmayə qoydu. Lakin neft ticarətindən tam mənası ilə uzaqlaşmadı. Yeni şirkət qurmadan qurulmuş şirkətlərə şərik olmaq yolunu seçdi. Bu şirkətlərdən biri Araferov, Cəbiyev və Əmirov tərəfindən qurulmuş olan "Ararat" şirkətidir. 1902-ci ildəki bu müştərəklikdən sonra "Yeni Ararat" olaraq adı dəyişən və ümumi sərmayəsi 42 min manat olan firmanın 2/7-si Tağıyevə məxsus olmuşdur.[65]Digər bir şirkət də "Anahid" şirkətidir. Həmçinin Tağıyev 1911-ci ildə Arzumanyanın qurduğu "Anonim" şirkətinə şərik oldu və 50 paydan 28-ni aldı. Tağıyev 10 aprel 1915-ci ildə arvadı Sona xanım, oğlu Sadiq, milyonçulardan Ə. Əhmədov, Ə. Tağıyev, B. Aşurbəyov, A. Aşurbəyovla birlikdə yeddi şəriklə bir şirkət qurdu. Adı "Tağıyev və Şərikləri Neft Sənaye Cəmiyyəti" olan 3.5 milyon manat sərmayəyə sahib bu şirkət quyu qazma işi ilə deyil, yalnız neftin satışı ilə məşğul idi.[66]

## Yeni sahələrə sərmayə qoyur

Tağıyev başqa sənaye sahələrinə yönəlir. Uzun müddət düşündüyü tikiş (toxuculuq) fabrikini açmaq üçün fəaliyyətə başlayır. Fabrik üçün Əhmədli və Zığ qəsəbələrindən yer almaq istəyir. Lakin ondan öncə bu ərazidəki torpaqlar Nobel, Şibayev və Mentaşev tərəfindən icarəyə götürülmüşdü. Tağıyevin icarəyə götürmək istədiyi torpaqları kəndlilər yalnız 30 illiyinə icarəyə verə biləcəklərini dedilər. Halbuki belə böyük bir sərmayə üçün 30 il çox az bir zaman idi. Tağıyev fabrik üçün ərazi icarəyə götürdüyündə Novoye Vremya qəzeti tərəfindən saxtakarlıqda və dövlət malını qəsb etməkdə ittiham olundu. Tikiş fabriki açmaq üçün Kənd Təsərrüfatı Nazirliyinə müraciət edən Tağıyev zəruri icazəni aldı.[67]

65. M. İsmayılov-M. İbrahimov, eyni adlı əsər, səh. 80.
66. Eyni adlı əsər, səh. 77-78.
67. Q. İlkin, Şəxsiyyət, səh. 9-10.

### *Tikiş fabriki quran Tağıyev işçiləri üçün daimi isti suyu olan binalar inşa etdirdi*

Beş milyon manata başa gələn toxuculuq fabrikinin inşası altı il çəkdi. Fabrikin inşaatına bir milyon manat xəcləndiyi halda, Avropadan gətirilən dəzgahlar 1 milyon 800 min manata başa gəldi. Həmçinin işçilər üçün inşa edilən evlərə, məscid, orta məktəb və yol təmirinə də böyük məbləğdə sərmayə qoyuldu. Fabrikin açılışının sürətləndirilməsi üçün Peterburq və Moskvadakı məmurlara bir çox hədiyyələr alındı.[68]

11 oktyabr 1897-ci ildə Tağıyevin qurduğu "Lifli Maddələrin Emalı üzrə Qafqaz Səhmdarlar Cəmiyyəti"nin nizamnaməsi qəbul edildi.[69] Bu Cəmiyyətin məqsədi pambıq və s. lifli maddələrin işlənməsi üçün Bakıda əyirici, toxuyucu, rəngləyici və naxış işləyən hazır parça fabriki açmaq idi. Tağıyev fabriki inşa edərkən buranı yalnız bir ticarətxana deyil, eyni zamanda fəhlələrin yaşadığı evlər, uşaqlar üçün məktəb və məscidi olan bir kompleks şəklində qurdu. Fabrik açıldıqdan sonra Moskva və Lodz firmaları ilə yarışmağa başlandı. Marazov və digər fabrik sahibləri özlərinə rəqib istəmədiklərinə görə Peterburqa təzyiq göstərərək Tağıyevə yalnız parça toxumağa icazə verdilər.[70]

Fabrikin avadanlıqları müxtəlif Avropa ölkələrindən gətirildi. İngiltərə, Avstriya, İsveçrə və Rusiyanın bəzi şəhərlərindən toxuculuq maşınları, elektrik avadanlıqları, buxar qazanları, buxar maşınları, havalandırma sistemləri fabrikə yerləşdirildi. Avropadan ustalar gətirilərək bu dəzgahların necə istifadə ediləcəyi yerli ustalara öyrədildi.[71]

Fabrik qurulduqdan qısa bir müddət sonra yanğın çıxarılaraq qarışıqlıq salınmaq istənsə də, yanğınsödürənlərin və fəhlələrin köməyi ilə yanğın böyümədən söndürüldü. Avropadan gətirilən iki min beş yüz dəzgah və avadanlıqla ildə

---

68. M. Süleymanov, H. Z. Tağıyev, səh. 30.
69. R. Rundenva, "H. Z. Tağıyev adına Fabrik", Günay 4 iyul 1996-cı il, səh. 3.
70. Mahmud İsmayılov-M. İbrahimov, El Atası, səh. 98-99.
71. R. Rundeva, eyni adlı mənbə, səh. 3.

təqribən 21 milyon metr parça toxunurdu. Bu da təxminən 1 milyon yeddi yüz min manat gəlir demək idi.[72] Tağıyevin toxuculuq fabriki Qafqazda ən böyük toxuculuq fabriki idi. Birinci dünya müharibəsi illərində tənəzzülə uğrayan ticarət həyatına baxmayaraq fabrikdə 525 dəzgah hələ də işlək vəziyyətdə idi. Burada işləyən fəhlələrin 70%-i türk, 20%-i rus, 10%-i başqa millətlərdən idi. Fabrikin ətrafına bütün fəhlələrə isti suyu və işığı olan evlər inşa edildi. Orta məktəb və məscidlə yanaşı sanitar qovşağı quruldu. Sanitar qovşağına həftədə üç dəfə şəhərdən həkim gəlirdi. Fəhlələr üçün yeməkxana da inşa edilmişdi.[73] H. Z. Tağıyev bütün sahələrdəki istehsal müəssisələrində işləyən fəhlələrə ən yaxşı şərait yaratmağı özünə vicdan borcu bilirdi. O hər millətdən, hər dindən və məzhəbdən olan işçilərə ayrı-seçkilik qoymadan münasibət göstərirdi.

Tağıyev pambıq ehtiyacını qarşılamaq üçün Yelizavetpoldan (Gəncə) ərazi satın alaraq burada pambıq istehsal etməyə başladı. 1909-cu ildə Cavad qəzasının Tataroymaq kəndində pambıq təmizləmə zavodu inşa etdirdi.[74] Bu müasir toxuculuq fabrikində təxminən 1500 nəfər insan işləyirdi. Fabrikə Kazandan toxuculuq işində usta tatarlar da gətirilmişdi.[75] Bu fabrikdə işləyən 3300 fəhlədən yalnız 600 nəfəri bolşeviklərlə birlikdə inqlab tərəfdarı idi.[76] Tağıyevin tabeliyindəki müəssisələrdə işləyən işçi sayı müxtəlif dövrlərdə dəyişdiyinə görə, mənbələrdə tam dəqiq məlumat verilməsə də, tam təşəkküllü sənaye şəhəri olan Bakıda Tağıyevin təqribən 12 min nəfərə iş imkanı yaratdığı və təxminən 50 min nəfərin buradan dolandığı qeyd edilir. Fabrikin pambıq ehtiyacını qarşılamaq üçün Xokand, İrəvan, Xivə, Yevlax, Buxara, Mazandaran və Qəzvindən pambıq gətirilirdi.[77]

---

72. M. Süleymanov, eyni adlı əsər, səh. 31.
73. Teyyub Qurban, Ömür yolları, OLNPKT, Bakı 2013, səh. 103
74. M. İsmayılov-M. İbrahimov, eyni adlı əsər, səh. 99-101.
75. A. L. Aıtstadt, The AzerbaijaniTurks, Hover İnstution Press, (California 1992), səh.24; Sərvət və Səxavətdə ... səh. 24; Azərbaycanda neft və Zeynalabdin Tağıyev", KA nömrəsi 17 (1976), səh. 50
76. M.Bala Milli Azərbaycan Dövləti (1938), səh.191.
77. R. Rudneva, eyni adlı məqalə, səh. 3.

Toxuculuq fabrikində istehsal edilən parçalar öncə Qafqaz və Türküstanda satılırdı. Daha sonra adı məşhur olan (sahibi və işçiləri müsəlman olduğuna görə) fabrikin parçaları müsəlman ölkələrdə ölüləri dəfn etmək məqsədilə kəfən kimi istifadə edilirdi. Məkkəyə həcc ziyarətinə gedənlərlə, Kərbəla və Xorasanı ziyarət edənlər də bu parçalardan istifadə edirdi.[78]

***Tağıyev Nəqliyyat işinə girir.***

1898-ci ildə Çar Rusiyasında, Azov, Qara dəniz, Ağ dəniz və Baltik dənizindəki bütün yük gəmilərinin 40%-i Xəzər dənizində idi. 1899-cu ildə 345 yük gəmisi işləyirdi ki, bunlardan da 133-ü buxar gəmiləri idi.[79] 1898-ci ildə Xəzər dənizindəki gəmi sahibləri öz aralarında bir saziş imzalayaraq "Neftdaşıma gəmiləri sahiblərinin birliyi"ni qurdular. 1903-cü ildə bu gəmi sahiblərindən Tağıyev, Bünyadov, Aşurov, Hüseyinov və Quliyev qardaşları yenidən bir saziş imzaladılar. Daha sonra bu sazişə Nobel qardaşları da qoşuldu. İmzalanan sazişdə gəmi kiraları və daşıma qaydaları tənzimlənirdi. Yükdaşıma şirkətləri arasında ən böyüyü "Xəzər şirkəti" idi. Xəzər dənizi, İdil, Oka, Kama və onların qolları ilə yükdaşımaları həyata keçirilirdi. Bu şirkətin ən böyük pay sahibi Tağıyev idi. Tağıyevin oğlu və xanımı da şirkətin idarə heyətində söz sahibi idi. 1898-ci ildə Tağıyevin üç gəmisi (Leyla, Abo və Bakı) var idi. Xəzər şirkətinin mərkəzi idarəsi Moskvadan Bakıya köçürüldü və Tağıyevin şirkəti ən böyük pay sahibi oldu.[80]

1904-cü ildə yeni bir şirkət "Kür-Xəzər şirkəti" quruldu. Bu şirkətin gəmiləri Xəzər dənizindən bütün limanlara üzəcəkdi. Tağıyev nəqliyyatla bağlı olaraq bir çox limana körpü və anbar tikdirdi. Şirkətin başlıca sərmayəsi iki milyon manat idi.[81]Cəmi 15 gəmisi olan "Kür-Xəzər şirkəti" Rusiyanın ən böyük şirkətlərindən olan "Qafqaz Merkuri" və "Şərq Cəmiy-

78. M. Süleymanov, eyni adlı əsər, səh. 32.
79. H. Baykara, Azərbaycan İstiqlal Mübarizəsi Tarixi, səh. 52.
80. M. İsmayılov-M. İbrahimov, eyni adlı əsər, səh.90-91.
81. M. Süleymanov, eyni adlı əsər, səh. 13.

yəti" şirkətləri ilə yarışırdı. 1907-ci ildə bütün yükdaşımaların 65%-nin görüldüyü və 45 gəmi sahibinin birləşdiyi "Gəmi sahiblərinin birliyi"ni quran Tağıyev eyni zamanda bu birliyin sədri idi. Lakin Tağıyev bir müddətdən sonra Qaradəniz, Qafqaz, İdil və Xəzər bölgələrində böyük şirkətlərlə rəqabətə dözməyərək bütün donanmasını "Qafqaz Merkuri" və "Şərq Cəmiyyəti"nə satdı.[82]

H. Z. Tağıyev bütün ticarət fəaliyyətləri ilə yanaşı, bir çox xeyriyyə işlərini də görürdü. Xalq arasındakı nüfuzuna və siyasi sahədəki bəzi irəliləyişlərə görə bu sahədə də ondan kömək və dəstək tələb edilirdi. 15 mart 1905-ci ildə türk varlıları və ziyalılar Tağıyevin evində toplaşdılar. Toplantıda Zaqafqaziyada bəzi yeni reformların həyata keçirilməsi üçün Çar Rusiyasından tələblər irəli sürüldü. Müsəlmanlara şəxsiyyət və mülkiyyət toxunulmazlığı, pulsuz ibtidai təhsil və s. haqların verilməsi kimi məsələləri ehtiva edən yığıncağın sonunda hazırlanan mətn həm Peterburqa, həm də Azərbaycanın bütün şəhərlərinə çatdırıldı. Bu, Azərbaycan türklərinin Çar hökumətinə təqdim etdiyi ilk istək sənədi idi. Bundan sonrakı tələblərdə də bu sənəd əsas götürüldü. İşlərin idarə edilməsi və tətbiqi hüquqşünas, eyni zamanda jurnalist olan Əlimərdan Topçubaşova həvalə edildi.[83]

1905-ci ildə Azərbaycanda uzun müddət davam edən türk-erməni gərginliyi artıq münaqişəyə çevrildi. Hadisələr ilk olaraq bir müsəlmanın daşnaklar tərəfindən qətlə yetirilməsi ilə başladı. Buna etiraz olaraq 6 fevral 1905-ci ildə əksəriyyəti yaxın kəndlərdən gələn minlərlə türkün erməni məhəlləsinə hücum etməsi ilə hadisələr böyüyərək İrəvan, Naxçıvan və Şuşaya yayıldı. Ən qanlı döyüşlər 15-18 noyabr tarixində Gəncədə və 21 noyabrda Tiflisdə meydana gəldi. İki tərəfin də çox böyük itkilər verdiyi hadisələrdə türklərin itkisi daha çox idi. Tağıyev bu döyüşlərdə heç bir yerdən ərzaq ala bilməyərək aclıqla üz-üzə qalmış Şuşa xalqına ərzaq göndərdi.

82. M. İsmayılov- M. İbrahimov, eyni adlı əsər, səh. 93-94.
83. B. D. Seyizadə, "Azərbaycan Burjuaziyası və İdeologiyasının Müdafiəçiləri XIX və XX əsrlərin astanasında", A, nömrə 276, noyabr-dekabr 1990, səh. 30

Münaqişəni yatırmaq və müharibəni dayandırmaq üçün böyük səy göstərdi. Tağıyev bu münaqişənin hər iki tərəfə də fayda verməyəcəyini düşünür və bunu başa salmağa çalışırdı.[84]

1900-cü ildən etibarən ermənilər Bakıda ticarətdə və sənayedə ağırlıqlarını hiss etdirmişdilər. Bakıda 115 sənaye müəssisəsindən 29% ermənilərin, 18% isə türklərin idi. Ermənilər daha çox rəhbər vəzifələrdə, türklər isə sıravi fəhlə idi. Bu dövrdə ən varlı erməni ailələrindən məşhurları Mirzoyevlər, Mailovlar, Liazanovlar, Aramyanlar, Tavetasyanlar və Mantaşevlər idi.

Tağıyev 18 fevral 1905-ci ildə Tiflis şəhər idarəsinə göndərdiyi teleqramda bunları yazırdı: "Dünən evimdə şəhərin erməni və müsəlmanlarını birləşdirən bir ziyafət var idi. Qardaş xalqların birləşməsinin zəruriliyi məsələsində hər iki tərəfdən də danışanlar oldu. Ziyafət qardaşlıq şəraitində keçdi." (Kaspi, 19 fevral 1905) Tiflis şəhərinin Qubernatoru Tiflis xalqına təsəlli verməsi üçün Tağıyevin tanınmış ictimai xadimlərə teleqram göndərməsini istəmişdi. Ona göndərdiyi teleqramda; "Xahiş edirəm, onlara elə bir teleqram göndərin ki, burada xalqa təskinlik verə bilim", - deyə yazılmışdı. (Kaspi, 22 mart 1905) Yenə Tağıyev ermənilərin tanınmış ictimai xadimlərinə göndərdiyi teleqramda: "Bakıda ermənilərin tanınmış ictimai xadimləri ilə birlikdə dostluq səylərimiz sayəsində mənfi hadisələrin qarşısını ala bildik. İndi bu sülhü möhkəmlətməyə çalışırıq. İrəvanda da buna bənzər hadisələrin olduğunu kədərlə eşitdik. Ciddi tədbirlər görməyinizi, erməni ictimai xadimləri ilə birlikdə hər iki tərəfdən xalqa yanaşaraq qan tökülməsinin qarşısını almaq və sülh yaratmaq üçün səy göstərməyinizi xahiş edirik", - deyirdi.[85]

Yuxarıda mətnlərini verdiyimiz teleqramlardan Tağıyevin yalnız Bakıda deyil, digər bölgələrdə də münaqişənin yatırılması üçün mühüm rol oynadığını görürük. Bakıda həbs edilən-

---

84. N. Sarıəhmədoğlu, Azərbaycan Ermənistan münasibətləri, 1905-1920 M. Ü. Türkologiya Araşdırmaları İnstitutu, nəşr edilməmiş doktorluq işi, İstanbul 1996, səh. 15.
85. Q. İlkin, Şəxsiyyət, Bakı 1995, səh. 10, 11

lər həbsxana olmadığına görə Nargin adasındakı həbsxanaya aparılırdı. Xalq yaxınlarını görmək üçün bir çox əzab-əziyyətə qatlanırdı. Xalqdan bir çox insan Tağıyevə müraciət edərək kömək göstərməsini xahiş etdi. Tağıyev də Quba meydanı ilə Kömürçü meydanı arasında tikdirdiyi beş mərtəbəli dəyirman binasını həbsxana kimi istifadə etməyə verdi.[86]

### *Xəzər dənizində balıqçılığa qoyulan sərmayə*

1881-ci ildə balıq sənayesindəki iltizam sisteminin ləğv edilməsi ilə böyük inkişaf başladı. Bu sahəyə ilk sərmayə qoyan türklər: Tağıyev, M. Nağıyev, M. Muxtarov və T. Səfərəliyev idi. Kür çayının balıq yataqlarının satışında böyük pullar təklif edilmişdi. Tağıyev ən çox pulu ödəyərək balıq yataqlarının sahibi oldu. 1909-cu ildə Kür çayı və Xəzər sahili boyunca (təqribən) 303 km. Balıq yataqlarının sahibi Tağıyev idi. Onun balıqçılıq sənayesinə qoyduğu sərmayənin dəyəri 6,5 milyon manat idi.[87]

1916-cı ildə "Xəzər-Tağıyev Balıq Sənaye Cəmiyyəti" quruldu. Büdcəsi 12 milyon manat olan cəmiyyətin 3/2-si Tağıyevə məxsus idi.[88] Tağıyev balıq məhsullarını saxlamaq üçün Dağıstan vilayətinin Petrovsk qəzasında ən müasir avadanlıqlarla təchiz edilmiş bir soyuducu müəssisəsi qurdu.[89]

### *Tağıyev bank qurur*

Bakıda neft sənayesinin inkişafı ilə bank sektoru da inkişaf etmişdi. Dövlət bankı ilə yanaşı, İdil-Kama Bankı, Rus-Asiya Bankı, Tiflis Ticarət Bankı, İran Bankı və Rusiya Sənaye Ticarət Bankının şöbələri Bakıda açılmışdı.[90]

Bakıda 1916-cı ildə 12 bank var idi. Bunlardan biri də Tağıyevin sahib olduğu "Bakı Ticarət Bankı" idi. Bankın nizamnaməsi 1913-cü ildə təsdiq edildi və 15 aprel 1914-cü

86. Q. İlkin, eyni adlı əsər. Səh. 11-12.
87. Eyni adlı əsər, səh. 104, 105
88. "Tağıyev Balıq Sənayesi", ASE, cild IX, 1986, səh 122
89. Bəşiroğlu, eyni adlı əsər, səh. 23
90. M. Süleymanov, eyni adlı əsər, səh. 4.

ildə bank fəaliyyətə başladı. Tağıyevdən başqa Ş. Əsədullayev, Ə. Əhmədov, M. Dembo, İ. Rilski, M. Lbov, M. Nağıyev və B. Rüstəmbəyov bu bankın şəriklərindən idi. Bakı Ticarət Bankı fəaliyyətini neft xaricində pambıq, balıq, un və digər sahələrdə də genişləndirir, günbəgün müştərisi artırdı. Xüsusilə müsəlman əhalinin bu banka göstərdiyi maraq böyük idi.[91] 1915-ci ildə əsas sərmayəsini üç milyon manatdan beş milyon manata çatdıran bank, 1916-cı ildə sərmayəsini 24 milyon manata qədər artırdı.[92] Bakı Ticarət Bankı yeni sənaye müəssisələrini maliyyələşdirmək, xüsusilə də təşəbbüskar iş adamlarına maddi dəstək olmaq məsələsində mühüm tədbirlər həyata keçirmişdir.[93]

Tağıyevin bəhs etdiyimiz fəaliyyətlərindən başqa metaləritmə sexi və gəmiqayırma müəssisəsi də var idi. Tağıyev "S. M. Dembo" cihaz fabrikinin sahibi və "Bakı Limanı"nın şəriki idi. Həmçinin 1903-cü ildə bir dəyirman satın aldı. 1910-cu ildə neftlə işləyən müasir bir dəyirman tikdirdi. 105 nəfər işçisi olan bu dəyirmanın illik gəliri təqribən üç milyon manata yaxın idi.[94]

### Təhsil sahəsinə göstərdiyi böyük qayğı

Hacı Zeynalabdin Tağıyev bütün bu gərgin və çox yorucu ticarət fəaliyyətləri ilə sərvətini artırarkən, bir yandan da millətinin zəmanəyə görə geri qaldığını, hər nə qədər özü də təhsil almamış, öz əməyi ilə yetişmiş bir fəhlə və sonra da təşəbbüskar olduğu halda, rahat şəkildə görə bilirdi. Hətta öz müəssisələrində mütəxəssis ustaların yerləşdirilməsində, türkləri işlətməkdə əziyyət çəkirdi və bu hal ona çox pis təsir edirdi. Tağıyev Azərbaycan türklərinin, hətta bütün Rusiya türklərinin (müsəlmanlarının) təhsil və texnologiya sahələrindəki geri qalmışlığına çarə ola biləcəyi düşüncəsi ilə maarif sahəsinə böyük töhfələr vermişdir. Bir çox təhsil müəssisəsini

91. M. İsmayılov-M. İbrahimov, eyni adlı əsər, səh 109-112.
92. M. İbrahimov, adı keçən mənbə, səh. 36.
93. Bəşiroğlu, eyni adlı əsər, səh. 24.
94. M. İsmayılov-M. İbrahimov, eyni adlı əsər, səh 103

sıfırdan inşa edib bütün avadanlıqlarla, müəllimlərlə birlikdə xalqın xidmətinə verməklə yanaşı, təhsil vəsaitləri ilə də təmin etmişdir. O həmçinin kitabların nəşri məsələsi ilə maraqlanmış, bir çox şagirdə təqaüd vermiş və bir çoxunun ali təhsil almaları üçün xaricdə oxumağa göndərmiş, bütün xərclərini öz üzərinə götürmüşdür. "Müsəlman Qız Məktəbi" Tağıyevin maddi dəstəyi ilə açılan məktəblərdən biri idi. O vaxta qədər müsəlman qızlar üçün məktəb yox idi. Tağıyev qızları Sara və Leylanın Peterburqda "Smolnı Qız İnstitutunda" təhsil almasını istəyirdi. Lakin İnstitut yalnız bəy, xan və ya yüksək rütbəli zabitlərin uşaqlarını qəbul edirdi. Bu səbəbdən Tağıyevin qızları əvvəlcə qəbul edilmədi, lakin babalarının General Ərəblinski olması onların bu İnstituta qəbul edilmələrinə şərait yaratdı. Bundan sonra Tağıyev qızlar məktəbi açmaq üçün əlindən gələni etdi.

### *Müsəlman qız məktəbi (Aleksandrevski qız məktəbi)*

XIX əsrin ikinci yarısından etibarən Azərbaycan təhsil və mədəniyyət sahəsində çox böyük inkişafa qədəm qoydu. Mədrəsələr xaricində müasir məktəblər açılmağa başlandı. Azərbaycanda təhsilin inkişafında S. Ə. Şirvani, M. T. Sidqi, H. Zərdabi, H. B. Vəzirov və S. M. Qənizadənin böyük zəhməti olmuşdur. Xüsusilə müəllim kadrlarının hazırlanmasında Qori Müəllimlər Gimnaziyasında Azərbaycan şöbəsinin açılması çox mühüm əhəmiyyət kəsb etdi. Daha sonrakı illərdə Azərbaycanın təhsil və mədəni həyatı üçün başlıca xidmətləri olan N. Nərimanov, R. Əfəndiyev, C. Məmmədquluzadə, H. Mahmudbəyov, F. Köçərli bu məktəbin məzunları oldular.[95]

Bu dövrün ən mühüm hadisələrindən biri də Azərbaycanda "Üsuli-Cədid" məktəblərinin açılması idi. Bu açılan ibtidai siniflərlə yanaşı Rus-Tatar məktəbləri də geniş yayılmağa başladı. 1900-cü ildə Azərbaycanda mövcud olan 172 ibtidai sinifdə təhsil alan 14 min 410 uşaqdan 2 min 646-sı, Bakı və Zaqataladakı peşə məktəblərində oxuyan 198 tələbədən də yalnız doqquzu türk idi. 1914-cü ildə isə 942 ibtidai məktəb

95. Azərbaycan Tarixi, Bakı 1994, səh 617.

və 332 orta məktəbdə cəmi 72 min 400 şagird var idi. Bu şagirdlərdən 22 min 161 nəfərini türk şagirdlər təşkil edirdi.[96] Azərbaycan türklərinin böyük əksəriyyətinin bisavad olduğu bu dövrdə Tağıyev sərvətini xalqının təhsil alması üçün xərcləməyi düşünürdü. Onun təhsil fəaliyyətində Zərdabinin böyük rolu olmuşdur.

Azərbaycanda ilk dəfə müsəlman qızlar üçün məktəb açmaq fikri Zərdabi və həyat yoldaşı Hənifə xanıma aiddir. 1896-cı ildə Tiflisdə Şeyxülislam və müftinin dəstəyi ilə açılması nəzərdə tutulan qız məktəbi layihəsi baş tutmadı. Yenə həmin il Zərdabi Bakıda bir qız məktəbi açmaq üçün icra hakimiyyətindən icazə istəsə də, bu tələb qəbul edilmədi. Göyçay qəzasının rəisinin icra hakimiyyətinə göndərdiyi məktub bu tələbin yerinə yetirilməmə səbəbi kimi göstərildi. Məktubda Zərdabiyə cavab olaraq "siyasi cəhətdən etibarsız və dövlət üçün təhlükəlidir"- sözləri yazılmışdı.[97]

Zərdabidən sonra Tağıyevin də Çar III Aleksandra qız məktəbi açmaq üçün müraciəti qəbul edilmədi. III Aleksandr öldükdən sonra Tağıyev çarın xanımı Aleksandra Fyodorovnaya qiymətli hədiyyələr göndərərək məktəb açmaq təşəbbüsünü yenilədi və əgər icazə vermiş olsa, açılacaq məktəbə onun adının veriləcəyini bildirdi. Sonra Tağıyev 24 aprel 1896-cı ildə Qafqaz Təhsil Şöbəsinin müdiri Senator Yankovskiyə rus-müsəlman məktəbi açmaq istədiyini və ona bu məsələdə icazə verilməsini istəyən bir məktub göndərdi. Məktubunda; bu məktəbdə azərbaycanlı qızların oxuyacağını və təhsil müddətinin 4 il olacağını, rus və azərbaycan dilləri, əl və evdarlıq işləri öyrədiləcəyini yazdı. Bu məktubdan qısa bir müddət sonra yenə də eyni məsələ ilə bağlı bir məktub yazdı: "Yankovski müsəlman qadınların vəziyyətini bilmir. Müsəlman qadınların vəziyyətlərini düzəltməyin yeganə çıxış yolu təhsildir. Biz bu məktəbləri açmalıyıq ki, müsəlman əhali bizə etimad göstərərək heç tərəddüd etmədən qızlarını məktəbə göndər-

96. Azərbaycanda Xalq Maarifinin İnkişaf Yolu, Azərnəşr, Bakı 1945, səh 7; E. Tağıyev, Azərbaycanda Məktəb Tarixi, Maarif nəşriyyatı, Bakı 1993, səh 69.
97. H. Əhmədov XIX əsr Azərbaycan məktəbi, səh. 218.

sin. Məktəbdə işləyənlərin əksəriyyəti qadın olmalıdır və burada hər şey Azərbaycana aid olmalıdır."[98]

Tağıyev 29 aprel 1896-cı ildə Bakı şəhər idarəsinə icazə üçün müraciət etdi. Bu ərizədə məktəb binasını inşa etdirmək üçün 25 000 manat, məktəbin təhlükəsizliyi üçün isə 125 000 manat sərmayə qoyacağını və 20 nəfərlik pansionat (yataqxana) tikdirəcəyini bildirdi. 24 aprel 1896-cı ildə Qafqaz Təhsil İdarəsinə göndərdiyi ərizəyə təhsil idarəsinin müfəttişi Zavodski tərəfindən müsbət cavab gəldi. Tağıyev Qafqaz Təhsil İdarəsinin rəhbərliyinə yazdığı ərizənin sonunda qoyduğu 150 min manat sərmayəni, əgər məktəb özünün istəyi xaricində fəaliyyət göstərməyə başlayarsa, geri çəkəcəyini də bəyan etdi.[99]

Tağıyev ətrafındakı qızlara çarın xanımı Aleksandra Fyodorovnaya məktub yazaraq məktəbin açılmasına icazə verməsini və açılacaq məktəbə onun adının veriləcəyini bildirmələrini istədi. Çarın xanımı da qızlara göndərdiyi teleqramda açılması nəzərdə tutulan məktəbdə yaxşı oxumalarını, vətəninə və cəmiyyətə faydalı olmalarını istədi.[100] Məktəbin açılması üçün hazırlıq işlərinə nizamnaməsinin yazılması ilə başlanıldı. Bu məsələdə Tağıyevə ən böyük köməyi Zərdabi edirdi. Eyni zamanda rus məktəblərinin müdirləri ilə görüşən Tağıyev onların daköməyindən istifadə etdi. Məktəb Qafqaz Təhsil İdarəsinin qanunları əsasında fəaliyyət göstərəcəkdi. Beləliklə, məktəbin Tağıyevin pulu ilə tikildiyi və müsəlman qızlara təhsil vermək məqsədi daşıdığı təsdiq edilmiş oldu. Məktəb Qafqaz Təhsil İdarəsi nəzdində və eyni zamanda Xalq Məktəbləri Müdirliyinə tabe idi. Bu məktəbə yeddi yaşından yuxarı müsəlman qızlar qəbul ediləcəkdi. Təhsilin gündəliyi isə Qafqaz Təhsil İdarəsinin ibtidai sinif proqramına uyğun şəkildə hazırlandı.[101]Məktəbin ilk üç ilində dini təhsil, son dört ilində isə rus dili və əl işləri dərsləri veriləcəkdi. Məktəbdə təhsilin davam etməsi Tağıyevin

98. M. İsmayılov- M. İbrahimov, El Atası, səh 21.
99. Eyni adlı əsər, səh. 22-23
100. M. Süleymanov, H. Z. Tağıyev, səh 19; Qız Məktəbinin açılmasına icazənin II Nikolaya tac qoyma mərasimində alındığı bildirilir. H. Baykara, Azərbaycanda Yeniləşmə hərəkatları, səh 146.
101. M. İsmayılov, M. İbrahimov, eyni adlı əsər, səh. 25-26; Nərimanov, eyni adlı əsər, səh.31.

xərclədiyi 150 min manatın faizi və məktəbə davam edənlərdən alınan məvacib ilə təmin ediləcəkdi.[102]

Nizamnamədən sonra idarə heyəti seçildi. İdarə Heyətinin sədri Tağıyev, köməkçisi isə Tağıyevin tələbi ilə Zərdabi oldu. Digər üzvlər; Tağıyevin xanımı Sona Xanım, Vali, Bələdiyyə sədri, Bakı Qız Liseyinin müdirəsi, oğlanlar liseyinin müdiri və Əlimərdan Topçubaşovdan ibarət idi. Məktəbin xeyriyyə işlərindən Sona xanım məsul idi.[103]

### Mollalara qarşı apardığı mübarizə

Tağıyev qız məktəbini açarkən icazə alınması, şagird və müəllimlə təmin edilməsi kimi məsələlərdə böyük çətinliklərlə qarşılaşmışdı. Lakin onun ən çox ağırına gedən və mübarizə tələb edən problem mollaların qız məktəbinə qarşı davranışları idi. Bu dövrün mollalarının bir qisminə görə qızların oxuması caiz deyildi. Mollalar bu düşüncələrini xalqa da izah edərək onlardan qızlarını məktəbə göndərməmələrini tələb edirdilər. Tağıyev bu dövrdə mollaların xalq üzərindəki nüfuzunu bildiyinə görə onları evinə dəvət edib ziyafətlər verərək razı salmağa çalışdı. Bu söhbətlərdə onlara qızların oxumasının islamiyyətə zidd olmadığını, gələcəyin analarına mütləq təhsil verilməsinin zəruri olduğunu bildirdi. Tağıyev bu ziyafətlərdən sonra mollalara hədiyyələr payladı. Lakin mollalar razılaşmaq əvəzinə daha da qəzəbləndilər. Yalnız Axund Əbu Turab[104], Qazi Ağamir Məhəmməd Kərim[105] və Axund Molla Ruhullah[106] Ta-

102. N. Nərimanov, eyni adlı əsər, səh. 31

103. M. Süleymanov, eyni adlı əsər, səh. 21.

104. Axund Mirzə Əbuturab (?-1910) Bakının Əmircan kəndində anadan olmuşdur. Təhsilini Mədinədə almışdır, ərəb dilini mükəmməl şəkildə bilirdi. Həyat qəzetində məqalələri dərc edildi. İslam dininin fanatizmdən və xürafatlardan arındırılması üçün səy göstərdi. Məqalələrində insanların maariflənməsi və birlik olmaları mövzusunda çalışırdı. Ən məşhur əsəri “İslamın Təfriqəsi Səbəbləri” əsəridir. Q. İlkin, Şəxsiyyət, səh-47-48.

105. Axund Mirməhəmməd Kərim Mircəfərzadə 1853-1938 təhsilini Bağdadda bitirdi. Quranı Azərbaycan dilinə tərcümə etdi. Dini fanatizmə və xürafata qarşı məqalələr yazırdı. Xeyriyyə cəmiyyətlərində fəal iştirak etdi. Həyatının böyük hissəsini tərcümə işlərinə həsr etdi. Səlib müharibəsi adlı bir tarix kitabından başqa, nəşr edilməmiş bir çox əsəri vardır. Q. İlkin, eyni adlı əsər, səh. 50-51.

106. Axund Molla Ruhullah 1850-1912 Bakının Novxanı kəndində dünyaya gəlib. Təhsilini Qəzvində bitirdikdən sonra Bakıdakı Hacı İmam Əli məscidində imamlıq et-

ğıyevə dəstək oldular və qızların oxumasının islamiyyətə zidd olmadığını dedilər.[107]

Tağıyev mollaları bu şəkildə yola gətirə bilməyəcəyini başa düşdükdən sonra ən çox etibar etdiyi insanları Məkkə, Mədinə, Kərbəla, Xorasan, Qahirə, İtanbul, Tehran kimi müsəlmanlar tərəfindən müqəddəs sayılan yerlərə göndərərək oradakı din alimlərindən qızların oxumağının islama zidd olmadığı barədə fitva almalarını istədi. Fitva almaq üçün göndərdiyi insanlar qayıtdıqda mollalarla evində təkrar görüşdü. Burada Mirməhəmməd Kərim Ağa, Ağa Axund Ruhullah və Axund Əbu Turab qızların oxumasının islama zidd olmadığını ayə və hədislər oxuyaraq müdafiə etdilər. Lakin mollalar yenə də razılaşmırdı. Bu yığıncaqda Tağıyev özü də irəli sürdüyü təkliflərlə mollaları razı salmağa çalışdı. "Camaat, qızlarımızın zəmanənin tələbinə uyğun şəkildə təhsil almaları vacibdir... İngiltərəyə, Almaniyaya, Fransaya gedib oxuyan cavanlarımızın çoxu oradan qollarına bir qadın vurub gətirirlər.

Çünki qızlarımızı özlərinə yaraşdırmırlar. Əcnəbi qadınlardan uşaqları dünyaya gəlir... Belə gedərsə, ata-ana ocaqları Quransız, namazsız, şəriətsiz qalacaq. Yeni açılacaq məktəbdə şəriət qaydaları, tikiş-naxış, toxuculuq, mühasibat, uşaqlara tərbiyə vermək qaydaları öyrədiləcək. Burada pis bir şey varmı? Molla Hacı Xəlil oğlu! Mənə qulaq as! Mən qızları namussuz etmək istəmirəm, naməhrəmlə gözüaçıq olmağa çağırmıram. Keçən gecə iyirmi yaşındakı ortancıl qızın sancılanmışdı, az qala ölürdü. Lopabığ Ambarsun həkimi gətirtdin ki, qızı müayinə etsin. Qızına dərman yazdı və sağaltdı. Halbuki həkim müsəlman bir qadın həkim olsaydı, şəriətə hansı daha uyğun olardı? Qadın həkimlərə və müəllimlərə çox ehtiyacımız vardır. Bu məktəbi, Çar II Aleksandr Bakını

---

məklə yanaşı, müsəlman-rus məktəbində islam elmlərini tədris edirdi. Dində yeri olmayan xürafatlarla və onları müdafiə edən din xadimləri ilə mübarizə aparırdı. Bakıda bir çox qəzetlərdə çıxan məqalələri ilə yanaşı, İstanbulda çap edilən "Məlumat qəzetində" də məqalələri çap edilirdi. Təhsilin inkişafı, xüsusilə də uşaqların oxudulması üçün əlindən gələni edirdi. Xeyriyyə cəmiyyətlərində fəal işlər gördü. 1912-ci ildə evində namaz qılarkən qətlə yetirildi. Q. İlkin, eyni adlı əsər, səh. 52-55.

107. M. Süleymanov, eyni adlı əsər, səh. 23-24.

ziyarət edərkən mən ona müsəlman əhalidən “vəhşi xalqın təmsilçisi” kimi təqdim edildikdən sonra açmağa qərar verdim. Bu məktəbin inşası üçün bir ətək pul xərclədim. Dərs verəcək qadın müəllimələr tapa bilmək üçün Kazan şəhərinə adam göndərdim...”[108]

Tağıyev verilən fitvaları götürərək, bütün mollalardan islam dünyasında hansı alimə etibar etdiklərini soruşdu. Aldığı cavaba görə gələn imzalı fitvaları göstərdi. Təəccüb edən mollalar bu fitvalar qarşısında susub durdular. Tağıyev ziyafətdən sonra yenə mollalara hədiyyələr verdi.[109] Mollalar qız məktəbinin açılmasına etiraz etməklə yanaşı, tərəfdar olanları da hədələyirdilər. Qismən üzüaçıq gəzən müsəlman qadınlara hücum edilir, başlarına qara çarşablar keçirilir; dikdaban geyinən müsəlman qadınları küçənin ortasında itələyərək yerə yıxır və ayaqlarındakı ayaqqabı və çəkmələr zorla çıxardılıb ayaqlarına çarıq keçirilir, mane olmaq istəyənlər də küçənin ortasında döyülürdü. Hökumət işçiləri hadisələrə görə din-məzhəb işlərinə qarışmadıqlarını deyərək məsələyə biganə yanaşırdılar. İki qızını bu məktəbə göndərərək Tağıyevə dəstək verən Molla Ruhullah evində namaz qılarkən öldürüldü.[110]

### Məktəbə getməyə şagird tapılmadı

Məktəb binasının inşası 183533 manata başa gəldi. Burada 35 kasıb şagird pulsuz oxuyacaq və yataqxanada qalacaqdı. 15 şagird də illik 100 manat ödəyəcəkdi.[111]1901-ci ilin sentyabr ayında hər şey hazır olmasına baxmayaraq, kifayət qədər şagird müraciət etmədiyinə görə məktəb açılmadı. Bundan sonra Tağıyev xalqı Təzəpir məscidinə yığaraq onlardan qızlarını məktəbə göndərmələrini istədi. Eyni zamanda Zərdabinin də içində olduğu yaxın adamlarını digər

108. M. Süleymanov, eyni adlı əsər, səh. 14.
109. M. İsmayılov-M. İbrahimov, eyni adlı əsər, səh. 24.
110. M. Süleymanov, eyni adlı əsər, səh. 14
111. Ş. Mehdiyev, “Bir daha ilk qızlar məktəbi haqqında,” ədəbiyyat və incəsənət nömrəsi, 51 16 dekabr 1988, səh. 3.

şəhərlərə tələbə tapmaları üçün göndərdi. Məktəb bir ay gecikmə ilə 7 oktyabr 1901-ci ildə fəaliyyətə başladı.[112]

### Hər çətinliyə baxmayaraq qız məktəbi açıldı

Məktəbin açılışında şəhərin bütün tanınmış ictimai xadimləri və ziyalılar iştirak etdi. Bakı şəhər hakimi Lilibibov, General Amilahvari, General Ərəblinski, Admiral Fonark, Bakı Şəhər Qubernatoru Axund Əlizadə, məktəb müdirləri, xristian və müsəlman din xadimləri açılış tədbirində iştirak etdi.

Ziyalılardan Zərdabi, Əhməd Ağayev, Rza Vəkilov, Fətullabəy Rüstəmbəyov, Ədilxan Bakıxanov, Nəcəfbəy Vəzirov, Əlibəy Novruzov da açılışda iştirak etdi. Açılış tədbirinə bir çox bölgədən teleqramlar gəldi. Peterburqdan Senator Yankovski, Zaqafqaziyanın Şeyxülislamı Axundzadə, Zaqafqaziya müftüsü Qayıbov, Moskva müsəlmanları adından Molla Alimov, Baxçasaraydan (Krımdan) İsmailbəy Qaspiralı, Kazan müsəlmanları, Misir mədrəsələri müdiri təbrik teleqramı göndərənlərdən bir neçəsi idi. Həmçinin Orenburq, Ufa, Saratov, Kazan, Tehran, İsfahan, Şamaxı, Şəki və s. bir çox bölgədən gələn təbrik teleqramları açılışda oxundu.[113]

Bu ilk müsəlman qız məktəbinin müdirəsi Zərdabinin xanımı Hənifə Xanım Məlikova oldu. Hənifə Xanım 1837-ci ildən etibarən Bakı və Zərdabda müəlliməlik etmiş, bütün ömrünü təhsilə həsr etmişdi. Hənifə Xanımın Azərbaycan qadınları üzərində böyük təsiri var idi. Onun qızların təhsil alması üçün böyük həvəslə göstərdiyi maddi və mənəvi yardımlar əvəzsiz idi.[114] Məktəbin rus dili və riyaziyyat müəllimi Mariya Mustafayevna, Azərbaycan dili və din təhsili müəlliməsi Hafiz Məhəmməd Əmin Əfəndi qızı Əsma xanım idi.[115] Bu

---

112. M. İsmayılov-M. İbrahimov, eyni adlı əsər, səh. 26-27; H. Əhmədov, eyni adlı əsər, səh. 221. Başqa bir qız məktəbi yalnız 1909-cu ildə Gəncədə Əsgərağa Adıgözəlov adına iki sinifli olaraq açılmışdı. S. Şükürov, Gəncə məktəblərinin tarixindən, Maarif nəşriyyatı, Bakı 1990, səh. 42-43.
113. Ş. Mehdiyev, adı keçən mənbə, səh. 3.
114. Azərbaycanda xalq maarifinin inkişaf yolu, səh. 125.
115. H. Əhmədov, eyni adlı əsər, səh. 220

müəllimlərdən başqa türk dilini bilən müəllimlərə də ehtiyac var idi. Tağıyev mərkəzi şəhərlərdə çıxan qəzetlərə elan verdi və müsəlman müəllimələri Bakıya dəvət etdi. Bu dəvətə tatar Rəhilə xanım Terequlova və Litvada yaşayan tatar Məryəm xanım müsbət cavab verərək Bakıya gəldilər.[116]

Birinci il 50 şagirdə təhsil verilməsi nəzərdə tutulsa da, bu say sonradan 58 nəfərə qaldırıldı. Şagirdlərin böyük əksəriyyəti Bakı Aleksandrovski Qız Məktəbinin imkansız şagirdlərinə Yardım Cəmiyyətinin himayəsində təhsil almaq üçün məktəbə gələn qız uşaqlarından ibarət idi. Cəmiyyətin nizamnaməsinə əsasən bu uşaqların təhsil xərclərini, yataqxana xərclərini, Xalq Maarif Nazirliyinin və Ruhani İdarəsinin təsdiq etdiyi dərs kitablarının, o cümlədən digər tədris materiallarının təminini, şagirdlərə geyim, yemək və digər xərcləri, hətta zərurət halında cib xərcliyi verməyi öz üzərinə götürürdü.[117] 1902-ci ildə şagirdlərin sayı 71-ə çatdı. Qız məktəbində təhsil müddəti 1903-cü ildə beş ilə, daha sonra altı ilə qaldırıldı.[118]

Məktəbin binası çox gözəl idi.[119] Birinci mərtəbədə dərsliklər, qəbul otağı, kitabxana və oxu zalı var idi. Yeməkxana, mətbəx, yataqxana, müdirənin və müəllimələrin otaqları, həkim otağı və məscid ikinci mərtəbədə idi. Hamam, çamaşırxana və anbar üçün ikinci bir bina inşa edilmişdi.[120]

Məktəbdəki uşaqların çoxu səkkiz-doqquz yaşlarında idilər. Şagirdlər Qafqazın hər bölgəsindən, əksəriyyət etibarilə Şuşa və Tiflis şəhərlərindən gəlmişdilər. Məktəbdə cəmi

---

116. Daha sonra məktəbə Ədilə Xanım Şahtaxtinskaya, Minə Xanım Aslanova, Səkinə Xanım Axundzadə, Gülbahar Xanım Fəxriyeva, Şəhrəbanu Xanım Şabanova, Şəfiqə Xanım Əfəndizadə, Gövhər Xanım Tağıyeva, Nabat Xanım Nərimanovanın təhsil sahəsində dəstəkləri (yardımları) olmuşdur. M. İsmayıl-M. İbrahimov, eyni adlı əsər, səh. 27.

117. Fərhad Cabbarov, H. Z. Tağıyevin qız məktəbinin tarixindən, Ziya, Bakı 2011, səh. 108

118. M. İsmayılov-M. İbrahimov, eyni adlı əsər, səh. 35.

119. 7 dekabr 1918-ci il tarixində Azərbaycan Parlamenti ilk toplantısını bu binada keçirdi. Q. İlkin, Bakı və Bakılılar, səh. 372.

120. Bu məktəbin binası hal-hazırda Azərbaycan Milli Elmlər Akademiyasının Əlyazmalar İnstitutu kimi fəaliyyət göstərir.

8 nəfər  işçi var idi və bunların hamısı qadın idi. Məktəb son dərəcə nizam-intizamlı idi və şagirdlər vahid forma geyinirdilər.[121] Yay və qış məktəbli formaları ayrı idi. Xüsusi günlər üçün də mərasim geyimləri var idi. Formalar məktəb binasında xüsusi yer ayrılan və iki qadın dərzinin işlədiyi dərzixanada tikilirdi.[122] Şagirdlər mütəmadi olaraq həkim nəzarətində saxlanılırdı. Hətta zəif uşaqlara yeməkdən əvvəl balıq yağı içirilərək güvvətlənməsinə çalışılırdı. Binaya şagirdlərin ən yaxınları olsa belə, buraxılmırdı. Şagirdlərə həftədə bir gün evə getməyə icazə verilirdi.

Yuxarı sinifdə oxuyan şagirdlər klassiklərlə tanış olmaları üçün faytonlarda teatra aparılırdı. "Yevgeni Onegin", "Demon", "Otello", "Razboyniki" və s. tamaşaları seyr edirdilər. Sonra onlardan seyr etdikləri tamaşanın xülasəsini yazmaları tələb edilirdi. Məktəbdə xor, dram, ədəbiyyat və rəqs klubları var idi. Cümə günləri dram klubunun tamaşası olur, pyeslər səhnəyə qoyulurdu. Tağıyevin xanımı Sona xanım tez-tez məktəbi ziyarət edir, hər dəfəsində qızlara meyvə və şirniyyatlar verilirdi. Hərdən Tağıyev də məktəbi ziyarət edir, dərslərdə iştirak edirdi. Şagirdlərə: "Qızlarım, balalarım, gözəl oxuyun, çalışın. Səadət oxumaqdadır. Elm ən böyük sərvətdir", - deyə nəsihət edərdi.[123]

Məktəbin kitabxanası, o dövrün şərtləri nəzərə alındıqda, çox zəngin idi. Kitabxanada Nizami, Puşkin, Şiller, Molyer, Seyyid Əzim, Tofiq Fikrət və Namiq Kamalın əsərləri var idi. Bunun xaricində kitabxanada bir çox elmi əsər və müxtəlif jurnallar mövcud idi. Həmçinin məktəbdə teatr, ədəbiyyat, rəqs, əl işləri kimi klublar qurulmuşdu.[124]

Bu məktəbdə təhsil alan şagirdlər sosial sahələrdə Sona xanımın rəhbərliyində uğurlu fəaliyyət göstərirdilər. Xüsusən teatr və əl işləri sahəsində ustalaşmışdılar. Tağıyev məzunlara müxtəlif hədiyyələrlə yanaşı, Azərbaycan türkcəsinə tərcümə

121. M. İsmayılov-M. İbrahimov, eyni adlı əsər, səh. 27.
122. Bəşiroğlu, eyni adlı əsər, səh. 60
123. Bəşiroğlu, eyni adlı əsər, səh 61.
124. M. Süleymanov, eyni adlı əsər, səh. 24-26.

edilmiş Qurani-Kərim, Sədi, Tolstoy, Puşkin, Qoqol və Lermontovun əsərlərini verirdi.[125] Sona xanım Axunzadə, Ümmünisə Musabəyova, Doktor S. Axundova, İ. Məcidova, D. Səfərova, A. Sultanova, İ. Alıyeva və F. Məlikova bu məktəbin mühüm məzunlarındandır.[126] Bunların xaricində Şəfiqə xanım Əfəndizadə, Rəhilə xanım Hacıbabayeva, Sara xanım Vəzirova, Gövhər xanım Qazıyeva, Hədiyyə xanım Məhəmmədzadə, Nazlı xanım Tahirova, Xədicə xanım Ağayeva, Nabat və Qumru Nərimanovalar kimi tanınmış türk qadın müəllimələri bu məktəbdən məzun oldular.[127]

Tağıyev 1913-cü ildə bu məktəbi müəllim məktəbinə çevirmək istədi. Buna görə yüz min manat sərmayə qoydu. Buradan məzun olan müəllimələr Rus-Tatar məktəblərində də işləyəcəkdilər. Hazırlıqlar bitənə qədər iki illik pedaqoji kurs təşkil edildi. Bu kursda islami elmlərlə yanaşı, rus dili, riyaziyyat, Azərbaycan türkcəsi, pedaqoqika, təbiət elmləri, fizika, coğrafiya, nitq mədəniyyəti, əl və ev işlərinə aid dərslər var idi. Müsəlman qız məktəbi dövrünün qarışıqlıqlarına görə 1918-ci ildə bağlandı.

### *Mərdəkan bağçılıq məktəbinin açılması*

XIX əsrin sonlarında Azərbaycanda klassik təhsil verən məktəblərin xaricində müxtəlif sahələrdə ixtisaslaşmış kadrların yetişdirilməsi məqsədilə peşə məktəbləri də açıldı. Belə məktəblərdən biri Mərdəkanda Tağıyev tərəfindən açılan bağçılıq məktəbi idi. 27 oktyabr 1896-cı[128] ildə təhsil verməyə başlayan bu məktəbdə elmi metodlarla necə bağçılıq ediləcəyi öyrədilirdi. 10 hektar təcrübə sahəsi olan bu məktəbin təhsil müddəti beş il idi.[129] Bağçılıq məktəbinin binasını və

125. M. Süleymanov, eyni adlı əsər, səh. 22.

126. M. İsmayılov-M. İbrahimov eyni adlı əsər, səh. 35. S. Gəncəli, İşıqlı ömürlər kövrək talelər, Bakı 1991, səh. 6.

127. S. Gəncəli, İşıqlı ömürlər kövrək talelər, Bakı 1991, səh. 6.

128. Məktəbin açılış tarixi, H. Əhmədovun kitabında 1896, Nəriman Nərimanovun, M. İsmayılov, M. İbrahimovun və M. Süleymanovun kitablarında 1895-ci il olaraq verilmişdir.

129. H. Əhmədov, eyni adlı əsər, səh. 157-158.

təcrübə sahəsinin nizamlanmasını Bakının baş memarı Qoslavski etdi. Məktəbin qurulduğu ərazi daşlıq və qeyri-məhsuldar bir yer idi. Bu bölgəni tanıyanlar burada bağ olmayacağını düşünürdülər.

Tağıyev buraya münbit torpaq gətirdərək ağac əkdirdi və uzun bir zəhmətdən sonra burada bağ salmağı bacardı. Həmçinin Suraxanıya qədər gələn yolu Mərdəkana qədər uzatdırdı.[130]

### Yetim uşaqlara peşə öyrədildi

Bu bölgədə yaşayan yetim türk uşaqların bağçılıq ixtisasına yiyələnmələrinə şərait yaratdı. Məktəbə böyük rəğbət oldu və birinci il 50 şagird qəbul edildi.[131]Tağıyev məktəb binası üçün 31240 manat xərclədi və illik xərcləri üçün 5000 manat ayırdı.[132] Elmi əsaslarla bağbanlıq peşəsini öyrənən bu yetim tələbələr məktəbdə qalırdılar və yalnız cümə günləri evlərinə göndərilirdilər.[133] Mərdəkanın xaricində Qala, Bilgəh, Şağan kəndlərindən də bu məktəbə tələbə qəbul edildi.[134] Bağçılıqla bağlı dərslər və təcrübələrlə yanaşı proqrama Azərbaycan türkcəsi, rus dili, riyaziyyat və xəttatlıq dərsləri də salınmışdı. Mərdəkan Bağçılıq Məktəbinin Azərbaycanda bağçılığın elmi metodlarla inkişafında və təkmilləşməsində mühüm təsiri oldu.[135]

### *Türk gəncləri təhsil almaları üçün xarici ölkələrə göndərdi*

Tağıyev qabiliyyətli və ağıllı türk gəncləri təhsil almaq məqsədilə xarici ölkələrə göndərdi və onların bütün ehtiyaclarını özü qarşıladı.[136] 10 gənci İngiltərəyə, 23 gənci İtaliyaya,

---

130. M. Süleymanov, eyni adlı əsər, səh. 11-12.
131. Sərvət və səxavətdə məşhur Hacı Zeynalabdin Tağıyevin tərcümeyi-halı, səh. 15.
132. Nəriman Nərimanov, eyni adlı əsər, səh. 26.
133. Bu məktəbin binası hal-hazırda da 123 nömrəli məktəb kimi fəaliyyət göstərir.
134. M. İsmayılov-M. İbrahimov, eyni adlı əsər səh. 37.
135. H. Əhmədov, eyni adlı əsər, səh. 158.
136. Tağıyev Azərbaycanın siyasi və mədəni təsiri olan bir çox gənci təhsil almaq üçün xaricə göndərdi. Onlardan bəziləri, Əlimərdanbəy Topçubaşov, Nəsibbəy Yusifbəyli,

45 gənci Fransaya göndərən Tağıyev, Türkiyəyə 9, Almaniya və Rusiyaya da 13 gənci təhsil almaq üçün göndərdi.[137] Tağıyev hər il təqribən 10 nəfəri xarici ölkələrə ali təhsil almaq üçün göndərir və bu tələbələr üçün min manatdan artıq pul xərcləyirdi.[138]Təhsil almaq üçün göndərilən bu gənclərin gələcəyin güclü kadrları olacağına ümid edirdi. Onun yardım etdiyi gənclər arasında Nəriman Nərimanov, Əlimərdan Topçubaşov, Qarabəy Qarabəyli, Behbudağa Cavanşir, Lütfəli Behbudov, Nəsibbəy Yusifbəyli, Mirzə Davud Hüseyinov, Mir Həsən Vəzirov, Xudatbəy Məlikaslanov, Şövkət Məmmədova, Ruhulla Axundov və s. bir çox tanınmış şəxsiyyətlər var idi.[139]

Tağıyev bir yandan da yetim uşaqlara təhsil verilməsinə xüsusi əhəmiyyət verirdi. Onları öz himayəsinə götürərək oxudur və özü şəxsən onların tərbiyəsi ilə maraqlanırdı. Həmçinin illik ehtiyacları üçün üç min manat, oxuduqları məktəblərə də hər il iki min manat yardım edirdi.[140]

### ***Rus və gürcü məktəblərinə maddi dəstək göstərdi***

Tağıyevin təhsil fəaliyyəti yalnız açdığı qız məktəbi və bağçılıq məktəbi ilə bitmirdi. Bir çox məktəbə maddi yardım xaricində türk gənclərin, xüsusilə də yetim və istedadlı tələbələrin yaxşı təhsil almaları üçün maddi və mənəvi yardımlar edirdi. 1888-ci ildə Bakıda açılan orta texniki məktəbin 1897-ci ildə fəxri himayədarı seçildi. Tağıyev bu məktəbə hər il maddi yardım göstərməklə yanaşı, kimya laboratoriyasının qurulmasını şəxsən özü maliyyələşdirdi.[141]

---

Fətəli Xan Xoyski, Aslanbəy Səfikürdski, Xəlilbəy Xasməmmədov, İsmayılbəy Ziyadxanov, Nəriman Nərimanov, Həsənbəy Ağayev, Sultan Məcid Qənizadə, Abdulla Şaiq, Hənifə Xanım Məlikova, Şərifə Xanım Əfəndiyevadır. Q. İlkin Bakı və Bakılılar, səh. 280

137. N. Keykurun, eyni adlı əsər, səh. 40
138. M. Süleymanov, Neft Milyonçusu, səh. 132.
139. Bəşiroğlu, eyni adlı əsər, səh. 24
140. Nəriman Nərimanov, eyni adlı əsər, səh.25-26
141. M. İsmayılov-M. İbrahimov, eyni adlı əsər, səh. 36

Tağıyev 1900-cü ildə açılan Bakı Kommersiya (Ticarət) Məktəbinin inşası üçün ərazi bağışladı və məktəbin inşasına 50 min manat yardım etdi.[142] Bakıda Müqəddəs Nina Qız Məktəbinə 564 manat, erməni yetimlər üçün açılan yetimxanaya üç min manat yardım etdi. 1910-cu ildə bu məktəbin fəxri himayədarı seçildi. Tağıyev Bakının II Realnı (peşə) Məktəbinə 30 min manat verərək bu məktəbdə türk şagirdlər üçün sinif açdırdı. Çerniqov şəhərinin Qafqaz Təhsil İdarəsinin müdiri K. P. Yanovskinin adına inşa edilən məktəbə 1000 manat göndərdi. 1896-cı ildə Gəncədə inşa edilən Üsuli-Cədid Məktəbinə 1000 manat, 1913-cü ildə isə əlavə olaraq yenə 1000 manat verdi. Tağıyev 1906-cı ildə Tiflisdə açılan bir qız məktəbinə 25 min manat sərmayə qoydu. Bu pulun faizi ilə məktəbin illik ehtiyacları qarşılanırdı. 1919-cu ildə Bakı Dövlət Universitetinin açılması üçün danışıqlar aparan Məclis sərdinin müavini M. Qəniyev və Professor Lopatinski Tağıyevə müraciət edərək universitetin açılması üçün tələb olunan maddi yardımı aldılar.[143] Universitetin açılışına dəvət edilən Tağıyev buradakı çıxışında özünə aid olan "Hacı Zeynalabdin Pasajı"nı universitetə bağışladığını bəyan etdi.[144]

### Tağıyevin mədəniyyət sahəsinə göstərdiyi maddi yardımlar

#### *Nəşriyyat və mətbuat sahəsinə göstərdiyi maddi dəstək*

Tağıyev təhsil sahəsinə göstərdiyi bu qədər böyük məbləğlərlə kifayətlənməyib, mədəniyyət sahəsində də ziyalıların ona etdiyi müraciətləri geri çevirmədi. Tağıyev özü təhsil ala bilməmişdi. Lakin elmə çox böyük əhəmiyyət verən bir şəxsiyyət idi. Lazımi informasiyanı, ən başlıcası da ticarət sahəsinə dair mühüm əhəmiyyət kəsb edən gündəlik məlumatları əldə etmək üçün Tağıyev qəzet və jurnallara mütəmadi olaraq

142. Sərvət və Səxavətdə Məşhur..., səh. 20
143. M. İsmayılov-M. İbrahimov, eyni adlı əsər, səh. 37-39.
144. N. Keykurun, eyni adlı əsər, səh. 186-187.

müraciət edirdi. Məsləhətçilərinə hər gün Azərbaycan, Rus, Osmanlı, İran qəzet və jurnallarını nizamlı şəkildə oxutdururdu. Azərbaycan, Rusiya və Qərbin iqtisadi-siyasi həyatını izləməyə çalışırdı.

Xalqın maariflənməsi üçün böyük əhəmiyyət kəsb edən qəzet, jurnal və kitab nəşri sayəsində fəaliyyət göstərən ziyalılar bu istiqamətdəki tələblərini Tağıyevə həmişə rahat şəkildə çatdıra bilirdilər. Hər dəfəsində də onun yanından razı şəkildə ayrılırdılar. Çünki Tağıyev təhsilin yalnız məktəbdə olmadığının fərqində idi. Keyfiyyətli təhsil ala bilməyən zəmanənin gənclərinin də eynilə uşaqlar kimi təhsil almağa ehtiyacları var idi. Lakin artıq bu təhsil məktəbdə deyil, kənarda həyata keçiriləcəkdi. Buna görə ən təsirli vasitələr kütləvi informasiya vasitələri idi. Əslində ucuz və asanlıqla əldə edilməli olan bu vasitələr, Azərbaycanda heç də ürəkaçan vəziyyətdə deyildi. Kitab, qəzet və jurnallar istər Çar hökumətinin, istərsə də mühafizəkar təbəqənin mövqeyinə səbəbilə fərqlilik və mündəricat baxımından zəngin deyildi.

### Nəşr edilməsini maliyyələşdirdiyi kitablar

XIX əsrin ortalarında Bakıda üç, Şamaxıda isə iki mətbəə var idi və bunların böyük hissəsi dini müəssisələrin nüfuzu altında idi. 1884-cü ildə Bakıda beş, Gəncədə isə üç mətbəə fəaliyyət göstərirdi. Bunların bir hissəsi xüsusi şəxslərə (fərdi sahibkarlara) aid mətbəələr idi. Bu dövrdə nəşr edilən əsərlərin əksəriyyətini dini kitablar təşkil edirdi. XIX əsrin sonlarına doğru ədəbi, sosial sahəyə aid mövzularda kitablar, şeir kitabları, dərsliklər və rus dilindən tərcümə edilmiş əsərlər də nəşr edilməyə başladı.[145]

Tağıyev Molla Abdussalam Axunzadənin "Tarixi-Müqəddəs", Sultan Qəniyevin "Şərabçı və Allah Divanı", Seyyid Əzim Şirvaninin "Əşarı", N. Nərimanovun "Nadir Şah"[146] əsərləri-

145. H. Həsənov, Azərbaycan kitabının inkişaf mərhələləri, Bakı 1989, səh. 36-37.
146. Bu əsər Tağıyev tərəfindən fars dilinə tərcümə etdirilib nəşr edildi.

ni çap etdirdi.[147] Tağıyev bütün xərclərini özü ödəyərək Molla Abdussalam Axundzadənin "Nəhyi-Muskirat", Mirzə Həsən əl-Qadari əd-Dağıstaninin "Əsari-Dağıstan", Axund Yusif Talıbzadənin "Türk Dilinin Sərf-Nəhvində Təhsilul-Qavaid" kitabçası, "Tərbiyəti-Nisvan", "Hədiyeyi-Nisvan", Mirzə İlyas Bəyin "Mükalimə", Məhəmməd İmayıl Bəyin "Qəbir-Nəbir", Seyyid Əzim Şirvaninin "Pənd və Nəsihət", "Şirvani Qəzəliyyatı" kitablarını nəşr etdirdi.[148] Həmçinin Tağıyev Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edən və böyük bir xidmət olan Qurani-Kərimi Axund Məhəmməd Kərim Ağaya Azərbaycan türkcəsinə tərcümə etdirərək çap etdirdi və pulsuz paylanılmasını təmin etdi.[149]

Tağıyevə məxsus olan Kaspi mətbəəsində Molla Pənah Vaqifin şeirləri, S. Qənizadənin və Ə. Cəfərzadənin "Qıfıllı Ədəbiyyat", M. Mahmudbəyovun və A. Səhhətin "Yeni Məktəb" Abdulla Şaiqin "Yaxşı Arxa", "Tıq-tıq Xanım", "Tülkü və Xoruz" əsərlərini nəşr etdirdi.[150] Tağıyev ərəb, fars və rus dilindən bir çox kitabı Azərbaycan türkcəsinə tərcümə etdirdi. Corci Zeydanın "Armatusatul Misir", "Kərbəla Həsrəti", "On Yeddi Ramazan" adlı əsərlərini Qazi Mirməhəmməd Kərimə tərcümə etdirdi və nəşr etdirdi.[151] Kitab nəşri ilə yanaşı qəzet və jurnal nəşrlərinə də lazımi maddi dəstək göstərdi.

### Sahibi olduğu qəzetlər

Azərbaycan türklərinin milli, mədəni və əqli oyanışında ən böyük xidməti qəzet və jurnallar göstərdi. Qəzet və jurnallar Azərbaycanda ədəbiyyat və sənətin inkişaf etməsində mühüm rol oynayaraq Azərbaycan türkcəsini fars dilinin təsirindən qurtarıb sadə və başa düşülən bir dilin yaranmasına kömək etdi.[152] Qəzetlər Çar Rusiyasının hakimiyyəti altındakı

147. N. Nərimanov, eyni adlı əsər, səh. 33.
148. Sərvət və Səxavətdə məşhur..., səh. 19
149. M. İbrahim-M.İsmayılov, eyni adlı əsər, səh. 47.
150. H. Həsənov, eyni adlı əsər, səh. 48-49.
151. M. Süleymanov, eyni adlı əsər, səh. 133.
152. A. Bennigsen-L. C. Quelquejay, Stepdə Azan səsləri (mütərcim N. Uzel), İrfan Mətbəəsi, İstanbul 1994, səh. 73.

türk bölgələrində digər bölgələrlə müqayisədə daha gec nəşr edilirdi. Buna səbəb Çar hökumətinin türk dilində nəşrlərə icazə verməyərək göstərdiyi təzyiq idi. Azərbaycanda azad və milli mətbuatın fəaliyyəti yalnız 1905-ci ildən sonra başladı. Çar Rusiyasının siyasi təzyiqi altında baş verən 1905-ci il inqilabına qədər bütövlükdə Rusiyada türk dilində yalnız 12 qəzet və jurnal nəşr edilə bildi. Bunlardan altısı Azərbaycan türkləri tərəfindən nəşr edildi. 1905-ci ildən əvvəl Azərbaycan türkləri xaricində digər türk boylarına mənsub insanlar tərəfindən isə Rusiyada Tüküstan Vilayətinin Qəzeti, Daşkənd 1870; Tonguç, Bağçasaray 1881; Tərcüman, Baxçasaray 1883; Dala Vilayəti, Omsk 1888; Mirat, Peterburq 1902; Nur, Peterburq 1904 nəşr edilmişdir.[153]

Azərbaycanda ilk dəfə Azərbaycan dilində qəzet çıxaran Həsən Məlikzadə Zərdabi oldu. Zərdabi 1875-ci ildə İstanbuldan satın aldığı mətbəə hərfləri ilə **"Əkinçi"** qəzetini nəşr etdirdi. 1877-ci ilə qədər 56 sayı çıxan "Əkinçi", Azərbaycan mətbuatı arasında mühüm yer tuturdu.[154] Zərdabi yazılarında ilk dəfə hürriyyət, demokratiya və qadın haqları kimi məsələlərə toxunmuşdu. "Əkinçi" bir neçə dəfə Çar hökuməti tərəfindən bağlandıqdan sonra 1877-1878-ci il Osmanlı-Rus müharibəsində Osmanlının lehinə xəbərlər nəşr etdiyinə görə tamamilə bağladıldı.[155]

Tağıyev 1870-ci ildə 57000 manata satın aldığı və rus dilində nəşr olunan **Kaspi** qəzetinin sahibi idi.[156] Rus dilində çıxan bu qəzetə Tağıyev "Çıraq" adlı türk dilində bir səhifə əlavə etməyi düşündü, lakin Çar Rusiyası tərəfindən buna icazə verilmədi.[157] Kaspinin, 1919-cu ilin mart ayına qədər

---

153. İ. Yüksəl, Azərbaycanda fikir həyatı və mətbuat, Acar nəşriyyatı, İstanbul 1988, səh. 92-93.
154. N. Dövlət, eyni adlı əsər, səh. 22; H. Həsənov eyni adlı əsər, səh. 39-40; S. A. Zenkovski, eyni adlı əsər, səh.82
155. Y. Akpınar, Azərbaycan ədəbiyyatı araşdırmaları, İstanbul 1996, səh. 90
156. N. Dövlət, eyni adlı əsər, səh. 206; H. Həsənov, eyni adlı əsər, səh. 4; N. Nərimanov, eyni adlı əsər, səh. 34; Sərvət və Səxavətdə məşhur..., səh. 18.
157. H. Baykara "1905 və 1917-il Rus inqlabları arasında Azərbaycanda mətbuat", TK, nömrə 18, 1964, səh. 114.

1065 sayı çapdan çıxdı. İlk 28 sayı həftədə iki dəfə, 1881-ci ildən sonra həftədə üç dəfə, 1884-cü ildən sonra isə gündəlik nəşr edildi. 1895-ci ilə qədər qəzetin redaktorluğunu Sokolov (Sokolonski) etdi. Bu tarixdən etibarən isə Əlimərdan Topçubaşov[158] bu vəzifəni icra etdi. Qəzetdə Zərdabi və Əlibəy Hüseyinzadənin[159] də mühüm vəzifələri var idi. Kaspidə Cəlil Məmmədquluzadə, M. Mahmudbəyov, Firidun bəy Köçərli, M. A. Şahtaxtlının məqalələri də nəşr edildi. Xüsusilə təhsil və qadın haqları kimi mövzulara diqqət yetirən qəzet adətən bu mövzuda qələmə alınan məqalələri nəşr edirdi.[160] Kaspi qəzeti xüsusən 1905-ci ilə qədər Azərbaycan və Zaqafqaziyadakı yeniləşmə hərəkatlarını, düşüncə axınlarını, hürriyyət və demokratiya mübarizəsini təmsil etmək baxımından böyük bir dəyərə sahib idi. Türk dilində çap edilməsə də, Kaspi Azərbaycanın milli qəzeti olmaq xüsusiyyətini 1905-ci ildən sonra da itirmədi.[161]1918-ci ildə meydana gələn türk-erməni

158. Əlimərdan bəy Topçubaşov (1862-1934): Tiflis şəhərində anadan olmuşdur. Peterburq Universitetində hüquq təhsili aldı. Tiflisdə beş il hakimlik etdikdən sonra Bakıya gəlib Zərdabinin qızı Pəri Xanımla evləndi. Kaspi qəzetinin rəhbəri oldu. Rusiya müsəlmanları konqreslərində iştirak etdi. 1906-cı ildə Dumaya Bakı Millət Vəkili olaraq seçildi. 1917-ci ildə Qafqaz qurultayına rəhbərlik etdi. Elə həmin ildə Moskvada keçirilən Rusiya türkləri qurultayında iştirak etdi. 1918-ci ildə Azərbaycan Milli Parlamentinin Sədri seçildi. Azərbaycan Demokratik Cümhuriyyətini Paris konfransında təmsil etdi. 1934-cü ildə Parisdə vəfat etdi. Daha ətraflı məlumat üçün bax. “Əlimərdan Topçubaşı (Tərcümeyi-halı-1962-1934)”, K, nömrə 2, (dekabr 1934), səh. 47-52.

159. Əlibəy Hüseyinzadə (1864-1940): Bakının Salyan qəzasında anadan olan Hüseyinzadə Qafqazın Şeyxülislamı olan babası Şeyx Əhməd Səlyaninin yanında böyümüşdür. 1889-cu ildə Peterburq Təbiət Elmləri fakültəsini bitirdi. 1890-cı ildə İstanbula gələrək Hərbi Tibb Məktəbinə daxil oldu və məzun olduqdan sonra Heydər Paşa Hərbi Hospitalında işlədi. 1903-cü ildə Bakıya qayıdaraq “Həyat” qəzetinin baş redaktoru oldu. “Türkləşmək, İslamlaşmaq və Müasirləşmək” ideyasını yaymağa başladı. Türkçülük və Turançılıq mövzusunda bir çox məqalə yazdı. 1907-ci ildə Füyuzatın bağlanmasından sonra “Səadət” məktəbində müdirlik etdi. 1910-cu ildə İstanbula qayıdaraq “İttihad və Tərəqqi” Partiyasında fəal iştirak etdi. 1926-cı ildə Bakıda keçirilən I Türkologiya konqresində iştirak edən Hüseyinzadə İstanbulda pedaqoq və həkim kimi işlədi. 1940-cı ildə İstanbulda vəfat etdi və Qaraca Əhməd qəbiristanlığında dəfn edildi. Daha ətraflı məlumat üçün bax: A. H. Bayat, Hüseyinzadə Əlibəy, Ankara, 1998, səh. 9-33. A. Bennigsen- C. L. Quelquejay, L. İslam.., səh. 54; İ. Həbibbəyli, eyni adlı əsər, səh. 64-66.

160. “Kaspi” ASE, cild IV, (1981), səh. 290-291.

161. Y. Akpınar, eyni adlı əsər, səh. 92.

münaqişələri zamanı Kaspi mətbəəsi də yağmalandı və qəzet bağlandı.[162]

1905-ci ildə rusların yaponlara məğlub olmasından sonra Rusiyada inqlab başladı və Çar hökuməti meydana gələn hadisələr qarşısında məşrutə idarəçiliyini qəbul etmək məcburiyyətində qaldı. Bu hadisə bütün Rusiya türkləri arasında olduğu kimi Azərbaycanda da nisbi bir sərbəstlik meydana gətirdi. Bir çox sahədə olduğu kimi mətbuat sahəsində də nəzərə çarpacaq bir canlanma baş verdi. 1905-ci ildən sonra başda Tağıyev, M. Muxtarov və Aşurbəyli qardaşlar kimi zənginlərin yardım və himayələri ilə canlanan jurnalistika, Azərbaycan türklərinin düşüncə, milli və mədəni inkişafında mühüm rol oynadı.

Bu qəzetlərin ən əhəmiyyətlilərindən biri Tağıyevin sahibi olduğu **"Həyat"** qəzeti idi. Qəzetdə Ə.M. Topçubaşov, Ə. Hüseyinzadə, Əhməd Ağayev və Haşim Vəzirov kimi tanınmış ziyalılar işləyirdi. İlk sayında "İslamiyyətsiz qurtuluş ola bilməz" deyə nəşr edilən "Həyat" demokratik bir xarakterə sahib olub, qurtuluş düşüncəsini yayırdı.[163] Qəzetin yazarlarından İstanbulda təhsil almış Əlibəy Hüseyinzadənin istifadə etdiyi Osmanlı ləhcəsi bir çox ziyalı tərəfindən mənimsənildi. Həyat qəzeti istər redaksiya heyəti, istərsə də milli xarakteri ilə Azərbaycan türkləri arasında böyük rəğbət qazandı və 1906-cı ildə tirajı 2500-ə çatdı ki, bu say həmin dövrdə bir müsəlman mətbuat orqanı üçün böyük və mühüm bir rəqəm idi.[164] Həyat qəzetində N. Nərimanovun məqalələri, M. Ə. Sabirin şeirləri və Ə. Haqverdiyevin məqalələri də nəşr edilirdi.[165] 1905-ci ilin sonunda Ə. Topçubaşov ilə Ə. Ağayev arasında narazılıq yarandı. Ə. Ağayev Topçubaşovu qəzetin sahibi olan Tağıyevin qəzetin çap siyasətinə müdaxilə etməsinə göz yummaqla günahlandırdı və qəzetdən ayrıldı.[166]

---

162. İ. Yüksel, eyni adlı əsər, səh. 95-96.
163. N. Dövlət, eyni adlı əsər, səh. 296.
164. İ. Yüksəl, eyni adlı əsər, səh. 101.
165. M. İsmayıl-M. İbrahimov, eyni adlı əsər, səh. 108.
166. A. Ağayev, "Həyat"dan ayrıldıqdan sonra İsa Aşurbəylinin köməyi ilə öncə həftə-

Tağıyevin sahibi olduğu digər bir qəzet **Yeni Həyatdır**. 1907-ci ilin aprel ayından etibarən Həşim bəy Vəzirovun rəhbərliyində çıxan Yeni Həyat qəzeti milliyətçi, mühafizəkar, sosializmə müxalif, gündəlik ədəbi, elmi və siyasi bir qəzet idi. Qəzetin yazarları arasında Ağa Mirzəzadə Şirvani, Calal Yusifzadə, Fətəli İrani kimi yazarlar var idi. Qəzetdə Türkiyə, İran və Rusiya müsəlmanları ilə bağlı müxtəlif yazılar da nəşr edilirdi. Bir müddətdən sonra qəzetin tirajı düşməyə başladı və 440 nömrəsi çıxdıqdan sonra islamçılıq fikirlərini yaymaqla ittiham edilərək 1908-ci ilin oktyabr ayında mövcud rejim tərəfindən bağlanıldı.[167]

Tağıyev Həyat qəzetinin bağlanmasından sonra Əlibəy Hüseyinzadənin rəhbərliyində 1 noyabr 1906-cı ildə **Füyuzat** adlı bir jurnal çıxardı. Azərbaycan türkcəsində çıxan bu jurnal 1907-ci ilin noyabr ayına qədər cəmi 38 nömrəsi nəşr edildi. Aşkar şəkildə sosializmə qarşı çıxan Füyuzatda pantürkizm və panislamizm fikirləri ifadə edilirdi.[168]Əlibəy Hüseyinzadə məqalələri ilə türk ziyalılarını şüurlandırmağa çalışarkən sünnü-şiə ixtilafının aradan qalxması, Osmanlı-Türk mədəniyyətinin tanınması və sevilməsi üçün də yazılar qələmə alırdı. Hüseyinzadə ilə yanaşı Həsən Səbri Eyvazov, Əhməd Faiq, şair Məhəmməd Hadi Füyuzatın fikir və ədəbiyyat jurnalı olmasına kömək etdilər.[169] Jurnalda Tolstoyun və D. Mendeleyevin yazıları da nəşr edilirdi.[170] Füyuzat jurnalının tirajı 1500-ə qədər yüksəldi.[171]

### Bakıda ilk Türk teatr binasını inşa etdirdi

Azərbaycanda ilk teatr binasını inşa etdirən də Tağıyevdir. Bir gün Bakı Azəri Cəmiyyətindən bir qrup Tağıyevin yanına gələrək: "Rusların və ermənilərin teatr binası var, ancaq

lik, daha sonra gündəlik nəşr edilən "İrşad" qəzetini çıxardı. N. Dövlət, eyni adlı əsər, səh 296-297; H. Baykara, adı keçən mənbə, səh. 115.

167. "Azərbaycan mətbuatının müxtəsər xronologiyası", YK, nömrə 9, 1926, səh. 6.

168. "Füyuzat", ASE, IX cild, 1987, səh.18.

169. İ. Yüksəl, eyni adlı əsər, səh. 115-116.

170. M. İsmayıl- M. İbrahimov, eyni adlı əsər, səh. 108.

171. "Azərbaycan mətbuatının...", səh. 5.

bizim binamız yoxdur. Teatr binasını bizə kefləri istəyəndə verirlər, istəməyəndə vermirlər. Biz bu sahədə çox geri qalmışıq", - dedilər. Tağıyev dərhal rusların və ermənilərin teatr binasından daha böyük bir teatr binası tikmək üçün fəaliyyətə başladı. Bu binanı Bakı Azəri Cəmiyyətinə verdi.[172] Bina 1883-cü ildə inşa edildi və ilk tamaşa 27 oktyabr 1888-ci ildə səhnəyə qoyuldu.[173] Binanın inşasına yüz min manat[174] verən Tağıyev, 1900-cü ildə bu teatr binasına əlavə yüz min manat xərcləyərək təmir etdirib yeni düzəlişlər təklif etdi.[175] 1906-cı ilə qədər teatr izləmək üçün binaya buraxılmayan qadınlar üçün xüsusi lojalar düzəldildi və qadın tamaşaçıların istifadəsinə verildi. 1909-cu ildə yanan binada böyük təmir işləri aparıldı və 1910-cu ildə təntənəli bir mərasimlə yenidən xalqın istifadəsinə verildi. Tağıyevin adına Mirzə Ələkbər Sabir tərəfindən yazılıb Üzeyir Hacıbəyov tərəfindən bəstələnən marş bu mərasimdə çalındı.[176]Bu teatrda Cahangir Zeynalov, M. F. Axundov, N. Vəzirov, Ə. Haqverdiyev və N. Nərimanovun əsərləri ilə yanaşı, sonrakı illərdə Rusiyadakı və Avropadakı teatrlarda səhnəyə qoyulan pyeslər də böyük müvəffəqiyyətlə səhnələşdirildi.[177]

Tağıyev qurduğu teatrdakı aktyorların yetişməsi üçün hər cür maddi dəstəyi əsirgəmədi.[178] Azərbaycanda teatrın başlamasına və inkişafına səbəb olan bu xidmət Hüseynqulu Sarabski, Hüseyin Ərəblinski, Sidqi Ruhullah kimi peşəkar aktyorların[179] yetişməsinə vəsilə oldu. 1910-cu ildə təntənəli açılışdan sonra teatrda "Qaçaqlar" və "Ər-arvad" tamaşaları səhnəyə qoyuldu. 1918-ci ildə mart qırğınları zamanı yandırılan teatr binası Sovet hakimiyyəti dövründə Dadaş Bünyadza-

172. S. Özdaş "Dədəm Hacı Zeynalabdin Tağıyev və ya Tağızadə", GA, nömrə 3, aprel 1997, səh. 7.
173. M. İsmayıl-M. İbrahimov, eyni adlı əsər, səh. 41.
174. Sərvət və səxavətdə...., səh. 18.
175. N. Nərimanov, eyni adlı əsər, səh.35.
176. M. Süleymanov, eyni adlı əsər, səh.12.
177. Azərbaycan Tarixi, Bakı 1994, səh. 620.
178. A.L. Altstadt, The Azerbaijanı Turks, səh. 34.
179. Tağıyev bir çox gənclə bərabər Fatimə Muxtarovanı İtaliyaya, Şövkət Məmmədovanı da Parisə göndərmişdi. S. Özdaş, adı keçən mənbə, səh. 7.

dənin səyləri ilə yenidən təmir edildi və Tağıyev açılışa dəvət edildi. S. Ruhullah, H. Sarabski, M. Əliyev Mərdəkana gedib Tağıyevi açılışa gətirdilər. Tağıyev və həyat yoldaşı Sona Xanım lojada ayrılan yerlərinə keçmədən teatr binasının girişində xalq tərəfindən "Hacı sağ ol! Hacı var ol!" nidaları ilə alqışlanaraq qarşılandılar. Gözləri dolan Tağıyev burada "Çox xoşbəxtəm, çünki mənim tikdirdiyim teatr binasını xalq yenidən təmir etdirdi", - deyərək hisslərini ifadə etdi.[180]

## Şəhərsalma və sosial fəaliyyətlərə dair sahələrə göstərdiyi maddi yardımlar

### *Xeyriyyə cəmiyyətlərinin qurulmasındakı rolu*

1905-ci il inqilabından sonra Azərbaycanda artan kütləvi informasiya vasitələri və mədəniyyət xidmətləri ilə yanaşı, təhsil və sosial sahələrdə də inkişaf nəzərə çarpmağa başladı. Bu inkişafın öndərləri Azərbaycan ziyalıları və onları dəstəkləyən türk zənginlər idi.

Azərbaycanda təhsilin inkişafı, xalqın maddi vəziyyətinin yaxşılaşdırılması və mədəni səviyyəsinin inkişaf etdirilməsi üçün bir çox xeyriyyə cəmiyyətləri quruldu. Bunlardan biri Tağıyevin sədri olduğu **Müsəlman Xeyriyyə Cəmiyyəti** idi. Katibliyinə Əhmədbəy Ağaoğlunun seçildiyi cəmiyyətin üzvləri arasında M. Əsədullayev, Ağabala Quliyev, İsabəy Hacınski, Kamilbəy Səfərəliyev, İsrafil Hacıyev, Əlibəy Hüseyinzadə, Həsənbəy Zərdabi, Əlimərdan Topçubaşov, Hacı Aslan Aşurov, Əbdülxaliq Axundov, Məhəmməd Rza Vəkilov kimi türk zənginlər və ziyalılar var idi. Müsəlman Xeyriyyə Cəmiyyətinin məqsədi kasıb müsəlmanları himayə etmək və imkansız uşaqları sənət və peşə məktəblərində pulsuz oxutmaq idi. Tağıyev qəzetlər vasitəsilə elan verərək Qafqazdakı türklərdən orta təhsili bitirib ali təhsil almaq üçün maddi imkanı olmayanlara yardım edəcəyini bəyan etdi.[181] Bir çox

180. M. İsmayıl-M. İbrahimov, eyni adlı əsər, səh. 41-42; M. Süleymanov, Neft Milyonçusu, səh.91.
181. Bu elanlarda; 1-Hər tələbəyə təhsili davam etdiyi müddət ərzində 50 rubl ver-

gənc bu yolla ali təhsil almaq imkanı əldə etdi. Birinci dünya müharibəsi vaxtı çox fəal olan Cəmiyyət qaçqınlara yardım edərək onların bütün ehtiyaclarını qarşıladı. Həmçinin Nargin adasında həbsdə olan türk əsgərlərinə yemək və geyim yardımı göstərdi.[182].

Tağıyev Peterburqda inşa edilən Müsəlman Xeyriyyə Cəmiyyətinin binasının inşası üçün pul göndərdi.[183]Peterburqdakı Müsəlman Xeyriyyə Cəmiyyətinin üzvləri məktəb açmaq və yoxsul müsəlmanlara yardım etmək üçün Tağıyevdən kömək istəmişdilər. Tağıyev Peterburq müsəlmanlarına on bir min manat göndərdi.[184] 1918-ci ildə Bakıda çıxan çaxnaşmalarda Müsəlman Xeyriyyə Cəmiyyətinin binası yandırıldı.[185]

Bakıda qurulmuş digər xeyriyyə cəmiyyəti də **Nəşri Maarif Cəmiyyətidir**. 1 avqust 1906-cı ildə nizamnaməsi təsdiq edilən cəmiyyətin sədri Tağıyev, katibi isə Ə. İ. Cəfərov idi. Cəmiyyətin məqsədi; Bakıdakı müsəlmanların təhsil almasına kömək etmək, məktəblərə yardım etmək, yeni məktəb, kitabxana, qiraətxana açmaq, müəllim yetişdirmək, yoxsul və yetim uşaqları oxutmaq idi.[186] Cəmiyyətin bir məqsədi də neft sahəsində işləyən fəhlələrə təhsil verilməsi idi. Cəmiyyət üzvləri arasında N. Nərimanov, M. Əzizbəyov, H. Zərdabi kimi türk ziyalılar var idi.[187]

Nəşri-Maarif Cəmiyyəti Balaxanıda 30 şagird qızın oxuduğu bir məktəb açdı.[188] 1907-ci ildə Bakıda bir sinifli daha üç məktəb inşa etdirdi. 1911-ci ildə bu məktəblərdən 275 şagird məzun oldu. Nəşri-Maarif Cəmiyyətinin bütün məktəb-

---

iləcəkdir. Yay tətillərində Qafqaza gediş-gəliş xərcləri də ayrıca ödəniləcəkdir. 2 – Tələbə təhsilini yüksək səviyyədə bitirdikdən sonra mütləq vətəninə qayıdıb millətinə xidmət edəcəkdir. 3 – Tələbələr qeyri-türklərlə evlənməyəcək və bir sıra başqa şərtlər irəli sürülmüşdür. N. Keykurun, eyni adlı əsər, səh. 180.

182. M. İmayıl- M. İbrahimov, eyni adlı əsər, səh. 46.
183. Eyni adlı əsər, səh. 47.
184. N. Nərimanov, eyni adlı əsər, səh. 32-33.
185. Azərbaycan Tarixi, Bakı 1995, səh. 10.
186. E. Tağıyev, eyni adlı əsər, səh. 93.
187. "Nəşri-Maarif", ASE, cild VII, 1983, səh. 235.
188. Aəzrbaycanda xalq maarifinin inkişaf yolu, səh. 126.

ləri pulsuz idi. Lakin bir müddət sonra maddi sıxıntı çəkdiyinə görə Əmircan və Buzovnadakı məktəblər bağlandı.[189]Cəmiyyət gündəlik xərclərini imkanlılardan pul yığmaqla yanaşı, gəlir mənbəyi kimi ödənişli viktorina və teatr səhnələri nümayiş etdirərək qarşılayırdı.[190]

1913-cü ildə Nəşri-Maarif Cəmiyyətinin 13 məktəbi və 940 şagirdi var idi. 1914-cü ildə isə 16 məktəbdə 1200 şagird təhsil alırdı. 1917-ci ildə məktəblərin sayı 26-ya çatdı. Bunlar bir və iki sinifli məktəblər idi. Məktəblərə hər il 32 000 manatdan artıq pul xərclənirdi. İmkansız tələbələrin məktəb ləvazimatları təmin edilir və ali təhsil alan tələbələrə də təqaüd verilirdi.[191]

Tağıyev rəhbəri olduğu Müsəlman Xeyriyyə Cəmiyyəti və Nəşri-Maarif Cəmiyyətinin xaricində 1906-cı ildə Bakıda açılan **Nicat Cəmiyyətini** də maddi və mənəvi olaraq dəstəkləyirdi.[192] Nicat Cəmiyyəti Nəşri-Maarif Cəmiyyəti ilə birlikdə fəaliyyət göstərirdi.[193]Nicat Cəmiyyətinin nizamnaməsi 22 avqust 1906-cı ildə qəbul edildi. Nizamnaməyə görə Cəmiyyətin məqsədi müsəlmanlar arasında maarifləndirmə işləri aparmaq, müsəlman uşaqlara ibtidai, orta və ali təhsil verdirmək, ana dilinin və ədəbiyyatın inkişafına yardım etmək, müsəlmanlardan ağır vəziyyətdə olanlara həm maddi, həm də mənəvi kömək etmək idi. Cəmiyyətin həmsədrləri M. Muxtarov və İ. Aşurbəyov, katibi isə M. B. Hacıbabayev idi. Cəmiyyətin teatr, ədəbiyyat və pedaqogika bölmələri var idi.[194] Cəmiyyətin üzvləri arasında Üzeyir Hacıbəyov, Cahangir Zeynalov, Mirzağa Əliyev, Hüseynqulu Sarabski, Məmmədəmin Rəsulzadə, Hüseyn Ərəblinski və Sidqi Ruhullah kimi tanınmış ziyalılar var idi.[195]

189. E. Tağıyev, eyni adlı əsər, səh. 94.
190. "Nəşri Maarif", səh. 94.
191. E. Tağıyev, eyni adlı əsər, səh. 94
192. M. İsmayıl-M. İbrahimov, eyni adlı əsər, səh. 47.
193. "Nicat", ASE VII cild, 1983, səh. 272.
194. E. Tağıyev, eyni adlı əsər, səh. 91.
195. M. İsmayıl-M. İbrahimov, eyni adlı əsər, səh. 47.

Cəmiyyətin Bakı və ətrafında kitabxana, oxu zalları, məktəblər açmaq, müsəlmanlar üçün konsertlər vermək, ictimai, siyasi və elmi sahələrdə müzakirələr aparmaq kimi fəaliyyətləri var idi. Birinci Qafqaz Müəllimləri konfransının keçirilməsində, Azərbaycanda təhsil və mədəniyyətin inkişafında, milli teatr ənənəsinin formalaşmasında Nicat Cəmiyyətinin mühüm rolu olmuşdur.

Nicat Cəmiyyəti imkansız tələbələrin oxutdurulması və universitet tələbələrinə təqaüd verilməsi ilə yanaşı, xalq üçün axşam kursları da təşkil edirdi.1909-cu ildə bu kurslarda iştirak edənlərin sayı 280 nəfər idi. Buraya yalnız oxumaq, yazmaq bilməyənlər deyil, oxumağı bacaranlar da iştirak edərək özlərini inkişaf etdirirdilər.[196] Nicat Cəmiyyətinin təşəbbüsü ilə Gəncə, Şamaxı, Şuşa, Lənkəran və Ağdamda müxtəlif xeyriyyə cəmiyyətləri və məktəblər açıldı.[197]

1904-cü ildə Qubernator General Fadeyevin icazəsi ilə Bakıda **Hidayət Cəmiyyəti** quruldu. Bu cəmiyyətin başlıca məqsədi dini fanatizmə qarşı mübarizə aparmaq idi. Həmçinin küçələrdə qadınları narahat edənlərlə pul üstündə adam öldürənləri qubernatora bildirir və cəzalandırılmalarını təmin edirdilər. Cəmiyyətin idarə heyəti on nəfərdən ibarət idi. Tağıyev, İsabəy Hacınski, Mirməhəmməd Kərim, Molla Ruhullah, Əhmədbəy Ağaoğlu, Mustafabəy Əliyev cəmiyyətin rəhbərləri arasında idi. Cəmiyyət batil inancların və dini fanatizmin xalq üzərindəki təsirini azaltmağa çalışırdı. Cəmiyyət üzvləri bu işləri görərkən mollalarla mübarizə aparırdılar və onlar tərəfindən hədələnirdilər. Bu hədələrin nəticəsi olaraq 12 yanvar 1912-ci ildə Molla Ruhullah evində namaz qılarkən öldürüldü və Mirməhəmməd Kərimin evi yandırıldı.[198]

Tağıyevin üzv olduğu başqa bir cəmiyyət, Mərkəzi Tiflis şəhərində yerləşən **Müqəddəs Nina Cəmiyyəti** idi. 1859-cu ildə Bakı şöbəsi açılan cəmiyyətin sədri Şəhər Sovetinin xanı-

196. E. Tağıyev, eyni adlı əsər, səh. 92.
197. “Nicat”, səh. 272.
198. Q. İlkin, Bakı və bakılılar, səh. 218.

mı Katerina Staroselski, idarə heyətinin üzvləri Şəhər Soveti Dmitri Staroselski, Zeynalabdin Tağıyev, Çimnazxanım Səlimxanova, Hacı Mirzəqulu, Hacı Hüseyinqulu, Səfər Əlioğlu, M. Məhəmməd Əliyev və Ağahüseyin Tağıyev idi. Müqəddəs Nina Cəmiyyəti qadınlar üçün qurulmuş bir xeyriyyə cəmiyyəti idi və eyni adda Bakıda bir məktəbləri də var idi.[199]

### *Şəhərsalma fəaliyyətləri*

Tağıyev müsəlman cəmiyyətinin də zəmanənin tələblərinə uyğunlaşmasını arzu edirdi. Uşaqları yaxşı təhsil verilən məktəblərə qəbul etdirməyə çalışır, mütəxəssis kadrların rus, erməni, gürcü və almanların monopoliyasından qurtulması məqsədilə türk övladlarını ali təhsil almaları üçün xaricə göndərir, işçi ehtiyacını müsəlman uşaqlar vasitəsilə təmin edə bilmək üçün peşə məktəbləri qurur, qız uşaqları üçün məktəblər inşa etdirir, müəllimlik məktəbləri açır, kitablar nəşr etdirir, xalqın maariflənməsi üçün qəzet və jurnallar çap etdirir, rus və ermənilərdən daha görkəmli və böyük bir teatr binası inşa etdirir, aktyorlara hər cür dəstək verir, kasıb və ehtiyac sahiblərinə dəstək ola bilmək üçün xeyriyyə cəmiyyətləri qururdu. İtaliya, Almaniya, Fransa kimi Avropa ölkələrinə getdiyi səfərlər zamanı buradakı inkişafı yaxından görmək imkanı əldə edir və öz ölkəsinin də bu inkişafa çatmasını çox istəyirdi.

Türk toplumunun inkişafı üçün nə lazımsa görüb, görənlərdən eşidib öz imkanları nisbətində yerinə yetirməyə çalışırdı. Tağıyev yalnız ziyalılarla deyil, hər təbəqədən yerli rəhbərlərlə mütəmadi görüşüb onların problemlərini və ehtiyaclarını həll edirdi

### Bakı-Şollar su kəmərinin çəkilməsindəki rolu

1800-cü illərin sonlarına doğru Bakı ətrafında baş verən susuzluq şəhərə son dərəcə mənfi təsir göstərirdi. Şəhər Soveti Bakı və ətrafında baş verən böyük susuzluğa çarə tap-

199. Eyni adlı əsər, səh. 220.

maq üçün şəhərin ətrafında su mənbələri axtarsa da, Şamaxı qəzasında axtarılan su tapılmadı. 12 may 1892-ci ildə keçirilən iclasda 170 km məsafədə olan Samurdan və ya 140 km uzaqlıqdakı Kür çayından su xətti çəkilməsi qərara alındı. Layihənin hazırlanması üçün tender elan edildi. İngilis Lindleyin layihəsi qəbul edildi. Lindley 1899-cu ilin oktyabr ayında Bakıya gələrək su kəmərinin Samurdan çəkilməsinin daha münasib olacağını dedi.

Çünki Samurun suyu daha təmiz və mənbəyi daha güclü idi. Lakin Bakı Şəhər Soveti Kür çayı layihəsinin daha ucuz başa gəldiyini əsas gətirərək Lindleyin təklifini qəbul etmədi.[200] Əhalinin böyük əksəriyyəti quyu suyundan istifadə edirdi. Bakıda 800 quyu mövcud idi. Lakin bunların yeddi yüzündən çıxan su təmiz deyildi. (keyfiyyətsiz idi.) Bunun nəticəsində də xəstəliklər son dərəcə artmışdı və 1892-ci ildə Bakıda "vəba" epidemiyası yayıldı. 1893-cü ildə sahildə dəniz suyunun təmizlənməsinə səy göstərildi, ancaq bu metod uğurlu olmadı. Bakı Şəhər Soveti 1898-ci ildə ikinci dəfə dəniz suyunu təmizləmək layihəsini həyata keçirdi. Bununla yanaşı, Kür və İdil çaylarından su daşınmağa başlandı. Lakin bu metod bahalı olmaqla yanaşı, sağlamlığa da zərərli idi.[201]

Tağıyev su məsələsinə təcili bir çarə tapmaq üçün İngilis-Amerika müştərək şirkəti ilə 25 min manata müqavilə imzaladı. Əvvəllər Rusiyada su kəməri çəkən D. İ. Şipovu Bakıya dəvət etdi. Londondan su məsələsini həll etmək üçün gələn Lindley, Şipovla müzakirələr apardı. Lindley 1901-ci ildə Şahdağın[202] ətəyində güclü su mənbəyi olduğunu desə də, Duma buna inanmadı.[203] 1904-cü ildə Lindleyin xidməti nəticəsində Şollarda ilk su quyusu açıldı. Lakin Şəhər Sove-

200. E. Kərimov, "Şollar suyu", Kommunist, 8 mart 1990-cı il, səh. 1.

201. M. Süleymanov, eyni adlı əsər, səh. 22.

202. Şahdağ, Quba şəhərindən iki mil uazqlıqda yerləşən böyük bir dağdır. Tağıyev suyun tapılıb Bakıya gətirilməsi üçün iyirmi beş min manatdan əlavə daha bir milyon manat verəcəyini demişdi. Sərvət və səxavətdə..., səh. 27.

203. M. İsmayıl-M. İbrahimov, eyni adlı əsər; səh 52.

tinin müxtəlif bəhanələr gətirərək işi gecikdirməsi Lindleyin Bakını tərk etməsinə səbəb oldu. [204]

Tağıyev su problemini həll etmək istəyirdi. Ona görə də bu işi axıra qədər nəzarətində saxladı. Şəhər Sovetinin Sədri Rayevski[205] Tağıyevə dəstək verdikdən sonra Peterburqdan maddi yardım tələb edildi. Tağıyev hökumətdən tələb edilən illik 5% olmaqla 27 milyon manat kredit üçün Quş Məhəmmədhəsəni Rayevski ilə birlikdə Peterburqa göndərdi. 1909-cu ilin son aylarında bu kredit alındı.[206] Alınan kreditin 23,5 milyon manatının kəmərin çəkilişinə sərf edilməsinə qərar verildi. 30 mart 1910-cu ildə Lindleylə yenidən müqavilə imzalandı. Beləliklə, Lindley kəmərin çəkilməsində tam səlahiyyətli şəxs oldu. 1911-ci ildə su kəmərinin çəkilişinə başlanıldı. Bəzi xarici şirkətlərin də iştirakı ilə çəkilən kəmərin inşasında minlərlə fəhlə işlədi. 1915-ci ildə Şəhər Soveti Çar Hökumətindən işlərin bitirilməsi üçün əlavə 10 milyon manat kredit tələb etdi və aldı.[207] 1916-cı ilin sonlarında inşası başa çatan Bakı-Şollar su kəməri 1917-ci ilin yanvar ayında xalqın xidmətinə verildi. Tağıyev su kəmərinin çəkilməsinə maddi yardım etməklə yanaşı, bu işlərlə özü şəxsən maraqlandı.[208]

### Bakını müasirləşdirmə fəaliyyətləri

Tağıyev Bakını müasir şəhər halına gətirmək üçün çox böyük zəhmət sərf etdi. 1887-ci ildə Bakıdakı 80 imkanlı şəxsi bir yerə toplayaraq atlı dəmir yolunu inşa etməyə çalışdı və 1889-cu ildə atların istifadə edildiyi dəmir yolu fəaliyyətə başladı. Bundan sonra Bakıdan Bibiheybətə qədər asfalt yol çəkdirdi. 1890-cı ildə Bibiheybətdə bir poliklinika açdı və daha sonra buranı tam müasir bir xəstəxanaya çevirdi.[209]

---

204. E. Kərimov, adı keçən mənbə, səh. 1.
205. Rayevskinin Şəhər Sovetinin Sədri deyil, mühəndis olduğu və Tağıyev tərəfindən Bakıya dəvət edildiyi qeyd olunmuşdur. M. İsmayıl-M. İbrahimov, eyni adlı əsər, səh. 53.
206. M. Süleymanov, Neft Milyonçusu, səh. 23.
207. E. Kərimov, adı keçən mənbə, səh. 1.
208. M. Süleymanov, adı keçən mənbə, səh. 23.
209. Eyni adlı əsər, səh. 41.

Tağıyev 1895-ci ildə Bakıda dövrünün ən böyük və mükəmməl binalarından birinin inşasına başladı. 270 nəfərin işləyərək 1897-ci ildə bitirdiyi bu saray bu gün Azərbaycan Tarix Muzeyi kimi fəaliyyət göstərir.[210] Bakı şəhərinə ilk dəfə avtomobil gətirən şəxs yenə Tağıyevdir.[211] Tağıyev "İmperator Rus Texnika Cəmiyyəti"nin Bakı şöbəsi tərəfindən 1893-cü ildə xalqın pulsuz istifadə edəcəyi oxu zalları açmaq üçün qurulan komissiyaya üzv seçildi və cəmiyyətə maddi yardım göstərdi. 1897-ci ildə Bakının küçə, park, prospekt və bulvardan ibarət olan şəhər planını hazırlatdı. Planı Bakı şəhər Dumasına təqdim etdi və planın həyata keçirilməsi üçün zəruri maddi yardımı edəcəyini də Dumaya bildirdi.[212]

1883-cü ildə sahildə taxta bir körpü və 1898-ci ildə memar V. Qaslovskiyə sahildə daha bir körpü inşa etdirdi. 1895-ci ildə Mərdəkanda özünə böyük bir malikanə tikdirdi. 1896-cı ildə də Memar Skureviçə Bakıda Rusiyanın ən böyük biznes mərkəzlərindən biri olan "Tağıyev pasajı"nı inşa etdirdi və bu pasaj 1898-ci ildə xalqın istifadəsinə verildi.[213] Hətta daha sonra bu pasajı Bakı Dövlət Universitetinə bağışladı.

## Tağıyevin Çar hökuməti ilə münasibətləri

Tağıyevin fəaliyyətləri yalnız Azərbaycanla məhdud deyildi. Rusiyada da yardım fəaliyyətləri var idi. Tağıyevin həyatında Çar Rusiyası ilə münasibətləri çox mühüm yer tutur. O, Çar hökuməti ilə həmişə səmimi münasibətlər qurmağa çalışdı.

Hətta bir dəfə Qafqaz üzrə canişinliyə yazılacaq bir ərizənin (məktubun) yazılışındakı xitaba görə N. Nərimanovla xoşagəlməz bir mübahisə baş vermişdi. Belə ki, 15

210. M. Süleymanov, eyni adlı əsər, səh. 6-7.
211. Tağıyevdən sonra Rotşild avtomobil gətirmişdir, eyni adlı əsər, səh. 20.
212. Bu plana görə, küçə və məhlələr geniş və planlı olacaq, parklar və meydanlar salınacaq, şəhər genişləndiriləcək, sahil boyu düzənlənərək şəhər təqribən on, on beş min insanın yaşamasına uyğun hala gətiriləcəkdi. M. İsmayıl – M. İbrahimov eyni adlı əsər, səh. 46.
213. Eyni adlı əsər, səh. 88-99.

avqust 1906-cı ildə N. Nərimanovun[214] təşəbbüsü ilə Bakıda "Qafqaz Müsəlman Müəllimlərinin I Qurultayı" təşkil edildi. Qurultayda məktəblərdə ana dilində təhsil verməyə etiraz edən Livitskidən şikayət edilməsi və Qafqaz üzrə canişinliyə ərizə yazılmasına qərar verildi. Lakin ərizə yazılarkən Zərdabi ilə Nərimanov mübahisə etdi və Zərdabi toplantını tərk etdi. Hadisədən xəbər tutan Tağıyev ertəsi günü iclasda iştirak etdi və o da Nərimanovla mübahisə etdi. Belə ki, bu qurultayda yazılan şikayət məktubunun sonuna Zərdabi "Qurultay ədalətli sərəncam verməyinizi xahiş edir!" yazılsın deyərkən, Nərimanov etiraz edərək "Qurultay tələb edir! Xahiş yox!" yazılmasını istəmişdi. Tağıyev qurultaya gəlib Zərdabinin fikirlərini dəstəklədi. Nərimanovu da onun verdiyi pulla oxuduğunu və irəlini görməyən bir insan olduğunu deyərək ittiham etdi. Qarşılıqlı ittihamlar zamanı Nərimanov "Pul verdiniz deyə sizin kimi düşünmək məcburiyyətində deyiləm" - deyərək Tağıyevə etiraz etdi. Halbuki istər Zərdabi, istərsə də Tağıyev öz xalqının ucalmasını hər şeydən çox istəyir, belə məsələlərin rəhbərliklə münaqişə etmədən həyata keçə biləcəyini bilirdilər.

Çar üsul-idarəsi ilə münasibətlərini yüksək səviyyədə tutmağa çalışan Tağıyevə çar bir çox hədiyyə və ordenlər verdi. 1900-cü ildə Tağıyevin ailəsi "Fəxri vətəndaş" qəbul edildi və 25 yanvar 1907-ci ildə "Dördüncü dərəcəli həqiqi mülki müşavir" rütbəsini aldı. Dumanın 8 fevral 1910-cu il tarixli qanunu ilə Tağıyev ailəsinə "Zadəgan" titulu verildi. Hacının

214. N. Nərimanov 1870-1925: imkanlı bir ailənin doqquz uşağından biri olan Nərimanov Tiflisdə anadan olmuşdur. Qori Müəllimlər Seminariyasını bitirdikdən sonra 1890-cı ildə Bakıda müəllimliyə başlamışdır. Bakıda ilk qiraətxananı açmışdır. Tağıyevin verdiyi təqaüdlə Odessa Tibb fakültəsini bitirib Bakıda həkimliyə başladı. Daha sonra Tiflisdə həkimlik edərkən həbs edilərək Metex qalasına göndərildi. 1914-cü ildə sonra təkrar Bakıda həkimlik etməyə başladı. 1917-ci ildə Sosialist Himmət Partiyasının sədri oldu. 1919-cu ildə işləmək üçün Moskvaya gedən Nərimanov 16 may 1920-ci ildə Bakıya qayıtdı və Azərbaycan Sovet Sosialist Respulikasının Katibi oldu. 1925-ci ildə vəfat edən Nərimanov Qızıl meydanda dəfn edildi. Azəbaycanda və Qafqazda sosializm hərəkatının inkişafı üçün çox çalışan Nərimanov Hümmət Partiyasının qurucularındandır. Bir çox qəzet və jurnallarda məqalələri çıxan Nərimanovun "Tibb və islam", "Qadınlara nəsihət", "Nadanlıq", "Nadir Şah", "Bahadır və Sona" "Türk dilinin müəllimi" kimi bir çox əsərləri vardır.

mükafatları arasında "II və III dərəcəli müqəddəs Stanislav" ordeni və III Aleksandr dövrünün gümüş medalı da var idi. Tağıyevin rus kilsələrini təmir etdirdiyi və bunu eşidən Çarın onu yanına çağıraraq söhbət etdiyi ifadə edilir. Kilsələri təmir etdirməsinin məqsədi açılacaq tikiş fabrikinə icazə almaq idi. Çar sual verdiyində isə Tağıyev: "Dinimiz ayrıdır, ancaq Allahımız birdir. Məscid kimi kilsə də Allahın evidir", - deyirdi.[215]

Tağıyevin xaımı Sona xanım da gördüyü xeyriyyə işlərinə görə 1908-ci ildə qızıl medal ilə təltif edildi. Tağıyev xanımına verilən bu qızıl medaldan özü də almaq istədi. Belə ki, Şəhər Sovetinə müraciət edərək şəhərin mərkəzində yerləşən karvansarayını əsgərlərə bağışlayacağını deyir. Şəhər Soveti Tağıyevin təklifini Peterburqa göndərir. Bundan sonra Tağıyev Şəhər Sovetindən tez-tez cavab gəlib-gəlmədiyini soruşur. Bir gün cavab gəldiyini öyrənən Tağıyev həyəcanla şəhər sovetinə gedərək nə cavab gəldiyini soruşur. Sədr cavabda spasibo (təşəkkür edirik) yazıldığını deyir. Bu hadisədən sonra Tağıyevin adı "Spasibo Zeynalabdin" qaldı.[216]

Çar II Nikolayın qardaşı Mixail evləndikdən sonra Tağıyevdən Yevlax ətrafındakı ağaclardan ona ev tikilməsi üçün icazə istədi. (*Red:Kür çayının ətrafındakı torpaqları Tağıyev almışdı. Ona görə Çarın qardaşı Tağıyevdən icazə istəyirdi.*) Tağıyev bu təklifi qəbul etdi və bundan sonra Çar ona bir çox hədiyyə göndərdi. İşləri ilə əlaqədar tez-tez Moskvaya getmək məcburiyyətində qalan Tağıyev buradakı işlərini daha rahat şəkildə həll edə bilmək üçün dörd mərtəbəli bir malikanə aldı.[217] Çar III Aleksandr 1888-ci ildə Tiflisdən Bakıya gəldiyində şəhər rəhbərliyi və Tağıyev tərəfindən qarşılandı. Tağıyev Çara çox qiymətli hədiyyələr təqdim etdikdən sonra şərq üslubu ilə döşənmiş bir çadırda şərəfinə ziyafət verdi.[218]

---

215. M. İsmayıl-M. İbrahimov, eyni adlı əsər.., səh. 10; H. Şəmsizadə, adı keçən mənbə, səh. 3.
216. M. Süleymanov, "Eşitdiklərim, Oxuduqlarım, Gördüklərim", Azərnəşr, Bakı 1989, səh. 36.
217. M. Süleymanov, Neft Milyonçusu, səh. 7.
218. Eyni adlı əsər, səh. 13-14.

## Azərbaycandan kənara etdiyi yardımlar

Tağıyev bütün islam dünyası ilə yaxından maraqlanırdı. Xüsusilə baş verən hadisələri yaxından izlədiyi və yadım etdiyi ölkə milyonlarla Azərbaycan türkünün yaşadığı İran idi. O, İrandakı mətbuat və təhsilin inkişafı üçün maddi yardım edirdi. Rəşidiyə Mədrəsəsinə 5500 manat, Sədat Mədrəsəsinə 8400 manat yardım etmiş,[219] Tehranda açılan bir məktəbə 5000 manat və kağız yardımı etmiş[220], Vətən Məktəbinin üç mərtəbəli binasının inşaatını və məktəb ləvazimatlarının xərclərini də qarşılamışdır.[221]Tağıyev Tehran məscidinin təmiri üçün 12565 manat yardım etmişdir.[222] Həmçinin İranda çıxan qəzetlərə də yardım etmişdir. Tərbiyəçi qəzetinə maddi yardım edərək qəzetin bir səhifə də artırılmasını və bununla bağlı xərcləri qarşılayacağını dedi.[223]Həmçinin fars dilində nəşr olunan Həblul-Mətin qəzetinə abunə oldu və qəzetin hər sayından 500 ədəd Kərbəla, Nəcəf və digər dini mərkəzlərdə təhsil alan tələbələrə pulsuz paylanılmasını təmin etdi.[224]

Tağıyev İran Şahı ilə dostluq qurdu və I, II, IV dərəcəli "Şiru-Xurşid" medalları ilə təltif edildi.[225]İran Şahının istəyi ilə Bakıdakı teatr qrupunun bütün xərclərini qarşılayaraq, ailələrinə kifayət qədər pul verib İrana göndərdi.[226] İran Şahı Bakını ziyarət edərkən xanımı Qız Məktəbini gəzdi və tələbələrin hamısına bir qızıl hədiyyə etdi.[227] Tağıyevin İranla münasibəti

219. Sərvət və səxavətdə məşhur..., səh. 21.
220. Mirzə Həsən Təbrizinin 1904-cü ildə yazdığı məktubunda bu yardımdan bəhs edilir. P. Yaqubi, "H. Z. Tağıyev və Maarif", Odlar Yurdu, (İyun 1989) səh. 3.
221. Vətən Məktəbinin müdiri Həbibullahın 18 avqust 1902 tarixli məktubunda Tağıyevin bu məktəbə 864 cild kitab göndərdiyi, Fatimiyyə Qız Məktəbinin müdiri Əli Təbrizinin yazdığı bir məktubda da Tağıyevin yeni açılan hər məktəbə 40 cild kitab göndərdiyi ifadə edilir. Adı keçən mənbə, səh.3.
222. Sərvət və səxavətdə məşhur... səh. 21.
223. M. İsmayıl-M. İbrahimov, eyni adlı əsər, səh. 50.
224. P. Yaqubi, adı keçən mənbə, səh.3.
225. M. İsmayıl-M. İbrahimov, eyni adlı əsər, səh. 10.
226. M. Süleymanov, eyni adlı əsər, səh. 42.
227. Eyni adlı əsər, səh. 35.

artaraq davam etdi və bunun nəticəsi olaraq orada bir malikanə və bir neçə dənə də karvansarayı var idi.[228]

Cənubi Azərbaycandakı "Milli Qurtuluş Hərəkatına" və hərəkatın lideri Səttarxana yardım etdi. Lakin bu hərəkət istər İranda, istərsə də Bakıda narazılığa səbəb oldu. Azərbaycan Dövlət Arxivində mövcud olan bir sənəddə "Qafqaz Canişininin əldə etdiyi xəbərə görə Bakı əhalisindən Hacı Zeynalabdin Tağıyev, İrandakı hərəkatı müdafiə etmək məqsədi ilə İran inqilabçılarına yardım edir. Bunun qarşısının alınması üçün tədbir görməyinizi xahiş edirik"- yazılmışdır. Bundan sonra Bakı Şəhər Soveti Tağıyevi çağıraraq Çar hökumətinin İran rəhbərliyi ilə dost olduğunu və belə davranışların bu dostluğa zərər verəcəyini dedi. Tağıyev ona cavab olaraq, "Biz heç vaxt inqilabçılara yardım etmədik. Lakin İrandakı qarışıqlıqlar nəticəsində vəfat edənlərin dul arvadları, uşaqları və valideynləri acından ölməsin deyə yardım edirik. Bu zavallı insanlara yardım etməsək, kafir olarıq", - dedi.[229]

İslam dünyasının digər bölgələri ilə də sıx əlaqələri var idi. Buxara əmiri ilə yaxşı münasibətlər qurmuşdu. Əmir Seyyid Mirabdul Əhəd Xan hər il Qafqazın şəfalı suları ilə müalicə olunmaq üçün gələrkən yolunu Bakıdan salır və burada Tağıyevin qonağı olurdu. Əmiri Mərdəkandakı evində qəbul edən Tağıyev ona şəhəri gəzdirirdi. Əmir bu səmimi münasibətin nəticəsi olaraq ona "Ucalan Ulduz" ordeni və çox qiymətli bir saat hədiyyə etmişdi.

Bakıda xarici dövlət xadimlərini qarşılamaq üçün qurulan komanda heyəti Əmirin çox xoşuna gəldi və Tağıyev də bu heyəti bütünlüklə Əmirə hədiyyə etdi. Lakin bu komanda heyəti Buxarada uzun müddət qala bilmədi və geri qayıtdı. Bakıda tikiş fabrikinin açılacağını eşidən Buxara Əmiri Tağıyevə əgər fabriki Buxara, Səmərqənd və ya Xivəyə inşa et-

---

228. Eyni adlı əsər, səh. 7.
229. M. Süleymanov, eşitdiklərim... səh. 16-17.

dirəcək olsa, fabrikin bütün ehtiyacını özünün qarşılayacağını dedi. Lakin Tağıyev bu təklifi qəbul etmədi.[230]

Hacı Zeynalabdinin yuxarıda bəhs edilən dövlətlərin xaricində bir çox ölkə ilə əlaqəsi var idi və oradakı təhsil ocaqlarına yardım edirdi. Məsələn, erməni yetimlər üçün 3000 manat, Müqəddəs Nina Qız Məktəbinə 1000 manat, Dağıstandakı mədrəsənin təmirinə 5000 manat göndərmişdi. Bunlar edilən belə yardımlardan bəziləridir.[231] Həmçinin Qazaxıstan qəzetinə və Misirdəki məktəblərə maddi yardım göstərdiyi də məlumdur.[232]

Tağıyev Krımda milli məktəblərin inkişaf etməsini və təhsildə reformlar aparılmasını bütün türklərə ortaq dildə xitab edəcək milli mətbuatın fəaliyyətə başlamasını müsəlman həyat tərzinin modernləşdirilməsi məqsədini güdən Üsuli-Cədid hərəkatının başlıca liderlərindən olan İsmail Qaspiralının “Dildə, düşüncədə, əməldə birlik” şüarını dəstəkləyərək ona maddi yardım edirdi.[233] İsmail bəy Bakıya gələndə Tağıyevlə görüşmüş və gördüyü işlər barəsində ona məlumat vermişdir. Bu əsnada 1883-cü ildə çıxarmağa başladığı “Tərcüman” qəzetinin az oxunması barəsində məlumat verdi. İsmail bəy Krıma qayıtdıqdan sonra Tağıyev katibinə Qafqazı gəzməsini, türk dilində qəzet oxuya bilən şəxslərin adlarını və ünvanlarını müəyyən etməsini tapşırdı. Sonra Tağıyev hazırlanan siyahı ilə birlikdə abunə haqlarını İsmail bəyə göndərdi. İllərlə davam edən nizamlı ödəniş və abunəlik hadisəsi sayəsində qəzeti pulsuz oxuyan insanlar bundan çox sonralar xəbərdar odular. Tağıyev İsmail bəyə üsuli-cədid məktəbləri üçün də

230. M. Süleymanov, eşidiklərim..., səh. 19.

231. Sərvət və səxavətdə məşhur..., səh. 20-21.

232. Misir məktəblər və universitetlər müdiri Tağıyevə Misirdəki məktəblərə etdiyi yardıma görə təşəkkür məktubu göndərdi. M. İsmayıl-M. İbrahimov, eyni adlı əsər, səh 49-50.

233. İsmail Qaspiralı 1851-1914 N. Dövlət, 1917 oktyabr inqlabı və türk-tatar millət məclisi, İstanbul 1998, səh. 46. İ. Qaspiralı haqqında daha ətraflı məlumat üçün baxın. N. Dövlət, İsmailbəy Qaspiralı, Ankara 1988, səh. 49; N. Dövlət, “İdil Ural Müsəlmanlarının Təhsil Mübarizəsi: Cədidçilik hərəkatı”, TM, nömrə 15, may 1995, səh 48; Russkoe musulmanstvo, İsmailbəy Qasprinski, Oxford 1985, səh. 13; Musulmanskaya Peçat Rossiyi, Oxford 1987, səh. 90.

mühüm maddi yardımlar etmişdir.[234] Bu məktəblərlə bağlı məlumatı Tağıyev əslində İsmail Qaspiralının Bakıya gəlişindən xeyli əvvəl əldə etmişdi. Tibb təhsilini Tağıyevin verdiyi təqaüdlə davam etdirən N. Nərimanov tələbəlik illərində Krımı ziyarət edərkən onu burada həm səmimi və qonaqpərvər şəkildə qarşılayan İsmail Qaspiralıdan, həm də Krımda onun səyləri nəticəsində açılan müasir məktəblərdən və tələbələrindən Hacıya göndərmiş olduğu 1903-cü il tarixli məktubunda böyük ehtiramla və heyranlıqla bəhs edirdi.

### Osmanlı dövləti ilə münasibəti

Osmanlı dövlətində baş verən hadisələri yaxından izləyən Hacı Zeynalabdin, İstanbula gedib-gələnlərdən yeni irəliləyişlər haqqında məlumat alır və burada çıxan qəzetləri mütəmadi şəkildə izləməyə çalışırdı. Həmçinin İstanbuldakı Adalarda özünə bir malikanə almışdı.[235] Tağıyev Osmanlı dövlətindəki bəzi müəssisələrə də yardım etmişdir. 25 fevral 1914-cü ildə Musa Nağıyevlə birlikdə Ədirnədə inşa edilən “Dərul-Eytəm”- ə (yetimlər evi) göstərdiyi hər biri 5000 manat təşkil edən yardımlar bunlardan bir dənəsidir. Tağıyev Səlimiyyə məscidinə üç cilddən ibarət “Kəşful-Əsrar” adlı bir əsər göndərmişdir.[236] Yenə Tağıyev böyük Laləli yanğınından sonra küçədə qalanlar üçün Təyyarə binalarını (bugünkü Merit oteli) inşa etdirmiş; Bolqarların zülmündən qaçan müsəlman əhali üçün Ədirnə Valisi Adil Bəyin xahişi ilə İstanbuldakı Nobel şirkəti vasitəsilə min qızıl yardım da göndərmişdi. Quranın Azərbaycan türkcəsində tərcüməsini dörd min qızıl dəyərində daşlarla bəzəyərək Yusif Ziya Talıbzadə vasitəsilə Sultan II Əbdülhəmidə hədiyyə olaraq göndərdiyi də məlumdur.[237]

234. N. Keykurun, eyni adlı əsər, səh 183.
235. M. Süleymanov, Neft Milyonçusu, səh. 7.
236. Tağıyevin Nağıyevlə bərabər etdikləri yardımın sənədi BOA, daxil olan sənəd №17/7. Bu sənəd araşdırmamızın əlavələr hissəsində verilmişdir. Osmanlı dövləti ilə Azərbaycan xanlıqları arasındakı münasibətlərə dair arxiv sənədləri I (1578-1914), BDAGM, Ankara 1992, səh. 241-242.
237. S. Özdaş adı keçən mənbə, səh. 8.

Tağıyevin 15 sentyabr 1918-ci ildə Bakını işğaldan azad edən Osmanlı ordusunun komandanı Nuru Paşa ilə yaxın dostluğu var idi.[238] Nuru Paşa Mondros sazişinə qədər Bakıda qalaraq buradakı türkləri baş verə biləcək bir qətliamdan qorudu və şəhərdə asyişi təmin etdi.[239] Bu hadisədən sonra Bakıda üç gün bayram elan edildi. Tağıyev üç fərqli yerdə ziyafət çadırı qurdurdu və kasıblara 50 min metr parça payladı.[240]

Nuru Paşa Bakıda qaldığı müddət ərzində dəfələrlə Tağıyevin Mərdəkandakı evində qonaq olmuşdur. Nuru Paşa həmin vaxt görüb bəyəndiyi Sara xanımla evlənmək istəsə də, Tağıyev qızını Bakıdan kənara verə bilməyəcəyini deyərək bu tələbi qəbul etməmişdir.[241]Uşaqlarına çox bağlı olan Tağıyev Sara xanımı daha öncə oğlu üçün istəyən Buxara Əmirinə də eyni bəhanə ilə “xeyr” demişdir. Nuru Paşanın atası Hacı Əhməd Paşa Bakıya gəldiyində Tağıyev onun şərəfinə böyük bir ziyafət vermişdir.[242]

### *Müəllim Cövdət bəyi Bakıya gətirdi*

Hacı Zeynalabdin Tağıyevin Osmanlı dövləti ilə ən mühüm əməkdaşlığı təhsil sahəsindəki əməkdaşlıqdır. 1905-ci ildən sonra qismən müstəqillik şəraitində Azərbaycanda ana dilində təhsil verən məktəblər açılmağa başladı. Məktəb açmaq üçün Nəşri-Maarif Cəmiyyəti çox aktiv iş aparırdı. Cəmiyyət açılacaq məktəblər üçün İstanbuldan müəllimlər dəvət etməyə qərar verdi. Tağıyev həmin dövrdə İstanbula gedən Axısqalı Şahzadə Məhməd əfəndiyə müəllim tapmaq vəzifəsi vermişdi. Məhməd əfəndi həmin vaxt “Buhranı-Tərəqqi”də

238. Qafqazda Osmanlı ordusunun irəliləməsi və Bakını ələ keçirməsi haqqında ətraflı məlumat üçün bax. B. Gökay, Bolşevizm və İmperializm arasında Türkiyə 1918-1923, Tərc. edən S. Yalçın, Tarix Vəqfi nəşriyyatı, İstanbul 1998, səh 19-45.

239. N. Yüceer, I dünya müharibəsində Osmanlı ordusunun Azərbaycan və Dağıstan hərəkatı, Ankara 1996, səh. 116-130. A. N. Kurat Türkiyə və Rusiya, səh. 527-523, 671-672; M. Saray, Yeni Türk Cümhuriyyətləri Tarixi, TTK, Ankara 1996, səh. 41; H. Baykara, Azərbaycan İstiqlal Mücadiləsi Tarixi, səh. 262-268.

240. M. Süleymanov, Neft Milyonçusu, səh. 132.

241. M. Süleymanov, H.Z. Tağıyev, səh. 59.

242. M. Süleymanov, Neft Milyonçusu, səh. 124.

işləyən Müəllim Cövdətə məktəb müdiri Haqqı bəy vasitəsilə təklif etdi. Müəllim Cövdət 1907-ci ildə Bakıya gəldi və burada Tağıyev tərəfindən qarşılandı. Bakıda "Darulmuallimat"-a müdir təyin edildi və dərhal tədris proqramını hazırlamağa başladı. Bakının nüfuzlu şəxslərindən ibarət olan bir heyət təşkil etdi. Hazırladığı tədris proqramını bu heyətə təqdim etdiyində Hacı Əbu Turab[243] proqramdakı türk dili dərslərinə etiraz etdi. Bundan sonra türk dili dərsləri proqramdan çıxarıldı, lakin məktəbdə tədris edilməyə davam edildi. Məktəbin dərslik vəsaitinin qarşılanması üçün İstanbula bir adam göndərildi.[244]

M. Cövdət Bakıda 13 ay qaldı və bu müddət ərzində çox mühüm işlər gördü.[245] Onun qurduğu Füyuzat adındakı Darulmuallimatı Əli bəy Hüseyinzadə davam etdirdi. Tağıyev M. Cövdətə xüsusi qayğı göstərirdi. Bu barədə M. Cövdət: "Tağıyev məni oğlu kimi sevdiyi üçün həftədə iki dəfə xüsusi olaraq çağırır və tarix kitabları oxutdururdu", - deyə yazır. M. Cövdət Bakıdan qayıdarkən Tağıyevin verdiyi pul ilə Avropada təhsil aldığını və İstanbula qayıtdıqdan sonra Tağıyevlə əlaqəsini kəsmədiyini ifadə edir. Azərbaycan Demokratik Cümhuriyyəti qurulub yeni məktəblər açılanda Tağıyevə tövsiyə məktubu[246] yazan M. Cövdət Bakıya gənc müəllimlər göndərərək kömək etməyə çalışdı.[247] Həmin dövrdə Azərbaycana təqribən 300 müəllim getmişdir.[248] M. Cövdət ömrü boyunca nə zaman Tağıyevin adı çəkilsə "Rəhmətullahi əleyh" və ya "Cənnət məkan" olaraq yad etmişdir.[249]

243. Hacı Əbu Turab o dövrün ən mühüm və ən nüfuzlu din xadimlərindən biridir. Özünə son dərəcə bağlı müridləri vardı. Əbu Turab Türk dili deyə bir dərs olmayacağını söyləmiş və ərəb dilindən başqa bir dilin öyrədilməsinə etiraz etmişdir.

244. O. Ergin, Müəllim Cövdətin həyatı, əsərləri və kitabxanası, İstanbul 1937, səh. 94.

245. M. Cövdət bəzi yazılarında 14 ay, bəzilərində isə 24 ay qaldığını qeyd edir. O. Ergin, eyni adlı əsər, səh. 102

246. Tövsiyyə məktubunun mətni üçün baxın; eyni adlı əsər, səh. 101.

247. Bakıya müəllim kimi gedən başqa bir təhsil işçisi də Əhməd Kamaldır. Əhməd Kamal Əlibəy Hüseyinzadənin dəvəti ilə Bakıya gəlmiş və "Balaxanı" məktəbində müdir olaraq işləmişdir. Daha sonra İstanbuldan Baha Səid və Beşiktaşlı Kiçik Fuad da Bakıya gəlmiş, Azərbaycandakı təhsilin inkişafında çox mühüm rol oynamışdırlar. Eyni adlı əsər, səh. 96.

248. Ə. Cəfəroğlu "Azərbaycanda Maarif Hərəkatları", TK№18, aprel 1964, səh. 135.

249. M. Cövdətin Bakıya gedişi və Tağıyevlə əlaqələri üçün bax: O. Ergin, eyni adlı

## Tağıyevin ağır günləri

### *Qısqanclıq Tağıyevi məhkəməyə sövq edir*

Bütün ömrünü işləyib qazanmağa və qazandıqlarını özü və hardasa hər kəs üçün xərcləməyə sərf edən Tağıyevin kədərli, qorxulu və təlaşlı keçən zamanları da olmuşdur.

1912-ci ildə yalnız Azərbaycanda deyil, Rusiyada və bir çox islam ölkəsində yayılan və hər kəsin həyəcanla izlədiyi bir hadisə baş verdi. Bu hadisə Tağıyevin məhkəməyə verilməsi və cəzalandırılması idi. Hadisə belə baş verdi: Tağıyevin maddi yardımları ilə təhsil alan Lütfəli bəy Behbudov yay tətillərində onun yanında işləyirdi. Tağıyev Behbudovun xanımı Sonaya qarşı davranışlarından şübhələnərək onu cəzalandırmaq istədi və adamlarına (bir rəvayətə görə özü də) Behbudovu döydürdü. Məsələdən xəbər tutan Tağıyevin rəqibləri, xüsusilə də ermənilər, Behbudovu məhkəməyə müraciət etmək üçün razı saldılar. Tağıyevin məhkəməyə verildiyini eşidən bir çox insan məhkəməyə etiraz teleqramı göndərdi. Məhkəmə Tağıyevə iki il altı ay həbs cəzası verdi. Lakin Çara cəzasının bağışlanması üçün müraciət edən Əlimərdan Topçubaşov, Musa Nağıyev, Mirzə Əsədullayev, M. Rza Vəkilovdan ibarət heyət cəzanın əfv edilməsində böyük rol oynadı.

### *Almaniyada başına gələnlər*

Tağıyev 1914-cü ildə ailəsi ilə birlikdə yay tətilini keçirmək üçün Almaniyaya getdi. Xanımı, qızları Sara, Leyla və Sürəyya ilə oğulları Məhəmməd, İlyas, Sara xanımın xidmətçisi Raisa və Tağıyevin köhnə dostu olan Məstanbala Berlinin ən məşhur oteli olan Eksplodenaya gəldilər. Bir neçə gün Ems bölgəsinə gedən ailə bir aya qədər burada istirahət etdikdən sonra Maren Badenə getdilər. Həmin günün axşamı bir rus ruhanisi Tağıyevin yanına gələrək, Rus səfiri tərəfindən göndərildiyini və səfirin Tağıyevin ailəsinin dərhal Rusiyaya geri qayıtmasını istədiyini dedi. Çünki Almaniya Rusiyaya qarşı müharibə elan etmişdi. Xəbər qəzetlərdə dərc edildik-

əsər, səh. 92-105

dən sonra Alman hökuməti rus tələbələrin vətənlərinə geri qayıtmasına icazə verməyərək əsir saxlayacaqdı.

Tağıyev bu xəbəri eşitdikdən sonra dərhal ailəsi ilə Berlinə qayıtdı. Berlinə çatdıqda artıq xəbər qəzetlərdə yayılmışdı. Vağzala enərkən bayırda Rusiya əleyhinə mitinqlər gedirdi. Əhalinin çoxluğundan vağzal binasından bayıra çıxa bilmədilər. Almanlar küçədə rastlaşdıqları rusları döyürdülər. Vorontsov-Daşkovun xanımı milliyətcə erməni olan Yelizaveta Qriqoryevnanı küçənin ortasında saçlarından tutaraq sürümüşdülər. İki saata qədər vağzalda gözlədikdən sonra Hacı Zeynalabdin Tağıyev çantalarını vağzalda qoyaraq, ən zəruri əşyalarını yanına alıb oradan çıxmalı olduqlarını ailə üzvlərinə deyib polisin mühafizəsində vağzaldan çıxdılar. Yenə polislər tərəfindən dərhal bir maşına mindirildilər. Tağıyev Eksplodena otelinə getməli olduqlarını dedi. Otelə gəldiklərində otel rəhbərliyi onları içəri buraxmadı. Berlinin bütün otellərini gəzdilər, ancaq hamısı imtina etdilər. Axırda kənar məhəllələrdən birində bir otel onları qəbul etdi.

Tağıyevin Berlin bankında 100 000 manat pulu var idi. Pulunu geri götürmək istədiyində vermədilər. Bundan sonra Frankfurt-Mein şəhərində yaşayan, əvvəllər Bakıda su kəmərinin çəkilməsində ortağı olan Lindleyə zəng edərək məsələni ona danışdı. Lindley Berlinə Geviner adında bir adam göndərdi. Bu adamın vasitəçiliyi ilə Berlin Bankı Tağıyevin pulunu, nəğd olaraq ödəməsə də, sənədlə ödəməni qəbul etdi. Bundan sonra Tağıyev Türkiyə səfarətxanasına getdi və Rusiyaya gedə bilmək üçün kömək istədi. Türk Səfiri Əhməd Murad Paşanın Almaniya Kansleri II Vilhelmə müraciətindən sonra Tağıyev ailəsi ilə birlikdə Kanslerin xüsusi əmri və təşkil etdiyi bir gəmi, o cümlədən bu gəminin önündə gedərək onları mina və atəşdən qoruyacaq xüsusi bir qreyder vasitəsilə əvvəlcə Finlandiyaya, oradan da Peterburqa yola saldı. Tağıyev ailəsindən başqa bu gəmiyə II Vilhelmin icazəsi ilə rus,

erməni, gürcü və yəhudi tələbələrini də mindirməyi bacarmış və onları evlərinə sağ-salamat çatdırmışdır.[250]

### *Oğlunu itirir*

Rusyadakı sovet inqilabından sonra Bakıda vəziyyət gərginləşmiş və Bakı Soveti rəhbərliyi ələ keçirmişdi. Bakıda kommunistlər, ermənilər və menşeviklər silahlı dəstələr qurmuşdular. Müsəlmanlar da könüllülərdən ibarət "Dikaya Diviziya" (vəhşi diviziya) adlı bir dəstə yaratdılar. Tağıyevin 18 yaşındakı oğlu Məhəmməd Lənkərandakı bir dəstəyə könüllü şəkildə qoşuldu. Bir qəza nəticəsində Lənkəranda ölən Məhəmmədin cənazəsi Bakıya 48 əsgər tərəfindən gətirildi.[251]

İnqilabdan sonra 1918-ci ildəki türk-erməni münaqişəsində Tağıyev ölümlə təhdid edilirdi. Bir dəfə erməni milyonçularından J. Melikov oğlunu maşınla Tağıyevin evinə göndərmiş, Melikovun oğlu ermənilər tərəfindən onun öldürülə biləcəyini, təhlükəsizliyi üçün atasının onu evinə dəvət etdiyini desə də, Melikova təşəkkür edən Tağıyev bu dəvəti qəbul etməmişdir.[252] Tağıyev Azərbaycan Demokratik Cümhuriyyəti dövründə daha çox xeyriyyə işlərinə üstünlük vermiş və bir ağsaqqal kimi öz nəsihətlərini etmişdir.[253]

### *Sovet hakimiyyəti bütün var-dövlətini müsadirə etdi*

Azərbaycan Sovet hakimiyyətinin boyunduruğuna girdikdən sonra Tağıyevin bütün var-dövlətini müsadirə etdi. Nəriman Nərimanovun səyləri nəticəsində Mərdəkandakı bağ evində yaşamağına icazə verildi. Bütün fabrikləri, balıq vətəgələri, bankdakı pulları, evləri, əşyaları, maşını, bir sözlə,

---

250. M. Süleymanov, H. Z. Tağıyev, səh. 34-35.
251. Yaxın tariximizdən, AT, №5, aprel 1928, səh.9.
252. Erməni əsilli J. Melikov, 1918-ci ildə baş verən türk-erməni münaqişəsində 15 imkanlı müsəlmanı hadisələrin sonuna qədər evində gizlətdi. M. Süleymanov, eyni adlı əsər, səh. 55.
253. M. İsmayıl-M. İbrahimov, El Atası, səh. 10.

nəyi varsa hamısı müsadirə edilərək dövlətin hesabına keçirildi.

Tağıyev var-dövlətinin müsadirə edilməsindən sonra adlarının da dəyişdirilməsinə çox kədərləndi və Nəriman Nərimanovun yanına gedərək bunların təkrar əvvəlki adlarına qaytarılmasını tələb edərkən həbs edildi. Tağıyevin toxuculuq fabrikinin adı bolşeviklər tərəfindən "Lenin Parça Fabriki" ilə dəyişdirildiyində Tağıyev Nərimanovun yanına gedərək:

"-Nəriman! Öz pulumla inşa etdiyim teatr binasını xalqımıza bağışladım. Tağızadə adını dəyişdirib Dadaş Bünyadzadə qoydunuz. Buna etiraz etmirəm, çünki o da bir türkdür. Öz pulumla inşa etdirdiyim parça fabrikini də əlimdən aldınız, buna da etiraz etmirəm. Çünki millətimizə xidmət edəcəyini deyirsiniz. Yalnız etirazım adını dəyişdirib Leninin adını qoymağınızadır. Mən Leninə fabrik satmamışam. Əgər fabrikimin adını Nərimanov qoysaydınız, ona da heç bir etiraz etməzdim", - demişdi. Bu hadisədən sonra Tağıyevi həbs etdilər. Bundan sonra fəhlələr Tağıyevin azad edilməsini tələb edərək və bundan etibarən Hacının dolanacağını öz qazancları ilə təmin edəcəklərini deyərək etiraz etməyə başladılar. Tağıyev qısa bir müddətdən sonra azad edildi.[254]

Mərdəkanda yaşadığı vaxtlarda da fəaliyyətlərinə davam etmək istəyən Tağıyev bu barədə Nərimanovla məktublaşdı. 20 yanvar 1922-ci ildə Nərimanova yazdığı məktubların birində Tağıyev: "Böyük tarixi hadisələr nəticəsində ölkəmizin iqtisadi həyatında iz qoymuş mənim kimi yaşlı bir insanın gördüyü işlərdən uzaqlaşdırılmasına baxmayaraq, bu yeni dövrdə fəaliyyətsiz dayana bilmirəm. Düşünürəm ki, ömrümün qalan hissəsində bütün təcrübələrimlə xalqa və hökumətə həqiqətən faydalı ola biləcəyəm", - deyə qeyd etmişdir.[255] Nəriman Nərimanov üzərində Tağıyevin böyük zəhmətinin olduğu bir ziyalı idi. Müxtəlif əsərlərinin çap edilməsi və yazdığı müxtəlif qəzetlərdə məqalələrin nəşrini Tağıyev maliyyələşdirməklə

254. N. Keykurun, eyni adlı əsər, səh. 187-188.
255. M. İsmayıl- M. İbrahimov, eyni adlı əsər, səh. 54

yanaşı, Nərimanovun Odessada Novorossiysk Universitetində təhsili üçün zəruri maliyyə dəstəyini də o təmin etmişdi. Nəriman Nərimanov Tağıyevin onun üzərindəki haqqını inkar etməmiş, Azərbaycan Xalq Komissarlarının Sədri olduğu zamanlarda bolşevik-daşnak rejiminə baxmayaraq Tağıyevə sahib olduğu mülklərdən birində yaşamaq haqqı vermiş, Tağıyev ömrünün sonuna qədər Mərdəkandakı bağ evində yaşaya bilmişdir.[256]

Həyat yoldaşı Sona xanım, qızı Sara xanım, onun həyat yoldaşı Zeynal bəy və uşaqları, oğlu İlyas bəy Mərdəkandakı bağ evində yaşayırdılar. Bolşevik idarəsi ilə birlikdə əzablı günlər başlayınca, Sona xanım depressiyaya düşmüş və bu hal uzun müddət davam etmişdir. Sara xanım bu dövrdə atasına ən böyük dəstək idi. 1924-cü ilin avqust ayının sonlarında bir gün ailəliklə eyvanda əyləşib vaxt keçirərkən şəhərdən iki əsgər gələrək, Hacının böyük qızı Leylanın 3 uşağını götürüb İrana qaçdığını xəbər verdi. Bu xəbərdən sonra Hacının vəziyyəti pisləşdi və onu qolundan tutub yatağına uzatdılar. Bu hadisədən üç gün sonra isə Hacı Zeynalabdin Tağıyev vəfat etdi.[257] 1 sentyabr 1924-cü ildə Mərdəkandakı bağ evində vəfat edən Tağıyev öz vəsiyyəti ilə Mərdəkandakı din alimi Axund Hacı Turabın türbəsinin yanında dəfn edildi. Cənazəsində çox böyük bir izdiham var idi.

Tağıyevin ailəsində əsas çətinliklər bundan sonra başladı. Hacının ölümündən 40 gün keçməmiş bolşeviklər bağ evinə gəlib bütün otaqları kilidləyib möhürlədilər. Ailə üzvlərini evi tərk etməyə məcbur etdilər. Bundan sonra bütün ailə İçərişəhərdəki 2 otaqlı kiçik bir evdə məskunlaşdı. Bir müddət sonra Sona xanım Bandarnı küçəsindəki 8 nömrəli binadakı bir mənzilə keçdi. İlyas bəy ağır xəstələndi, 1931-ci ildə yerləşdirildiyi ruhi xəstəliklər dispanserində bir müddətdən sonra vəfat etdi. Xəstəxanadan götürülən cənazəsi ailəsinin də iştirakı ilə Bibiheybətdəki ailə qəbiristanlığında dəfn edildi. Cənazədə çox az adam var idi, çünki burjuaziya düşmənçiliyi-

256. Teyyub Qurban, eyni adlı əsər, səh. 17.
257. M. Süleymanov, eyni adlı əsər, səh. 147.

nin hökm sürdüyü bu dövrdə Tağıyev ailəsinin fərdləri ilə bir yerdə olmaq və hətta görünmək böyük cəsarət tələb edirdi. Hər nə qədər artıq keçmiş var-dövlətlərindən əllərində heç bir şey qalmasa belə, hətta Sara xanımın həyat yoldaşı Zeynal bəy, qızının bir ifadəsinə görə, "qorxudan ayrı faytonla gəlib" dəfn mərasimində iştirak etmişdir. Sona xanım da oğlundan bir il sonra dünyasını dəyişdi.

Sara xanım atasının vəfatından sonra depressiyaya düşmüş və iki dəfə özünü asmağa cəhd etmişdir. Qızının dediyinə görə, hər iki dəfə də Zeynal bəy Sara xanımı qızı ilə birlikdə görüb qurtarmışdır. Həkimlər Sara xanımın Bakıdan başqa bir şəhərə aparılmasının sağlamlığına müsbət təsir edəcəyini deyincə, Zeynal bəy həyat yoldaşını bacısı Süräyya xanımın yanına, Leninqrada apardı. Burada da Sara xanım özünə gələ bilmədi. 1934-cü ildə Sara xanım S. M. Kirovun ölümü ilə bağlı hadisələrdə ittiham edilərək həbs edildi. Qızı ilə kürəkəni analarını qurtarmaq üçün vəkil tutsalar da, Sara xanım iki il həbsdə qaldıqdan sonra azadlığa çıxdı. Bundan sonra Leninqradda qaldı və Zeynal bəydən boşandı. Əvvəlcə kitabxanada işlədi, sonra isə bir fabrikdə işlədi. Burada tanış olduğu tatar Nikolay Sarayevlə evlənən Sara xanım müharibə vaxtı cəbhəyə gedən həyat yoldaşının 1942-ci ildə ölüm xəbərini aldı. Sara xanımın həmin vaxt iki uşağı var idi. Sara xanım uşaqları ilə birlikdə Bakıya qayıtdı.

Burada qalmağa yer tapa bilməyincə oğlanlarını yetimxanaya vermək məcburiyyətində qaldı. Özü küçədə qalan Sara xanım çarəsiz halda uşaqlığının keçdiyi ata evinə getdi. Həmin vaxt bu bina müharibədə yaralanan əsgərlərin müalicə edildiyi xəstəxana kimi istifadə edilirdi. Sara xanım qapıdan geri qaytarıldı. Həyat yoldaşının müharibədə öldüyünü, uşaqları ilə küçədə qaldığını və ertəsi günü hərbi komissarlığa gedib bir çarə tapana qədər bir gecəlik onlara gecələməyə bir yer vermələrini, hətta qapının kandarında belə oturub səhərə qədər gözləyə biləcəyini, gecəni küçədə keçirsə dona biləcəyini desə də, onu içəri buraxmadılar. Gecəni bayırda qalan

Sara xanım sübh tezdən hərbi komissarlığa getdi. Komissar Mircəfər Bağırov Tağıyev ailəsini və Sara xanımı tanıyırdı. Bağırov Sara xanımın düşdüyü çətin vəziyyətdən qurtula bilməsi üçün səy göstərdi. Maarif  Naziri Süleyman Rəhimova zəng etdi və Sara xanıma münasib bir iş tapmasını istədi.

Rus dilini çox gözəl bilən Sara xanım Nazirliyin ümumi şöbəsində işə başladı. Yaxşı maaş və ev verdilər. Uşaqlarını yanına gətirdi. 1956-cı ilə qədər burada işlədi. Sonra isə Rus dili və Ədəbiyyatı İnstitutunun kitabxanasına göndərildi. Həmin il Bağırovun güllələnməsindən sonra İnstitutdakı işinə xitam verildi. Bundan sonra təkrar işsiz qaldı. İş üçün hara müraciət etsə də, müsbət cavab ala bilmədi. Yalnız çox cüzi bir təqaüd ilə dolanışığını təmin etdi. İki uşağı ilə çox ağır günlər keçirdi. Sara xanım 1991-ci ildə vəfat etdi. Sovet hökumətinin süqutunun şahidi oldu.[258]

Sara xanımın qızı, Hazı Zeynalabdin Tağıyevin nəvəsi də ağır günlər keçirmişdir. 1936-cı ildə atası Zeynal bəy Sara xanımı bacısının yanına apardıqdan sonra evlərinə gələn əsgərlər tərfindən həbs edilir. İki gün ərzində evləri dəlik-deşik axtarılır. Əsgərlər divarları belə sökərək pul və qızıl axtarırlar. Heç bir şey tapa bilmirlər. Zeynal bəy Səlimxanov bir il altı aydan sonra azad edilir. Tağıyevin nəvəsi danışır: “1937-ci ilin sonlarında atamı bir gün faytonla gətirib qapının qarşısında faytondan atıb getdilər. Xəstə idi, ayaq üstə dura bilmirdi. Qonşuların köməyi ilə evə aparıb yatağına uzandırdıq.

Bir neçə ay müalicə aldı. Onu hər gün dizlərinə qədər su dolu bir zirzəmidə saxladıqlarını, oturmağa, yatmağa imkan olmadan soyuq suyun içində qaldığını və hər gün pulların, qızılların yerini soruşduqlarını deyirdi.” 1941-ci ildə Zeynal bəy təkrar həbs edildi. Sabahı günü Tağıyevin nəvəsinin evləri təkrar axtarılır. Sovet hökumətinin işçiləri evlərinin, neft quyularının şəhadətnamələrini və digər bütün sənədləri alıb aparırlar. Hacı Zeynalabdinin pasportu, Zeynal bəyin bütün sənədləri, ailə üzvlərinin albom və şəkilləri də yığılıb aparılır.

258. Bəşiroğlu, eyni adlı əsər, səh. 15-17.

Tağıyevin nəvəsi axtarış aparanlardan bir Azərbaycan türkünün "Siz almanları qoruyursunuz" dediyini öz xatirələrində dilə gətirir. Zeynal bəyi Bayıl həbsxanasına göndərirlər. Sara xanımın qızı atasına yemək apararkən "Zeynal bəy Səlimxanov burada yoxdur, sürgün edildi" - deyirlər. Oradan Şəhər Prokurorluğuna gedib atasını soruşur. "Onu axtarma, o ingilislərlə əmkədaşlıq edirmiş, on il həbs cəzası verildi" cavabını alır. Orta məktəbdə rus dili müəllimliyi edən bir vətəndaşın ingilislərlə nə işi ola bilərdi ki "Bunu dediyimdə işinin çox olduğunu deyib məni otaqdan çıxartdı", - qızı deyir.

Bundan sonra bir ərizə yazıb Stalinə göndərir. On gündən sonra onu NKVD-yə çağırırlar. Axşam saat səkkiz radələrində həyat yoldaşı evdə olmadığına görə 3 uşağını qohumlarının yanına qoyub gedir. Stalinə ərizənin onun yazıb yazmadığını soruşurlar. Bəli, mən yazdım dedikdə "24 saat ərzində Bakı şəhərini tərk etməlisiniz. Əks halda sənin də gedəcəyin yer atanın yanı olacaq" xəbərdarlığını alır. "Halbuki atamı güllələmişdilər"-deyir. Həmin gün həyat yoldaşı ilə birlikdə cəld yığışıb götürə bildikləri cüzi əşya ilə Krasnovodskiyə gedərək beş il burada yaşayırlar. Həyat yoldaşı Zeynal Abdullayev Başneft Kəşfiyyat İdarəsində Baş Geoloq kimi işə başlayır. Daha sonra Lvov şəhərində məskunlaşırlar. 1951-ci ildə həyat yoldaşını Türkmən Neft Birliyinə təyin edirlər. Burada Geofizika idarəsində Baş Geoloq kimi işləyir. Həyat yoldaşı 1976-cı ildə Aşqabadda vəfat etdikdən sonra iki qızı və üç oğlu ilə burada qalır.[259]

Sovet hakimiyyəti dövründə Tağıyevin ailəsi sahib olduğu var-dövlət müsadirə edilərək çox əzablı günlər keçirmişdir. Bakıda çox ağır məşəqqətlər içində yaşayan Sara xanımdan başqa, Səfiyyə xanım özü 83 yaşında ikən anası Sara xanımın adına bir vəqf qurmağı bacarmış, lakin bu vəqfə pul yığmaq məsələsində çox çətinlik çəkmişdir. Hətta heç yardım yığa bilməmişdir. Ancaq yenə də anasının adını yaşatmağa çalışmışdır. Tağıyevin ilk övladı İsmayıl bəy atasının ölümün-

259. M. Süleymanov, eyni adlı əsər, səh. 147-148.

dən altı ay sonra vəfat etmişdir. İsmayıl bəyin oğlu Əbdürrəhman bəy İstanbulda məskunlaşmış və 91 yaşında vəfat etmişdir. İsmayıl bəyin qızı Məryəm və oğlu İbrahimin Bakıda yaşayıb vəfat etdiklərini də heç kim bilməmişdir ki, onlar Hacının nəvələridir. İrana qaçan Leyla xanım sonra Türkiyədə məskunlaşır.

Tağıyevin ikinci övladı Sadiq bəyin oğlu, öz adını verdiyi Zeynal bəy (1893-1940) isə babası tərəfindən Peterburq Toxuculuq İnstitutunda təhsil almağa göndərilmiş, sonra da eyni sahədə biliyini artırması üçün Londona göndərilmişdi. Qayıtdıqdan sonra babasının fabrikində işləyən Zeynal bəy Sovet hakimiyyəti dövründə müsadirə edilmiş bu fabrikə müdir təyin edilmiş, 10 il bu vəzifəni icra etdikdən sonra 1932-ci ildə KQB tərəfindən həbs edilmiş, 2 ilə qədər həbsxanada qaldıqdan sonra 1934-cü ildə azad edilmişdir. 1937-ci ildə yenə həbs edilən Zeynal bəyi KQB bu dəfə qısa müddətə buraxsa da, 1940-cı ildə üçüncü dəfə həbs edilmiş və göndərildiyi Bayıl həbsxanasında güllələnmişdir. Həqiqətdə günahı "milyonçu" Tağıyevin nəvəsi olmaq idi.[260]

260. M. Süleymanov, eyni adlı əsər, səh. 149.

## SON SÖZ

Tağıyev təhsili olmayan, qismən rusca və farsca danışa bilən bir Azərbaycan türkü idi. Məsləhətçilərinə Rusiya, İran, Osmanlı, Hindistan və Misirdə çap edilən qəzetləri oxudub mühüm məsələləri müzakirə edir, Rusiyada və islam dünyasında nələrin baş verdiyini yaxından izləyirdi.[261] Tağıyevin 1906-1920-ci illər ərzində göstərdiyi xidmətlərə aid sənədlərin bir çoxu təhrif edilmiş, gördüyü işlər başqalarının adına qeyd edilmişdir.[262] Çar Rusiyası, Azərbaycan Demokratik Cümhuriyyəti və Sovet hakimiyyəti dövründə yaşayan Tağıyevin həyatı J. D. Henrinin dediyi kimi tam bir macəradır.[263]

Sovet İttifaqı dövründə "Kapitalist" və "Milyoner" kimi dəyərləndirilib haqqında araşdırma aparmağa icazə verilməyən Tağıyev hər şeyə baxmayaraq unudulmamış və milli şüurda dərin izlər qoymuşdur. Azərbaycan müstəqilliyini əldə etdikdən sonra milli dəyərlərin qabardılması ilə əvvəlcə üstüörtülü, daha sonra isə aşkar şəkildə Azərbaycan tarixi üçün əhəmiyyətindən, sosial-mədəni həyatın inkişafındakı xidmətlərindən bəhs edilmişdir.

Azərbaycan müstəqilliyini əldə etdikdən sonra Tağıyevin yeni nəsillərə tanıdılması əsas müzakirə mövzusu olmuş və elm xadimləri onun şəxsində bir müddət qaranlıqda qalan tarixi tədqiq etməyə başlamışlar. Nəşr edilən məqalələrdə və

261. N. Nərimanov, eyni adlı əsər, səh. 38-39
262. Hazı Zeynalabdin Tağıyev, Azərbaycan Nəşriyyatı, Bakı-1993, səh. 8.
263. J. D. Henri, Baku: An eventful history, London, səh. 97.

xatirələrdə qaralanmağa (ləkələnməyə) çalışılan Tağıyevə bəraət verilib şəxsinə olan minnətdarlıq borcu ödənilməyə çalışılmışdır. Lakin bu etibar qazandırmaq xidmətləri belə kifayət etmir. Çünki Tağıyevlə bağlı cavablandırılması zəruri olan bir çox sual vardır.

Tağıyevin etdiklərini qiymətləndirə bilmək üçün o dövrün şərtlərini bilmək lazımdır. Onun doğulduğu dövr Qafqazda ən qarışıq dövrə təsadüf edir. Bölgədə İran və Rusiyanın apardığı hakimiyyət mübarizəsi, xanlıqlar dövrü və onların Rusiya tərəfindən işğal edilməsi, Azərbaycan torpaqlarının ikiyə bölünməsi bu dövrün ən başlıca hadisələrindəndir. Bölgədə XIX əsrin ikinci yarısından etibarən qismən də olsa bir stabillik meydana gəldi. Məhz bu dövrdə iqtisadi və ticari fəaliyyətlər xeyli sürətləndi.

Rusiyanın bölgə əhalisi üçün verdiyi qərarlar -xüsusilə 1870-ci il qanunnaməsi- bu ərazilərdə iqtisadiyyat və ticarət sahəsində inkişafa vəsilə oldu. 1872-ci ildə iltizam sisteminin ləğv edilməsindən sonra satın aldığı torpaqlardan neftin çıxması Tağıyevin həyatında dönüş nöqtəsi oldu. O bu sahədə birdən-birə Bakının ən varlı insanlarından biri oldu. Tağıyevin həyatı ibrətverici hadisələrə şahid oldu. O çox kasıb olaraq başladığı həyata milyoner olaraq davam etməsinə baxmayaraq, yenə kasıb halda vəfat etdi. Hətta həyat yoldaşı Sona xanım Tağıyevin ölümündən sonra əllərində olan son var-dövlətlərinin də müsadirə edilməsi ilə depressiyaya düşdü.

Tağıyev Çarizmin son dövrlərində Azərbaycan Demokratik Cümhuriyyətində və Sovet İttifaqının ilk dövrlərində baş verən hadisələrə şahid oldu. Neft sahəsində qazandığı pul onu Azərbaycanın ən mühüm şəxslərindən biri etdi. Lakin Tağıyev Nəriman Nərimanovun da ifadə etdiyi kimi fədakar bir davranışla 20 milyon manat dəyərindəki neft sənayesinə aid var-dövlətini beş milyon manata sataraq təqribən 3500 fəhlənin işlədiyi bir tikiş fabriki qurdu. Bu qədər insanı işlə təmin etməklə yanaşı, Xəzər dənizində yalnız kustar üsulla işlədilən balıqçılığı böyük bir sənaye halına gətirməsi, nəqliy-

yatı böyük bir sektora çevirməsi xalqı üçün etdiyi işlərin bir qismidir.

**Tağıyev iki şeyə inanırdı. Bunlardan biri xalqın iqtisadi cəhətdən güclü olması, digəri isə mütləq şəkildə təhsil səviyyəsinin yüksəldilməsi idi.** Onun təhsilə verdiyi əhəmiyyət bu gün də nümunə göstəriləcək səviyyədədir. 1890-cı illərdə elmi metodlarla bağçılıq məktəbi açması, yetim uşaqların təhsili ilə şəxsən maraqlanması, işlətdiyi işçilərin təhsil səviyyəsinin yüksəldilməsi üçün gördüyü işlər və həmin dövrdə çox çətin olmasına baxmayaraq qızların oxudulması üçün apardığı mübarizə təqdirəlayiqdir. Onun millətinin gələcəyi olan gəncləri təhsil almaları üçün xaricə göndərməsi ayrı şəkildə araşdırılacaq bir mövzudur. Həmçinin nəşr edilməsinə dəstək olduğu kitabların və qəzetlərin Azərbaycanın mədəni, siyasi və sosial inkişafı üçün nə qədər mühüm olduğu bu gün daha aydın şəkildə başa düşülür.

Tağıyevin ilk Azərbaycan teatrının açılması üçün etdiyi yardımlar və incəsənətə göstərdiyi həssaslıq onun yalnız iqtisadiyyat və təhsil sahəsinə deyil, mədəniyyət və sənətə də verdiyi əhəmiyyətin bariz nümunəsidir. Həmçinin Bakının ən xırda detallarına qədər şəhər planını çəkdirməsi və bu layihənin həyata keçirilməsi üçün heç bir maddi yardımı əsirgəməməsi Tağıyevin estetik zövqünün və daha yaxşı yaşama düşüncəsinin dəlilidir.

Tağıyevin Qaspiralıya, Ədirnədəki məscidə, qaçqınlara, Misirdəki məktəblərə, Peterburqdakı müsəlmanlara, İrandakı təhsil ocaqlarına və yoxsullara göstərdiyi yardım onun xeyirxahlığının Azərbaycandan kənarlara yayılmasının isbatıdır. Həmçinin qurulmasına öndərlik etdiyi xeyriyyə cəmiyyətləri ilə yardıma möhtac insanlara həmişə yardım etməyə çalışmışdır.

Bir sözlə Tağıyev iqtisadiyyat, ticarət, təhsil, mədəniyyət və şəhərsalma sahələrində bir çox uğurlu işlər gördü. O cümlədən Azərbaycan türklərinin mədəniyyət tarixi üçün də bir çox ilklərə imza atdı. **Bu gün o günün şərtlərində ziya-**

**lıların yetişməsinə etiraz edən qüvvələrə baxmayaraq, oxumaq-yazmaq bilməyən imkanlı və dindar bir şəxsiyyət olan Tağıyevin gördüyü işlərin çoxşaxəli şəkildə qiymətləndirilməsinin əhəmiyyətini dərk edə bilirik.**

## MÜNDƏRİCAT

TƏQDİMAT ............................................................ 7

ÖN SÖZ ............................................................... 11

TAĞIYEVDƏN ƏVVƏL və ONUN DÖVRÜNDƏ AZƏRBAYCANDA SİYASİ VƏZİYYƏT ....................... 14

HACI ZEYNALABDİN TAĞIYEVİN HƏYATI ............... 25

Əzmkarlığın zəfəri: Bənna köməkçiliyindən neft maqnatçılığına ............................................ 27

Bakı Batumi neft kəməri Tağıyevin ideyası idi ....... 37

Yeni sahələrə sərmayə qoyur .............................. 38

Tikiş fabriki quran Tağıyev işçiləri üçün daimi isti suyu olan binalar inşa etdirdi .......... 39

Tağıyev nəqliyyat işinə girir. ............................... 41

Xəzər dənizində balıqçılığa qoyulan sərmayə.......... 44

Tağıyev bank qurur .............................................. 44

Təhsil sahəsinə göstərdiyi böyük qayğı .................. 45

Müsəlman qız məktəbi ......................................... 46

Mollalara qarşı apardığı mübarizə ......................... 49

Məktəbə getməyə şagird tapılmadı........................ 51

Hər çətinliyə baxmayaraq qız məktəbi açıldı........... 52

Mərdəkan bağçılıq məktəbinin açılması.................. 55

Yetim uşaqlara peşə öyrədildi............................... 56

Türk gəncləri təhsil almaları üçün xarici ölkələrə göndərdi ............................................................ 56

Rus və gürcü məktəblərinə maddi dəstək göstərdi... 57
Tağıyevin mədəniyyət sahəsinə göstərdiyi maddi yardımlar................................................ 58
Nəşriyyat və mətbuat sahəsinə göstərdiyi maddi dəstək.................................58
Nəşr edilməsini maliyyələşdirdiyi kitablar. .............. 59
Sahibi olduğu qəzetlər ......................................... 60
Bakıda ilk Türk teatr binasını inşa etdirdi. .............. 64
Şəhərsalma və sosial fəaliyyətlərə dair sahələrə göstərdiyi maddi yardımlar................ 66
Xeyriyyə cəmiyyətlərinin qurulmasındakı rolu......... 66
Şəhərsalma fəaliyyətləri ...................................... 70
Bakı-Şollar su kəmərinin çəkilməsindəki rolu ......... 70
Bakını müasirləşdirmə fəaliyyətləri ........................ 72
Tağıyevin Çar hökuməti ilə münasibətləri .............. 73
Azərbaycandan kənara etdiyi yardımlar ................. 76
Osmanlı dövləti ilə münasibəti ............................. 79
Müəllim Cövdət bəyi Bakıya gətirdi....................... 80
Tağıyevin ağır günləri .......................................... 82
Qısqanclıq Tağıyevi məhkəməyə sövq edir.......... 82
Almaniyada başına gələnlər................................... 82
Oğlunu itirir......................................................... 84
Sovet hakimiyyəti bütün var-dövlətini müsadirə etdi ................................ 84
SON SÖZ................................................................ 91
ŞƏKİLLƏR ............................................................ 97

# ŞƏKİLLƏR[1]



1. Kitabda istifadə olunan şəkillər Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Tarix Müzeyi tərəfindən nəşr olunan "Hacı Zeynalabdin Tağıyev" adlı kitabdan götürülmüşdür.







Fabrikdən Görüntülər



H. Z. Tağıyevin fabrikində istehsal olunan parça nümünələri



H. Z. Tağıyevin parça fabrikinin meneceri Williams ilə
1907-ci ildə.....



H. Z. Tağıyevin 1907-ci ildən sonra çəkilmiş şəkli





Teatr binasının görünüşü



Teatr binasının dəhlizi



Teatr binasının girişi



Teatr binasının lobisi





Səhnə və salonun ümumi görünüşü



فيوضات



فيوضات

Редакторъ: Али-бекъ Гусейнъ-заде.
Издатель: Г. З. А. Тагиевъ.

H. Z. Tağıyev tərəfindən maliyyələşdirilən Füyuzat jurnalı



حيات

Редакція газеты "ГЭЯТЪ"
Баку, Николаевская ул., д. Г. З. А. Тагиева.

H. Z. Tağıyev tərəfindən maliyyələşdirilən Həyat qəzeti



H. Z. Tağıyevin 1912-ci ildə məşhur rəssam İosif Brodsky tərəfindən çəkilmiş portreti.



H. Z. Tağıyev Buxara Əmirini Bakıya gəlişi münasibəti ilə Mərdakandakı bağ evində qonaq edir



H. Z. Tağıyev və 1902-ci ildə Bakını ziyarət edən İran Şahı
Müzaffərəddin Şah Kaçar





Mərdəkan Bağçılıq məktəbinin şagirdləri



Qızlar məktəbi (İndiki M. Fizuli adına Əlyazmalar İnistutu)



H. Z. Tağıyev və ailəsi vəfat edən oğlu Kazımın tabutunun qarşısında



Şagirdlər siniflərinə gedərkən



Məktəbdə səhər yeməyi



Sona Xanım Tağıyeva (Ərəblinski) H. Z. Tağıyevin ikinci xanımı. (1881-1938)



Sona xanım və övladları ilə bərabər



H. Z. Tağıyev və Sona Xanımın oğulları: Məhəmməd Kazım və Məhəmməd Tağı



Ailə Ansamblı



H. Z. Tağıyev, Sona Xanım və qızı Leyla 1910-cu il



1924-cü ildə Mərdəkandakı bağında çəkilən şəkil



H. Z. Tağıyev, Qızı Leyla və onun övladları ilə bərabər Mərdakandakı bağ evində



Vətəndaşlar səndini jazan şəbə
Отдел записей актов гражданского состояния
cunbində 192 s.
192 год.

Vəfat barəsində kəjd
Запись
о смерти.



ZSFSÇ AZƏRBAJÇAN SSÇ
Xalq-Daxili İşlər Qomisarlьqь
Vət. Hal. Aqt. Qjudatь
Vətəndaşlьq

Народный
Комиссариат Внутренних Дел
ССР АЗЕРБАЙДЖАНА
Отдел
Актов Гражданского Состояния

Vəfat haqqьnda şəhadətnamə
СВИДЕТЕЛЬСТВО
о смерти № 3269

1938 г.

Vət
гр. Тагиева
(famillja—фамилия)
Сона
(ad və ata adь—имя и отчество)
vefat etmiş
умер (ла)
(jazь və rəqəmlə il gyn və aj)
(прописью и цифрами: год, месяц и число)
və bu xysusda vətəndaş hallarь aqtlarьnьn vəfat haqqьndakь dəftərində
о чем в книге записей актов гражданского состояния о смерти за
1938 г. il gyn ajda myvafiq qejd edilmişdyr.
числа м-ца произведена соответствующая запись.

şəhər—город
kənd—селение
rajon
район
ölkə—край
oblast—область
k/şurasь
с/совет
Vəfat jeri
Место смерти
Баку

Jaşь və vəfatьn səbəbi
Возраст и причина смерти
60 лет

ZAQS Byrosu mydiri
Завед. бюро ЗАГС

Kargyzar
Делопроизводитель

1561

H. Z. Tağıyev və Sona Xanımın ölüm kağızları



Sara Xanım (soldan dördüncü) H. Z. Tağıyevin Sovet dövründə baxımsız qalan Mərdəkandakı qəbrinin üstündə




H. Z. Tağıyev və Sara Xanımın Mərdəkandakı qəbirləri